**Azərbaycan Respublikasının Auditorlar Palatası**

**Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti**

Xarici tərəfdaşların dəstəyi ilə

**«Konstitusiya və Suverenlik İli» nə həsr edilmiş**

# "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə nəzarət orqanlarının rolu, vəzifələri və məsuliyyəti"

**(BEYNƏLXALQ ELMİ-PRAKTİK KONFRANS)**

**Bakı, 23-24 may 2025-ci il**

*«Azərbaycan Respublikası korrupsiyaya qarşı mübarizəni hər zaman həm milli, həm də beynəlxalq prioritet kimi qəbul etmişdir»*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*«The Republic of Azerbaijan has always regarded the fight against corruption as a national and international priority»*

***Ilham ALIYEV,***
***President Of The Republic Of Azerbaijan***

**Azərbaycan Respublikası Auditorlar Palatasının sədri,**
**professor Vahid NOVRUZOVUN**
**ümumi rəhbərliyi və elmi redaktəsi ilə hazırlanmışdır.**

**Tərtibçi və redaktorlar.**

**Elnur İbrahimov,**
Auditin hüquqi tənzimlənməsi və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə idarəsinin rəisi

**Həbibə Məmmədova,**
Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına
və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə şöbəsinin müdiri

***Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə nəzarət orqanlarının rolu, vəzifələri və məsuliyyəti (Beynəlxalq elmi-praktik konfransın materialları)***
***Bakı– 2025. 197 səh.***

2025-ci il 23-24 may tarixində Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti və Auditorlar Palatasının birgə təşkilatçılığı ilə Bakı şəhərində «Konstitusiya və Suverenlik İli» nə həsr edilmiş "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə nəzarət orqanlarının rolu, vəzifələri və məsuliyyəti" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilmişdir. Konfransda Pakistanın İmtiyazlı Mühasiblər İnstitutu (ICAP), Türkiyənin Sertifikatlı Mühasiblər Palataları Birliyi (TÜRMOB), İsrailin Sertifikatlaşdırılmış İctimai Mühasiblər İnstitutu (ICPAI), Latviyanın Sertifikatlı Auditorlar Assosiasiyası (LZRA), ölkəmizin dövlət və qeyri-hökumət təşkilatlarını, özəl sektoru, kütləvi- informasiya vasitələrini, ali təhsil və elmi-tədqiqat institutlarını təmsil edən nümayəndə iştirak etmişdir.

Beynəlxalq elmi-praktik konfransın materiallarında - konfransda səsləndirilmiş və Təşkilat Komitəsinin ünvanına daxil olmuş məruzələr, çıxışlar və tezislər toplanmışdır.

## KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ

***Fəqan QARAYEV*** – Auditorlar Palatası sədrinin müşaviri, Palatanın Şurası yanında Beynəlxalq əlaqələr və xarici təşkilatlarla iş üzrə komitənin sədri – Həmsədr

**ÜZVLƏR.**

***Nəcəf TALIBOV*** – Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri
***Elnur İBRAHİMOV*** – Auditin hüquqi tənzimlənməsi və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə idarəsinin rəisi
**Elçin QURBANOV** – Palatanın Şurası yanında Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmsına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM) üzrə komitənin sədri
***Həbibə MƏMMƏDOVA*** – Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə şöbəsinin müdiri
***Bəhman ABBASOV*** – Maliyyə və texniki təminat idarəsinin rəisi vəzifəsini müvəqqəti icra edən

## ORGANIZING COMMITTEE OF THE CONFERENCE

***Fagan GARAYEV*** – Advisor to the Chairman of the Chamber of Auditors, Chairman of the Committee on International Relations and Work with Foreign Organizations – Co-Chairman

## MEMBERS:

***Nacaf TALIBOV*** – Advisor to the Chairman of the Chamber of Auditors on scientific and methodological issues
***Elnur İBRAHİMOV*** – Head of the Department for Legal Regulation of Audit and On the prevention of the legalization of criminally obtained property and the financing of terrorism
**Elcin GURBANOV** – Chairman of the Committee on the prevention of the legalization of criminally obtained property and the financing of terrorism (AML/CFT) under the Council of the Chamber
***Habiba MAMEDOVA*** – Head of the Devision on the prevention of the legalization of criminally obtained property and the financing of terrorism
***Bahman ABASOV*** –Head of the Finance and Technical Support Department

**KONFRANSDA TƏMSİL OLUNMUŞ QURUMLAR**

1. ***Azərbaycan Respublikasının Milli Məclisi***
2. ***Azərbaycan Respublikasının Ali Məhkəməsi***
3. ***Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi***
4. ***Azərbaycan Respublikasının Mərkəzi Bankı***
5. ***Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı mübarizə Baş İdarəsi***
6. ***Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi***
7. ***Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti***
8. ***Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi***
9. ***Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti***
10. ***Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi***
11. ***Azərbaycan Respublikasının Hesablama Palatası***
12. ***Azərbaycan Respublikasının Auditorlar Palatası***
13. ***Azərbaycan Respublikasının Vəkillər Kollegiyası***
14. ***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası***
15. ***Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi***
16. ***Azərbaycan Banklar Assosiasiyası***
17. ***Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)***
18. ***Azərbaycan İqtisadçılar İttifaqı***
19. ***Azərbaycan Fond Bazarı İştirakçıları Assosiasiyası***
20. ***Azərbaycan Sığortaçılar Assosiasiyası***

*INSTITUTIONS REPRESENTED AT THE CONFERENCE*

1. **Milli Majlis (Parliament) of the Azerbaijan Republic**
2. **The Supreme Court of the Republic of Azerbaijan**
3. **Ministry of Economy of the Republic of Azerbaijan**
4. **Central Bank of the Republic of Azerbaijan**
5. **Antı-Corruption General Directorate with the Prosecutor General of the Republic of Azerbaijan**
6. **Ministry of Justice of the Republic of Azerbaijan**
7. **Financial Monitoring Service of the Republic of Azerbaijan**
8. **The State Customs Committee of the Republic of Azerbaijan**
9. **State Tax Service Under the Ministry of Economy of the Republic of Azerbaijan**
10. **State Statistics Committee of the Republic of Azerbaijan**
11. **Chamber of Accounts of the Republic of Azerbaijan**
12. **Chamber of Auditors of the Republic of Azerbaijan**
13. **Bar Association of the Republic of Azerbaijan**
14. **Confederation of Trade Unions of Azerbaijan**
15. **Small and Medium Business Development Agency of the Republic of Azerbaijan**
16. **Association of Banks of Azerbaijan**
17. **Azerbaijan State University of Economics (UNEC)**
18. **Azerbaijan Union of Economists**
19. **Azerbaijan Stock Market Participants Association**
20. **Azerbaijan Insurers Association**

**MÜNDƏRİCAT**

**Vahid Novruzov- Azərbaycan Respublikası Auditorlar Palatasının sədri.**

Ön söz 14

**Zaur Fətizadə – Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin idarə heyətinin sədri.**

Ön söz ***18***

***Anar Axundov – Azərbaycan Respublikasının iqtisadiyyat nazirinin müavini Anar Axundov.***

Ön söz ***26***

***Corc Dik – İsrailin Azərbaycanda fövqəladə və səlahiyyətli səfiri.*** Ön söz **28**

***Saif Ullah – Pakistanın İmtiyazlı Mühasiblər İnstitutunun (ICAP) prezidenti.*** Ön söz **30**

***Çen Şrayber – İsrailin Sertifikatlı İctimai Mühasiblər İnstitutunun (ICPAI) prezidenti, CPA.*** Ön söz **31**

***Samirə Musayeva – Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəis müavini . "ƏL/TMM sahəsində Vergi Xidməti və əlaqəli qurumların rolu". 35***

***Ziyad Səmədzadə – Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan İqtisadçılar İttifaqının sədri, akademik. "Real sektorda sağlam rəqabət mühitinin yaradılması kölgə iqtisadiyyatının azaldılması, çirkli pulların yuyulmasına qarşı mübarizənin strateji amili kimi". 39***

***Ədalət Muradov – Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru. "Təhsilin fərdiləşdirilməsi və dəyərlərin prioritetləşdirilməsi - mübarizənin uğur modeli". 49***

***Seher Gündoğdu – Türkiyənin Sertifikatlı Mühasiblər Palataları Birliyinin (TÜRMOB) Beynəlxalq əlaqələr departamentinin rəhbəri. "Türkiyədə çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində təlim, məlumatlandırma və əməkdaşlıq istiqamətlərində TÜRMOB-un fəaliyyətinin səmərəliliyi". 52***

***Simon Yaniv – İsrailin Sertifikatlaşdırılmış İctimai Mühasiblər İnstitutunun (ICPAI) İdarə Heyətinin üzvü, İqtisadi cinayətlərə və çirkli pulların yuyulmasına qarşı mübarizə komitəsinin sədri. "İsraildə çirkli pulların yuyulmasına qarşı mübarizə üzrə qanunvericiliyin prinsipləri". 55***

***Fuad İsayev – Azərbaycan Respublikası Mərkəzi Bankının Baş direktoru. "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Azərbaycan Respublikası Mərkəzi Bankının rolu". 60***

***Rauf Səlimov – Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədr müavini. "Müşahidə olunmayan iqtisadiyyatın statistik qiymətləndirilməsi". 63***

***Roi Katz – İsrailin Sertifikatlaşdırılmış İctimai Mühasiblər İnstitutunun (ICPAI) Direktorlar Şurasının üzvü, Blokçeyn və kriptovalyutalar üzrə komitəsinin sədri. "Çirkli pulların yuyulmasına qarşı mübarizədə mövcud bank qaydaları". 73***

*Nurlan Babayev – Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nəzarət və hüquq mühafizə orqanları ilə iş departamentinin direktoru. "ƏL/TMM üzrə risk əsaslı nəzarət konsepsiyası".* **79**

*Azim Abbasov – Azərbaycan Respublikası Hesablama Palatasının Dövlət gəlirlərinin və iqtisadi sahələrin auditi şöbəsinin müdiri. "Dövlət vəsaitinin mənimsənilməsinə qarşı mübarizədə Hesablama Palatasının rolu".* **82**

*Kiril Kondratovs – Latviyanın Sertifikatlı Auditorlar Assosiasiyasının (LZRA) üzvü, ƏL/TMM üzrə mütəxəsis. "Çirkli pulların yuyulmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə və sanksiyalarda andlı auditorların rolu".* **89**

*Tural Vəlibəyov – Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Mütəxəssis təhlilləri şöbəsinin rəis müavini. "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması cinayətlərinin istintaqı zamanı maliyyə təhlili məlumatlarından istifadə edilməsi təcrübəsinin genişləndirilməsi, bu məlumatlara olan ehtiyacların təhlil edilməsi və mütərəqqi çağırışlara yönələn tədbirlərin həyata keçirilməsi üçün təkliflər".* **100**

*Eli Zuker – İsrailin Enerji infrastrukturu üzrə şirkətinin icraçı direktorunun müavini və maliyyə rəhbəri. "Böyük korporasiyalarda maliyyə rəhbərləri üçün çirkli pulların yuyulması üzrə qanunvericiliyin təsirləri"* **110**

*Ramil Əliyev – Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Audit şöbəsinin müdiri. "Çirkli pulların yuyulmasına qarşı mübarizədə etik davranış və institusional məsuliyyət. Həmkarlar ittifaqlarının rolu".* **115**

*Elnur İbrahimov – Azərbaycan Respublikası Auditorlar Palatasının Auditin hüquqi tənzimlənməsi və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə idarəsinin rəisi. "Azərbaycan Respublikası Auditorlar Palatasının nəzarət orqanı kimi cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə iştirakı".* **118**

*Nəcəf Talıbov – Azərbaycan Respublikası Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri. "Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə)".* **131**

*Səftər Vəlizadə – Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, "SR Audit Solutions" MMC-nin direktoru. "ƏL/TM-ə qarşı mübarizədə müstəqil auditin potensial imkanları".* **138**

*Elçin Qurbanov – Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında ƏL/TMM üzrə komitənin sədri, "VXA Audit" MMC-nin direktoru. "ƏL/TMM fəlsəfəsi və bu barədə ictimai şüurun formalaşdırılması".* **139**

*Şamxal Kərimov – Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, Sərbəst auditor. "ƏL/TMM-də süni intellektin tətbiqi və onun kadr təminatı".* **146**

*Raheel Rehman – Pakistanın İmtiyazlı Mühasiblər İnstitutunun (ICAP) ƏL/TMM üzrə Müşahidə Şurasının üzvü, "JS Investments" şirkətinin vitse-prezidenti və maliyyə direktoru. "ƏL/TMM sahəsində mühasiblərin və auditorların riskləri.FATF Tövsiyələrinə əsasən mühasiblərin və auditorların öhdəlikləri. ƏL/TMM sahəsində risk əsaslı yanaşma".* **151**

*Elnur İbrahimov – Azərbaycan Respublikası Auditorlar Palatasının Auditin hüquqi tənzimlənməsi və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə idarəsinin rəisi. "Auditor xidməti göstərən şəxslər tərəfindən ƏL/TMM-ə dair qanunvericiliyə riayət olunmasına nəzarət". 173*

*Kiril Kondratovs – Latviyanın Sertifikatlı Auditorlar Assosiasiyasının (LZRA) üzvü, ƏL/TMM üzrə mütəxəsis. "Çirkli pulların yuyulmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə və sanksiyalarda andlı auditorların rolu". 183*

*TÖVSİYƏLƏR 189*

## CONTENT

*Vahid Novruzov – Chairman of Chamber of Auditors of the Republic of Azerbaijan. For a word* 14

*Zaur Fatizade – Chairman of the Management Board of Financial Monitoring Service of the Republic of Azerbaijan. For a word* 18

*Anar Akhundov – Deputy Minister of Economy of the Republic of Azerbaijan. For a word* 26

*George Deek – Ambassador Extraordinary and Plenipotentiary of Israel to Azerbaijan. For a word* 28

*Saif Ullah – President of Institute of Chartered Accountants of Pakistan (ICAP). For a word* 30

*Chen Schreiber – President of Institute of Certified Public Accountants in Israel (ICPAI). For a word* 31

*Samira Musayeva – Deputy Head of State Tax Service under the Ministry of Economy of the Republic of Azerbaijan. "The Role of the Tax Service and Related Agencies in AML/CFT".* 35

*Ziyad Samadzade – Member of the Milli Majlis of the Republic of Azerbaijan, Chairman of the Union of Economists of Azerbaijan, academician. "Establishing a fair competitive environment in the real sector as a strategic factor in reducing the shadow economy and countering money laundering".* 39

*Adalat Muradov – Rector of Azerbaijan State University of Economics (UNEC). "Personalized Education and Value Prioritization – A Model for Successful Prevention".* 49

*Seher Gundogdu – Head of the International Affairs Department of Union of Chambers of Certified Public Accountants of Türkiye (TÜRMOB). "The effectiveness of TÜRMOB in the fields of training, awareness and cooperation on AML and CFT in Türkiye".* 52

*Simon Yaniv – Board Member of Institute of Certified Public Accountants in Israel (ICPAI), Chair of Committee on Economic Crimes and AML. "The principles of the AML Law in Israel".* 55

*Fuad Isayev – Executive Director of Central Bank of the Republic of Azerbaijan. "The Role of the Central Bank of Azerbaijan in AML/CFT".* 60

*Rauf Salimov – Deputy Chairman of State Statistical Committee of Azerbaijan. "Statistical Estimation of the Shadow Economy".* 63

*Roi Katz – Board Member of Institute of Certified Public Accountants in Israel (ICPAI), Chair of Committee on Blockchain and Cryptocurrencies. "The banking regulations on money laundering"* 73

*Nurlan Babayev –Director of Department for Cooperation with Supervisory and Law Enforcement Bodies of Financial Monitoring Service of Azerbaijan. "Risk-Based Supervision Concept in AML/CFT"* 79

*Azim Abbasov – Head of Department for Audit of Public Revenues and Economic Sectors of Chamber of Accounts of the Republic of Azerbaijan. "The Role of the Chamber of Accounts in Combating Misappropriation of Public Funds".* 82

*Kiril Kondratovs – Member of Association of Certified Auditors of Latvia (LZRA), licensed AML/CFT specialist. "The Role of Sworn Auditors in Combating Money Laundering, Terrorist Financing and Sanctions"* 89

*Tural Velibeyov – Deputy Head of Department of Expert Analysis of Anti-Corruption Directorate under the Prosecutor General of Azerbaijan. "Proposals for expanding the practice of using financial analysis data during the investigation of money laundering crimes, analyzing the needs for this data, and implementing measures aimed at progressive challenges"* 100

*Eli Zooker – Deputy CEO and CFO of Israeli Energy Infrastructure Company. "The implications of AML regulations for CFOs in large corporations"* 110

*Ramil Aliyev – Head of the Audit Department of Confederation of Trade Unions of Azerbaijan. "Ethical behavior and institutional responsibility in combating money laundering. the role of Trade Unions".* 115

*Elnur İbrahimov – Head of Department for Legal Regulation of Audit and AML/CFT of Chamber of Auditors of the Republic of Azerbaijan. "Participation of the Chamber of Auditors of the Republic of Azerbaijan in AML/CFT as a Supervisory Authority".* 118

*Najaf Talibov – Advisor to the Chairman on Scientific and Methodological Issues of Chamber of Auditors of the Republic of Azerbaijan. "International Code of Ethics for Professional Accountants (including International Independence Standards)".* 131

*Saftar Velizade – Member of Chamber of Auditors of the Republic of Azerbaijan, Director of "SR Audit Solutions" LLC. "Potential opportunities for independent audit in AML/CFT".* 138

*Elchin Gurbanov – Chair of AML/CFT Committee under the Board of the Chamber of Auditors, Director of "VXA Audit" LLC. "Philosophy of AML/CFT and Public Awareness"* 139

*Shamkhal Karimov – Member of Chamber of Auditors of the Republic of Azerbaijan, Independent Auditor. "Application of Artificial Intelligence in AML/CFT and its Human Resources Provision"* 146

*Raheel Rehman – Member of AML Oversight Board of Institute of Chartered Accountants of Pakistan (ICAP). Executive Vice President and CFO of "JS Investments" Ltd. "AML / CFT risks related to Accountants and Auditors. b). Obligations for Accountants and Auditors under FATF Recommendations.c). Risk Based Approach in AML / CFT".* 151

*Elnur İbrahimov – Head of Department for Legal Regulation of Audit and AML/CFT of Chamber of Auditors of the Republic of Azerbaijan.* *173*

*Kiril Kondratovs – Member of Association of Certified Auditors of Latvia (LZRA), licensed AML/CFT specialist. "The Role of Sworn Auditors in Combating Money Laundering, Terrorist Financing and Sanctions"* *183*

*RECOMMENDATIONS* *189*

*Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, i.e.d.,professor*

*Vahid NOVRUZOV*

**Hörmətli konfrans iştirakçıları!**

**Xanımlar və cənablar!**

Mən Sizin hamınızı ürəkdən **salamlayır** və dəvətimizi qəbul edib Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidməti və Auditorlar Palatasının birgə təşkilatçılığı ilə keçirilən bugünkü beynəlxalq elmi-praktik konfransın işinə qatıldığınıza görə təşkilatçılar adından minnətdarlığımı bildirirəm.

Bu gün bütün **ölkələri narahat edən problemlərdən** biri də cinayət yolu ilə əmlakın əldə edilməsi və ondan terrorizmin maliyyələşdirilməsində istifadə olunması hallarının tam aradan qaldırılmamasıdır.

Çox önəmlidir ki, belə halların yolverilməzliyini davamlı olaraq qeyd edən Prezident **İlham Əliyevin** müvafiq sərəncamı ilə təsdiq edilmiş "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair **2023–2025-ci illər** üzrə Milli Fəaliyyət Planı" bu istiqamətdə çox mühüm kompleks tədbirlərin reallaşdırılmasını hədəfləmişdir. Milli Fəaliyyət Planı öz əhatəliliyi və təkmilliyi baxımından çox əhəmiyyətli sənəd olmaqla, cəmiyyətimiz üçün həyati vacib istiqamətləri özündə ehtiva edir.

Əlamətdar haldır ki, ölkəmizin müvafiq dövlət orqanları və digər qurumlar tərəfindən ötən dövr ərzində MFP-nın icrası istiqamətində Maliyyə Monitorinqi Xidmətinin və Kordinasiya Şurasının dəstəyi ilə **mühüm nəticələr** əldə olunmuşdur ki, bu da Azərbaycanın Beynəlxalq aləmdə reytinqinin yüksəlməsinə zəmin yaratmışdır. Lakin görüləsi işlər də hələ çoxdur.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin bir neçə gün əvvəl Bakıda keçirilən beynəlxalq tədbirin iştirakçılarına ünvanlandığı müraciətdə qeyd etdiyi kimi. **"Hazırda süni intellekt, rəqəmsal maliyə sistemləri və kibermühitlə bağlı texnoloji inkişaf korrupsiya və digər cinayətlərin yeni formalarının yaranmasına səbəb olmuşdur. Bu mürəkkəb və sürətlə dəyişən çağırışlar hüquq-mühafizə orqanları üçün qlobal miqyasda yeni və**

**çoxşaxəli vəzifələr müəyyən edir. Azərbaycan bu təhlükələrin qarşısını almaq üçün beynəlxalq tərəfdaşlarla sıx əməkdaşlıq çərçivəsində öz imkanlarını gücləndirməyə sadiqdir”.**

**Hörmətli tədbir iştirakçıları!**

Təəsüflə qeyd etməliyəm ki, bir çox nəzarət orqanları, o cümlədən auditorlar şübhəli maliyyə əməliyyatlarının aşkar edilməsi qayğısına yetərincə qalmır və ya nöqsanları vaxtında aşkar etmirlər. Bunlar isə həm hüquqi məsuliyyətə, həm də peşəkar nüfuz itkilərinə səbəb olur.

ƏL/TM-ə qarşı mübarizədə nəzarət orqanlarının məsuliyyəti yalnız texniki yoxlama ilə məhdudlaşmır. Onlar etik prinsiplərə əsaslanaraq şəffaflığı təşviq etməli və maliyyə sisteminin sağlamlığına töhfə verməlidirlər. Peşəkar fəaliyyət və sosial məsuliyyət anlayışı işimizin ayrılmaz hissə olmalıdır.

Bu baxımdan mühasiblərin və auditorların həm çirkli pulların aşkarlanmasında, həm də hüquqi uyğunluğun təmin olunmasında rolunu müəyyənləşdirən Beynəlxalq Audit Standartlarına (məsələn, 240 və 250 BAS) və beynəlxalq təcrübələrə uyğun hərəkət etmələrini zəruridir.

Eyni zamanda, maliyyə nəzarəti orqanları təşkilatın mövcud daxili nəzarət siyasətlərini və prosedurlarını təkmilləşdirmək üçün müvafiq tövsiyələr təqdim etməlidirlər.

Çirkli pulların yuyulması və kibercinayətkarlıq ilə effektiv mübarizədə **müasir texnologiyaların və süni intellektin** istifadəsi də nəzarət orqanlarının diqqət mərkəzində durmalıdır.

Ölkə prezidenti cənab İlham Əliyevin bu günlərdə göstərdiyi kimi. “**Azərbaycan Respublikası korrupsiyaya qarşı mübaizəni hər zaman həm milli, həm də beynəlxalq prioritet kimi qəbul etmişdir. Çirkli pulların yuyulması qlobal bir məsələdir və onunla mübarizə beynəlxalq əməkdaşlıq tələb edir”.**

Bu baxımdan nəzarət orqanları xarici həmkarlarla və beynəlxalq təşkilatlarla (məsələn, BMT, MONEVAL, FATF) birgə işləməli və informasiya mübadiləsi aparmalıdırlar.

Bu əməkdaşlıq, təcrübə mübadiləsi ilə yanaşı cinayətkar qrupların sərhəd aşan maliyyə əməliyyatlarını izləmək və qarşısını almaq məqsədini güdür.

Nəzarət orqanları müvafiq qurumların əməkdaşlarını, maliyyə sektorunun işçilərini və cəmiyyəti çirkli pulların yuyulması və bu fenomenin fəsadları barədə **maarifləndirmək** üçün də çox işlər görməlidirlər.

**Ümid edirəm ki, bugünkü konfransımızda** səsləndiriləcək fikirlər əsasında hazırlanacaq tövsiyələr ölkələrimizdə ƏL/TM-ə qarşı mübarizədə nəzarət orqanlarının məsuliyyətlərinin gücləndirilməsinə və vəzifələrinin daha da ciddi yerinə yetirilməsinə öz müsbət töhfəsini verəcəkdir.

Əziz dostlar! Çıxışımın sonunda fürsətdən istifadə edərək, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin, İqtisadiyyat Nazirliyinin, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin, Dövlət Statistika Komitəsinin, Baş Prokuror yanında Korrupsiya qarşı mübarizə Baş İdarəsinin, Mərkəzi Bankının, Hesablama Palatasının, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA), Həmkarlar İttifaqları Konfederasiyasının, Dövlət İqtisad Universitetinin, İqtisadçılar İttifaqının, Vəkillər Kollegiyasının, Banklar Assosiasiyasının rəhbərlərinin və səlahiyyətli nümayəndələrin hər birinə tədbirimizə verdikləri dəyərə görə **təşəkkür** edirəm.

Mən böyük məmnuniyyətlə **dost ölkələr** olan, Pakistan İslam Respublikasının İmtiyazlı Mühasiblər İnstitutunun (ICAP) prezidenti cənab Saif Ullah və onun rəhbərlik etdiyi nümayəndə heyətinin üzvlərini, İsrailin Sertifikatlı İctimai Mühasiblər İnstitutunun (ICPAI) prezidenti cənab Çen Şrayberi və onun rəhbərlik etdiyi nümayəndə heyətinin üzvlərini, Türkiyə Sertifikatlı Mühasiblər Palataları Birliyinin (TÜRMOB) nümayəndəsi Seher Gündoğdunu, Latviya Sertifikatlı Auditorlar Assosiyasiyasının üzvü cənab Kiril Kondratovsu ürəkdən salamlayır və Azərbaycana xoş gəlmisiniz deyirəm. Eyni zamanda, bizim üçün xoşdur ki, bu günkü tədbirimizdə Azərbaycanda fəaliyyət göstərən dost ölkələrin fövqəladə və səlahiyyətli nümayəndələri, o cümlədən İsrailin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri **Corc Diki** salamlayır və vaxt tapıb Konfransda iştirak və çıxış etdiyinə görə təşkilatçılar adından təşəkkür edirəm.

Mən xarici qonaqlarımıza xitabən demək istəyirəm ki, Sizləri Azərbaycanda və bu Konfransda görməkdən böyük **məmnunluq duyuruq.** Gəlişiniz bizim üçün önəmlidir və bu, ölkələrimiz, qurumlarımız və həmkarlarımız arasında əməkdaşlığın və **dostluğun inkişafına xidmət edir.**

Sizə Azərbaycana **xoş gəlmisiniz deyirik** və ümid edirik ki, buradakı görüşlərimiz və müzakirələrimiz faydalı, təəssüratlarınız isə unudulmaz olacaq.

**Əziz dostlar!**

Tədbirimizin proqramına əsasən, konfransın ikinci gününün UNEC-in inzibati binasında keçirilməsi üçün yaradılmış şəraitə və ölkə auditorlarına daim göstərilən yüksək təşkilati dəstəyə görə Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, hörmətli professor Ədalət Muradova xüsusi təşəkkür edirəm.

Fürsətdən istifadə edərək, ölkəmizdə şəffaflığın artırılması və ƏL/TM-ə qarşı mübarizə sahəsində bizimlə birgə silsilə konfrans və digər tədbirlər keçirən Azərbaycan Respublikası Maliyyə Monitorinq Xidmətinin rəhbəri və bu günki konfransımızın həm təşkilatçısı olan Zaur Fətizadəyə dərin minnətdarlığımı bildirirəm.

Bu tədbirimizin keçirilməsinə göstərdikləri dəstəyə görə adları konfransın banerində göstərilmiş Palata üzvlərinə təşəkkür edirik.

Sonda ümidvar olduğumu bildirmək istəyirəm ki, bugünkü konfransımızda səsləndirilən fikirlər əsasında hazırlanacaq **təklif və tövsiyələrin tətbiqi** ölkələrimizdə dayanıqlı və yaşıl iqtisadiyyatın hesabatlılıq və şəffaflıqla bağlı bir sıra problemlərinin həllinə, bu istiqamətdə mühasiblərə və auditorlara vəzifələrinin daha ciddi yerinə yetirilməsinə öz müsbət töhfəsini verəcəkdir.

Konfransın işinə uğurlar arzulayıram. Diqqətinizə görə minnətdaram.

*Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin idarə heyətinin sədri*

***Zaur FƏTİZADƏ***

**Hörmətli konfrans iştirakçıları, xanımlar və cənablar!**

Böyük məmnuniyyət hissi ilə **"Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə nəzarət orqanlarının rolu, vəzifələri və məsuliyyəti"** mövzusunda elmi-praktik konfransın həmtəşkilatçısı kimi Sizi Bakıda salamlamaqdan məmnunluq duyuram.

**Ümummilli Lider Heydər Əliyev** 1993-cü ildə yenidən rəhbərliyə gəldikdən sonra Azərbaycanda inkişaf və rifah dövrü başlanmış, cinayətkarlıq, ekstremizm və terrorçuluqla mübarizə strategiyası müəyyən edilmiş, Azərbaycan Respublikası beynəlxalq antiterror koalisiyasının fəal iştirakçılarından birinə çevrilmiş və qəbul edilmiş konvensiyalara qoşulmuşdur. Bu siyasətin **Möhtərəm Cənab Prezident İlham Əliyev** tərəfindən böyük uğurla davam etdirilməsi nəticəsində siyasi idarəçilik sistemi inkişaf etdirilmiş, dayanıqlı və davamlı rifaha nail olunmuş, ölkəmiz dünya birliyi tərəfindən etibarlı tərəfdaş kimi tanınmışdır. **44 günlük Vətən müharibəsində** qazanılan möhtəşəm Zəfər nəticəsində 30 il işğalçı erməni rejiminin, terrorunun qurbanına çevrilmiş torpaqlarımız azad olunmuş, ölkəmizin suverenliyi tam bərpa edilmişdir. Respublikamızda demokratik, hüquqi, dünyəvi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesi davam etdirilmiş, azad edilmiş torpaqlarda yenidənqurma işləri daha da genişləndirilmiş, **COP 29 və digər mötəbər beynəlxalq tədbirlərə** ev sahibliyi edən ölkəmizin regional və qlobal nüfuzu daha da artmışdır.

Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti tərəfindən 2024-cü il ərzində cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə vahid tənzimləmənin həyata keçirilməsi, qanunvericiliyin beynəlxalq tələblərə uyğunlaşdırılması, hesabatların qəbulu, təhlili və ötürülməsinin icra edilməsi, müvafiq yerli və beynəlxalq qurumların fəaliyyətinin əlaqələndirilməsi istiqamətində işlər davam etdirilmişdir.

Bu sahədə potensialın artırılması, Xidmətin yeni standartlara uyğun, maliyyə sisteminin təhlükəsizliyinin təmin olunmasına xidmət edən orqana çevrilməsi, maliyyə kəşfiyyatı tədbirlərinin avtomatlaşdırılması məqsədilə 2023-cü ilin sonlarında 17 moduldan ibarət, müasir texnologiyalara əsaslanan yeni proqram təminatı **"ŞƏMS - Şübhəli Əməliyyatların Monitorinqi Sistemi"**nin yaradılmasına start verilmişdir.

ŞƏMS yaradılarkən bu sahədə uçot və hesabatlılığın qurulması, dövlət qurumları ilə onlayn inteqrasiya, yeni innovativ tətbiqlərdən və vizuallaşdırmadan istifadə, aktual məlumat bazasının formalaşdırılması, risklərin idarə olunması **əsas hədəflər** kimi müəyyən edilmişdir. ŞƏMS maliyyə kəşfiyyatı sahəsində ixtisaslaşmış əməkdaşların və informasiya texnologiyaları mütəxəsislərinin səyləri nəticəsində 2025-ci ilin yanvar ayında istifadəyə verilmişdir.

Artıq öhdəlik daşıyan şəxslər rahat **elektron formatda qeydiyyatdan** keçir, funksionallığa uyğun yaradılmış Şəxsi Kabinetlər vasitəsilə hesabatları təqdim edir və sistemdə olan məlumatlardan istifadə edirlər. Cari tarixə **1 943** öhdəlik daşıyan şəxs qeydiyyatdan keçmişdir ki, bunlardan **174** maliyyə sektoruna, **1 769** isə qeyri-maliyyə sektoruna aid öhdəlik daşıyan şəxslərdir. Qeydiyyatdan keçməli öhdəlik daşıyan şəxslərin maliyyə sektoru üzrə **10,0 faizi**, qeyri-maliyyə sektoru üzrə isə **30,5 faizi** qeydiyyatdan keçmişdir ki, bu da nəzarət orqanları tərəfindən bu sahədə görülən işlərin intensivliyinin artırılmasını tələb edir.

Eyni zamanda, nəzarət orqanları üçün kabinetlər hazırlanmış, öhdəlik daşıyan şəxslərin, onlar tərəfindən təqdim edilmiş hesabatların reyestrindən istifadə etməklə effektiv nəzarət mexanizminin qurulması imkanı verilmişdir. Lakin, 3 nəzarət orqanı bu istemdən istifadəyə başlamamışdır.

Yeni sistem istifadəyə verilənədək öhdəlik daşıyan şəxslər tərəfindən təqdim edilən hesabatların hər biri fərqli struktura malik idi. Bu da öhdəlik daşıyan şəxslərin əlavə inzibati xərclərinə, vaxt itkisinə, eyni əməliyyat növü üzrə müxtəlif sualların yaranmasına səbəb olurdu. Öhdəlik daşıyan şəxslər üçün rahat tərtib etmənin təmin olunması,

hesabatlılıq sisteminin effektiv qurulması məqsədilə bütün hesabat formaları **vahid standarta** uyğun hazırlanmışdır.

ŞƏMSdə öhdəlik daşıyan şəxslər tərəfindən təqdim edilən hesabatlarda səhv, natamam məlumatların qarşısının alınması üçün **çarpaz yoxlamalar** həyata keçirilir, yəni hesabat üzərində olan məlumatlar qurulmuş məntiqlərə uyğun olaraq bir-biri ilə, həmçinin digər qurumlardan inteqrasiya vasitəsilə alınmış məlumatlarla müqayisə edilərək yoxlanılır. Bu yoxlamalarda aşkar olunmuş kənarlaşmalar ətraflı izah olunur, müvafiq düzəlişlərin edilməsi üçün imkanlar yaradılmışdır.

ŞƏMS Xidmətin funksiyalarının avtomatlaşdırılmasına imkan vermiş, şübhəli şəxslərin ətraflı araşdırılması, onlar barədə mümkün qədər çox məlumatın qısa müddət ərzində toplanması məqsədilə **15 qurumdan məlumatın onlayn rejimdə** alınması reallaşdırılmışdır.

Təhlil işlərinin səmərəli, qısa müddət ərzində aparılmaqla düzgün nəticələrin əldə olunması məqsədilə yaradılmış hesabatlılıq sistemində standart, qrafik, diaqram formata əsaslanan biznes analitikası, profillərin, onların qarşılıqlı əlaqələrinin **vizuallaşdırması** formatlarından istifadə olunur. Artıq təhlil proseslərində süni intellektin tətbiq olunmasına başlanılmışdır.

Məlum olduğu kimi, Azərbaycanda cinayətkarlıq, ekstremizm və terrorçuluqla mübarizə strategiyası, açıqlıq, şəffaflıq və hesabatlılıq prinsiplərinin tətbiqinin daha da genişləndirilməsi, maliyyə şəffaflığının yüksəldilməsi, vətəndaş cəmiyyəti institutlarının dəstəklənməsi və ictimai nəzarətin gücləndirilməsi, habelə açıq hökumətin təşviqi **Möhtərəm Cənab Prezident İlham Əliyevin** yürütdüyü siyasətin təməlini təşkil edir.

Bu məqsədlə, Nazirlər Kabinetinin tərkibində yaradılmış **Koordinasiya Şurasının** effektiv və uğurlu fəaliyyəti nəticəsində Maliyyə Monitorinqi Xidməti ilə aidiyyatı hüquq mühafizə orqanları, nəzarət qurumları və öhdəlik daşıyan şəxslər arasında **effektiv məlumat mübadiləsinin təmin edilmiş**, **milli risk qiymətləndirilməsi** ilə müəyyən edilmiş çatışmazlıqların aradan qaldırılması məqsədilə hazırlanmış **Milli Fəaliyyət Planında** nəzərdə tutulmuş tədbirlərin icrası davam etdirilmişdir.

Auditorlar Palatası ilə birlikdə təşkil olunmuş və artıq **2-ci dəfə** keçirilən bu **konfransın əsas məqsədi** cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində fəaliyyət göstərən nəzarət qurumları, özəl sektordan olan mütəxəssislər, tədqiqatçılar arasında **bilik, fikir və təcrübə mübadiləsinin aparılması üçün yeni platformanın** yaradılmasıdır. Əminəm ki, tədbir zamanı **yaratdığımız qarşılıqlı əlaqələr** bu sahədə üzləşdiyimiz **problemləri daha dərindən dərk etməyə**, onların həlli üçün **yeni, effektiv mexanizmlərin müəyyən edilməsinə** kömək edəcəkdir.

Məlum olduğu kimi, **mübarizə mexanizminin** təşkilində effektiv **nəzarət** xususi əhəmiyyət kəsb edir və bu baxımdan **nəzarət orqanları** tərəfindən öhdəlik daşıyan şəxslərə onların qanunvericiliklə müəyyən edilmiş vəzifələrinin icra edilməsi, müəyyən edilmiş **problemlər barədə** aidiyyatı üzrə məlumat verilməsi barədə mütəmadi məlumatlandırma işlərinin aparılması, həmçinin nöqsanlar müəyyən edilərsə **inzibati və ya qanunvericilikdə nəzərdə tutulmuş digər tədbirlərin** həyata keçirilməsi zəruridir.

Qeyd olunan tədbirlərdən məlumatlandırma işlərinin aparılması vacibdir və **qeyri-maliyyə sektoru üzrə** nəzarət orqanları *(MB istisna)* tərəfindən 2024-cü il ərzində **110** təlim həyata keçirilmişdir ki, bu da 2023-cü ilin müvafiq göstəricisindən *(46 vahid)* **2,4 dəfə** çoxdur. Xüsusilə vurğulamaq istərdim ki, 2024-cü il ərzində ən çox təlim *(42 sayda)* Auditorlar Palatası tərəfindən həyata keçirilmişdir. Lakin, qeyri-maliyyə sektorunda **6,0 minə** yaxın öhdəlik daşıyan şəxsin fəaliyyət göstərdiyini nəzərə alsaq, il ərzində keçirilmiş təlim sayı qənaətbəxş deyildir və bu istiqamətdə görülən işlərin intensivliyinin artırılması tələb olunur.

Bundan başqa, 2024-cü il ərzində ümumilikdə **73** nəzarət tədbiri həyata keçirilmişdir ki, bu da 2023-cü ilin müvafiq göstəricisi *(72 vahid)* ilə eynidir. Qeyd edim ki, ən çox nəzarət tədbiri *(36 sayda)* İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən həyata keçirilmişdir.

Qeyd etmək istərdim ki, nəzarət orqanları tərəfindən 2023-cü il üçün keçirilmiş sahəvi risk qiymətləndirilməsi ilə sektorda ümumilikdə **1 082 yüksək riskli** öhdəlik

daşıyan şəxsin olduğu müəyyən edilməsinə baxmayaraq, bu şəxslərin cəmi **6,7 faizi** yoxlamalarla əhatə edilmişdir. Keçirilmiş nəzarət yoxlamaları zamanı cəmi **46** şəxsə **67,1 min manat** sanksiya tətbiq olunmuşdur.

Göründüyü kimi, nəzarət orqanları tərəfindən öhdəlik daşıyan şəxslərin yoxlamalarla əhatə olunması, sanksiyaların tətbiq olunması, təlimlərin keçirilməsi **qənaətbəxş deyildir** və növbəti **qiymətləndirmə** zamanı reytinqlərin əldə olunmasına mane olacağı ehtimal olunur.

2023-cü ildə keçirilmiş eyni mövzulu konfransda **auditor xidməti göstərən şəxslər** tərəfindən 14 il ərzində **şübhəli hallar** barədə **hər hansı məlumat təqdim edilmədiyini** qeyd etmişdim. Konfransdan sonra ötən dövr ərzində demək olar ki, həmin tendensiya davam etmiş, cəmi **2 ədəd** şübhəli əməliyyat barədə hesabat təqdim edilmişdir. Ümumilikdə qeyd etmək istərdim ki, bu konfransda, keçiriləcək növbəti görüşlərdə ƏL/TMM sahəsində həyata keçirilməli tədbirlər barədə geniş müzakirələrin aparılması movcud problemlərin daha dərin başa düşülməsinə səbəb olacaq, **auditor xidməti göstərən şəxslərin mübarizə sisteminə aktiv formada qoşulmasına** təkan verəcəkdir.

Bu tədbir yalnız regional deyil, həm də beynəlxalq miqyasda aktual olan, ictimaiyyəti narahat edən bir çağırışın müzakirəsinə həsr olunub və burada İsrail, Pakistan, Latviya və Azərbaycandan olan mütəxəssislərin təcrübə və baxışlarının paylaşılması, biliklərimizin dərinləşməsi, əməkdaşlığın gücləndirilməsi üçün imkan yaradır.

Azərbaycan Respublikasının Auditorlar Palatasının bu sahədəki fəaliyyəti də diqqətəlayiqdir. Auditorlar yalnız maliyyə şəffaflığını deyil, həm də risk siqnallarını öncədən müəyyənləşdirən ekspertlər kimi yetişdirilməlidir. Auditor nəzarətinin gücləndirilməsi, onların hesabatlarında ƏL/TM riski ilə bağlı qeyd və tövsiyələrin standartlaşdırılması istiqamətində əlavə addımlar atılmalıdır.

Dəyərli qonaqlar, bu gün burada paylaşacağımız biliklər, təcrübələr, tövsiyələr birgə fəaliyyətimiz üçün bünövrə rolunu oynayacaq və konfrans gələcək əməkdaşlıq platformalarının formalaşdırılmasına  kömək edəcəkdir.

Beynəlxalq elmi-praktik konfransın hər bir iştirakçısına, çıxış edən nümayəndələrə, təşkilatçılara və dəvətli qonaqlara dərin təşəkkürümü bildirmək istərdim. Biz burada mübarizə sistemində nəzarət orqanlarının rolu, vəzifələri və məsuliyyəti mövzusunda bir araya gələrək yerli və beynəlxalq yanaşmaları müzakirə etdik. Müzakirələr göstərdi ki, bu sahədə mübarizə yalnız texniki və hüquqi məsələ deyil – bu, eyni zamanda institusional iradə, davamlı maarifləndirmə və beynəlxalq həmrəylik tələb edən çoxşaxəli və dinamik bir prosesdir. Konfransda maliyyə sektorunun, bank əməliyyatlarının tənzimləməsi, auditorların funksiyaları, nəzarət orqanlarının həyata keçirdiyi tədbirlər barədə geniş müzakirələr aparıldı. Fərqli yanaşmalar, müxtəlif hüquqi modellər və milli təcrübələr bu sahədə olan biliklərin daha da zənginləşməsinə səbəb oldu.

Dəyərli qonaqlar, Konfrans çərçivəsində müxtəlif ölkələrin – Pakistan, İsrail və Latviyanın – təcrübələri xüsusi maraqla dinlənildi və müzakirə olundu. Bu təqdimatlar göstərdi ki, ölkələr fərqli hüquqi və iqtisadi mühitdə fəaliyyət göstərsələr də məqsəd ortaqdır. maliyyə cinayətlərinə qarşı effektiv, çevik və şəffaf bir nəzarət sistemi qurmaq.

Təqdimatlar koordinasiyalı fəaliyyətin, risk əsaslı yanaşmanın, məlumatlarının operativ paylaşılmasının, yüksək texnoloji sistemlərlə aparılan təhlil işlərinin istintaq, aşkarlama mexanizmlərini sürətləndirməsi, auditorlar tərəfindən maliyyə cinayətlərinin erkən mərhələdə müəyyən edilməsi, qeyri-adi əməliyyatları müəyyənləşdirilməsi kimi maraqlı mövzuları əhatə etdi. Bu nümunələr bizə göstərir ki, uğurlu ƏL/TMM üçün **vahid model yoxdur**, bu modelləri formalaşdıran **ümumi prinsiplər** var. şəffaflıq, məlumatların paylaşılması, risklərin düzgün qiymətləndirilməsi və müxtəlif nəzarət orqanlarının funksional sinxronizasiyası.

Əziz iştirakçılar, Konfrans boyunca apardığımız diskussiyalar və təqdim olunan məruzələr bir daha sübut etdi ki, ƏL/TMM sahəsində uğur yalnız **tək bir orqanın işi deyil** – bu, hüquq-mühafizə, bank sektoru, audit, vergi xidməti, beynəlxalq tərəfdaşlar və vətəndaş cəmiyyətinin birgə məsuliyyətidir.

Qlobal təhdidlər qarşısında lokal həllərin kifayət etmədiyi bir dövrdə belə beynəlxalq platformaların rolu danılmazdır və əminik ki, tədbir iştirakçılar arasında təcrübə

mübadiləsini gücləndirməklə yanaşı, həm də gələcək əməkdaşlıqlar üçün möhkəm zəmin yaradacaqdır.

Beynəlxalq elmi-praktik konfransın hər bir iştirakçısına, çıxış edən nümayəndələrə, təşkilatçılara və dəvətli qonaqlara dərin təşəkkürümü bildirmək istərdim. Biz burada mübarizə sistemində nəzarət orqanlarının rolu, vəzifələri və məsuliyyəti mövzusunda bir araya gələrək yerli və beynəlxalq yanaşmaları müzakirə etdik. Müzakirələr göstərdi ki, bu sahədə mübarizə yalnız texniki və hüquqi məsələ deyil – bu, eyni zamanda institusional iradə, davamlı maarifləndirmə və beynəlxalq həmrəylik tələb edən çoxşaxəli və dinamik bir prosesdir. Konfransda maliyyə sektorunun, bank əməliyyatlarının tənzimləməsi, auditorların funksiyaları, nəzarət orqanlarının həyata keçirdiyi tədbirlər barədə geniş müzakirələr aparıldı. Fərqli yanaşmalar, müxtəlif hüquqi modellər və milli təcrübələr bu sahədə olan biliklərin daha da zənginləşməsinə səbəb oldu.

Dəyərli qonaqlar, Konfrans çərçivəsində müxtəlif ölkələrin – Pakistan, İsrail və Latviyanın – təcrübələri xüsusi maraqla dinlənildi və müzakirə olundu. Bu təqdimatlar göstərdi ki, ölkələr fərqli hüquqi və iqtisadi mühitdə fəaliyyət göstərsələr də məqsəd ortaqdır. maliyyə cinayətlərinə qarşı effektiv, çevik və şəffaf bir nəzarət sistemi qurmaq.

Vergi orqanları və nəzarət institutlarının koordinasiyalı fəaliyyətinə əsaslanan, risk əsaslı yanaşma tətbiq edən, maliyyə məlumatlarının operativ şəkildə paylaşılması nəticəsində istintaq, aşkarlama mexanizmlərinin sürətləndirən **Pakistan təcrübəsi** göstərir ki, **institusional əməkdaşlıq olmadan** uğurlu mübarizə aparmaq mümkün deyildir.

**İsrailin** modelində qanunvericilik prinsipləri və bank sektoruna yönəlmiş dəqiq tənzimləmələr, məlumatların real vaxtda monitorinqi, **yüksək texnoloji sistemlər vasitəsilə təhlil** müasir nəzarətin əsasını təşkil edir.

**Latviya** təcrübəsində auditorların ƏL/TMM sahəsində rolunun artdığını, onların yalnız maliyyə uyğunluğunun yoxlanması ilə kifayətlənmədiyini, maliyyə cinayətlərini **erkən mərhələdə** müəyyən etdiyini, qeyri-adi əməliyyatları müəyyənləşdirdiyini görürük.

Bu nümunələr bizə göstərir ki, uğurlu ƏL/TMM üçün **vahid model yoxdur**, bu modelləri formalaşdıran **ümumi prinsiplər** var. şəffaflıq, məlumatların paylaşılması, risklərin düzgün qiymətləndirilməsi və müxtəlif nəzarət orqanlarının funksional sinxronizasiyası.

Əziz iştirakçılar, Konfrans boyunca apardığımız diskussiyalar və təqdim olunan məruzələr bir daha sübut etdi ki, ƏL/TMM sahəsində uğur yalnız **tək bir orqanın işi deyil** – bu, hüquq-mühafizə, bank sektoru, audit, vergi xidməti, beynəlxalq tərəfdaşlar və vətəndaş cəmiyyətinin birgə məsuliyyətidir.

Qlobal təhdidlər qarşısında lokal həllərin kifayət etmədiyi bir dövrdə belə beynəlxalq platformaların rolu danılmazdır və əminik ki, tədbir iştirakçılar arasında təcrübə mübadiləsini gücləndirməklə yanaşı, həm də gələcək əməkdaşlıqlar üçün möhkəm zəmin yaradacaqdır.

**Diqqətinizə görə təşəkkür edirəm və konfransın işinə uğurlar arzulayıram.**

**Azərbaycan Respublikasının iqtisadiyyat nazirinin müavini**
**Anar AXUNDOV**

## “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə nəzarət orqanlarının rolu, vəzifələri və məsuliyyəti”

Hörmətli Zaur müəllim,
Hörmətli Vahid müəllim,
Hörmətli cənab səfir,
Dəyərli beynəlxalq və yerli qonaqlar, xanımlar və cənablar!

Sizi salamlayır, bu mühüm beynəlxalq elmi-praktik konfransın iştirakçısı olmaqdan məmnunluğumu bildirirəm. Azərbaycanın iqtisadi siyasətində şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizə və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının qarşısının alınması prioritet istiqamətlərdəndir. Bu tədbir, məhz bu istiqamətdə səylərimizi birləşdirmək, beynəlxalq təcrübəni paylaşmaq və qarşılıqlı etimad mühitini gücləndirmək baxımından əhəmiyyətlidir.

Məlum olduğu kimi, maliyyə cinayətləri, xüsusilə də cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi, təkcə iqtisadi sabitliyə deyil, ictimai təhlükəsizliyə və milli təhlükəsizliyə də ciddi təhdidlər yaradır. Bu təhdidlərin qarşısının alınması yalnız effektiv milli nəzarət mexanizmləri ilə deyil, həm də beynəlxalq əməkdaşlığın gücləndirilməsi ilə mümkündür.

Bu baxımdan, Azərbaycan Respublikasının hökuməti mütərəqqi islahatlar həyata keçirməklə yanaşı, FATF və MONEYVAL kimi nüfuzlu beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir, milli qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində ardıcıl addımlar atır. Eyni zamanda, biz müasir rəqəmsal texnologiyaların və süni intellektin potensialından istifadə etməklə risk əsaslı nəzarət sistemlərinin gücləndirilməsinə xüsusi diqqət yetiririk.

İqtisadiyyat Nazirliyi olaraq, biz həm də kölgə iqtisadiyyatının miqyasının azaldılması və qeyri-rəsmi dövriyyələrin şəffaf iqtisadi mühitə inteqrasiyası istiqamətində ardıcıl tədbirlər həyata keçiririk.

Hörmətli iştirakçılar!
Bu gün burada İsrail, Latviya və Pakistanın görkəmli nümayəndələrinin iştirakı ilə müxtəlif təcrübələrin bölüşdürülməsi nəzərdə tutulur. Bu təşəbbüs, ölkələrimiz arasında bilik

mübadiləsinə yeni bir nəfəs verir və bizə kompleks təhdidlərə qarşı daha effektiv cavab mexanizmləri qurmaq imkanı yaradır.

Eyni zamanda, bu konfransda müzakirə olunacaq mövzular – istər risk əsaslı nəzarət, istər auditorların və vergi xidmətlərinin rolu, istərsə də maliyyə təhlilinə əsaslanan istintaq yanaşmaları – təkcə mütəxəssislər üçün deyil, həm də siyasət formalaşdırıcılar üçün ciddi düşüncə mövzusu olmalıdır.

Beynəlxalq səviyyədə qəbul olunmuş 5-ci qiymətləndirmə dövrünün yeni tələbləri fonunda, bu cür təlim və müzakirə platformaları iştirakçı ölkələrə həm aktual hazırlıq, həm də təcrübə mübadiləsi baxımından dəyərli töhfə verir. Azərbaycanın iqtisadi institutları bu tələblərə uyğunlaşmaqla yanaşı, regional təşəbbüslərdə də fəal iştirak edir və bu istiqamətdə nümunəvi təcrübə formalaşdırmağa çalışır.

Sonda qeyd etmək istərdim ki, belə konfranslar yalnız informasiya paylaşımı deyil, həm də uzunmüddətli əməkdaşlıq üçün zəmin yaradır. Ümid edirəm ki, bu tədbirdə aparılan müzakirələr gələcəkdə daha effektiv və koordinasiyalı fəaliyyətimizin əsasını təşkil edəcək.

Diqqətinizə görə təşəkkür edir, konfransın işinə uğurlar arzu edirəm.

### *İsrailin Azərbaycanda fövqəladə və səlahiyyətli səfiri*
### *Corc DİK*

Good morning. I want to thank the Chamber of Auditors of Azerbaijan and the organizers of this important conference, which is dealing with one of the topics that concerns all of us — stopping criminal activity for obtaining property, and even more so, the threat of terrorism and finding ways to stop the financing of terrorism.

Unfortunately, the danger of terror struck again yesterday in Washington, D.C., where two of our colleagues, Israeli diplomats, were killed in the streets of Washington. From here, I once again send our condolences to the families, to the embassy in Washington, and to our diplomatic corps. I want to thank Azerbaijan for being a partner in combating terrorism both here and elsewhere, and for its very kind message of condolences after the murder of the two Israelis yesterday in Washington.

Friends, as technology advances and becomes more sophisticated, so does terrorism. While we speak about the prospects and promises of AI and modern technologies, these same technologies can also serve as a threat when they fall into the hands of malign actors, such as terrorists across the world. Therefore, we are dealing with a global threat — a global phenomenon — which requires a global response. Conferences like this are exactly the arenas that bring us all together — whether bilaterally, trilaterally, or through international organizations like the FATF and others — to work together to curb the financing of terrorism and to stop related criminal activity.

I would like to add that Israel and Azerbaijan — and here with us is my dear friend, the Deputy Minister — have been cooperating very closely, especially in last years. Our bilateral relations are becoming deeper and wider, whether in the field of security and counter-terrorism, or in the economic sphere. Just today, we saw new data showing that tourism from Israel to Azerbaijan has more than doubled between last year and this year. We are seeing these relations expand, and we hope that through the Joint Commission, co-chaired by His Excellency Minister Jabarov from Azerbaijan, we will be able to broaden the scope of our relationship and increase our bilateral trade and collaboration in various fields — whether in technology, cyber, agriculture, water, medicine, or others — and bring it to new levels. Hopefully, the Joint Commission will convene soon.

I want to thank once again the organizers of this conference for bringing everyone together. And on a personal note. my father was an accountant. He had the first office of accountants in our city, in Jaffa. This topic is close to my heart. I think diplomats and accountants are very similar, but also very different — because while we both look at the world and try to make it better, we speak in broad strokes, whereas auditors and accountants focus much more on the details. And as you know, the devil lies in the details. So thank you for taking care of the devil. We have a lot of devils to fight together. Thank you very much.

***Pakistanın İmtiyazlı Mühasiblər İnstitutunun (ICAP) prezidenti***

***Saif ULLAH***

Assalaam-o-Alaikum

It is a true honor to be here in the beautiful land of Azerbaijan. I extend my heartfelt thanks to the Chamber of Auditors of the Republic of Azerbaijan for your gracious hospitality and for organizing this significant conference. Your invitation is a reflection of the growing warmth and strength in the bond between our two nations a ond built not just on diplomacy, but on genuine brotherhood.

This partnership is not symbolic-it is rooted in mutual trust, professional respect, and a joint commitment to strengthening the accountancy profession across borders. It also eflects the broader, brotherly relationship between Pakistan and Azerbaijan-one built on solidarity, shared values, and principled support during challenging times.

In this spirit of cooperation, allow me to share an experience from Pakistan's recent history that highlights not only the power of reform but also the vital role of accountancy institutions in driving national transformation.

In 2018, Pakistan was placed on the FATF Grey List - a difficult chapter in our egulatory journey.

But with resolve and coordinated effort, we undertook a comprehensive reform of our AML/CFT regime. ICAP stepped forward as a key player in this transformation, assuming the responsibility to supervise Chartered Accountant firms under the Designated Non-Financial Businesses and Professions (DNFBP) Category.

Our approach was structured and strategic:

- We developed a Risk-Based Supervision Framework.

***İsrailin Sertifikatlı İctimai Mühasiblər İnstitutunun (ICPAI) prezidenti, CPA Çen ŞRAYBER***




## Accounting - Part of the Business World



- Through this profession, we gain a deeper understanding of companies and business dynamics
- Committed to promoting the accounting profession
- accountants have the best understanding of finance, cash flow management, and business strategy.

## Partnership between myself and my esteemed colleague, Mr. Novruzov Vahid, is close and meaningfu



- We intend to continue and deepen this cooperation across all areas in the future .

- Delegation from Israel
  - CPA Eli Zooker, Deputy CEO & CFO of the Governmental Energy Infrastructure Company
  - CPA Roi Katz; and CPA Simon Yaniv
  - Anti-money laundering and how we address this global challenge .

## collaboration between the Israeli high-tech industry and the great nation of Azerbaijan.



- **Israel is a global technology leader**
- **known for its innovation and groundbreaking solutions.**
- **We want to bring these innovations to support Azerbaijan’s growth across various sectors.**

## One key area where Israeli technology can greatly benefit Azerbaijan is wireless communications.



- Israeli companies are among the top global vendors, offering advanced wireless connectivity solutions
- for smart city projects, improving safety, efficiency, and connectivity.
- Rural broadband initiatives, delivering high-speed internet to remote areas,
- High Speed Internet in trains.
- These are just a few examples where Azerbaijan can benefit from Israeli High Tech

## Azerbaijan plays a strategic role as a corridor for trade between and Europe




- Azerbaijan plays a strategic role as a corridor for trade between Asia and Europe
- Azerbaijan is also part of China's Belt Rail and Road Initiative, enhancing its connectivity into Europe
- All this opens up opportunities for investments in technology and infrastructure
- Israel as a great Azerbaijan partner can bring leading edge high tech solutions to support the corridor

## This partnership is about creating value-exchanging ideas, and building a future that benefits us all.

**By combining Azerbaijan's potential with Israel's expertise, we can make the way for shared prosperity and success.**





**wish all participants a productive and successful professional day, and I would be delighted to stay in touch and to host you in Israel in the near future.**



***Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəis müavini***
***Samirə MUSAYEVA***

**Hörmətli tədbir iştirakçıları,**

Hər şeydən öncə, hamınızı salamlayır və dəvət üçün beynəlxalq elmi-praktik konfransın təşkilatçılarına öz təşəkkürlərimi çatdırmaq istərdim.

Bugünkü tədbir müasir dünyanın qarşılaşdığı çox aktual və mühüm bir çağırışa həsr olunub. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə mübarizədə hüquq-mühafizə və nəzarət orqanlarının rolunu bu qədər geniş bir auditoriyada müzakirə etmək və nəzərdən keçirmək yaxşı bir fürsətdir.

Bu sahədə üzləşdiyimiz məsələlər yalnız yerli hüquq-mühafizə orqanları və dövlət qurumları üçün deyil, həm də beynəlxalq əməkdaşlıq və hüquqi müstəvidə mübarizə aparan təşkilatlar üçün mühüm əhəmiyyət daşıyır. Müasir dövrün maliyyə cinayətləri mürəkkəb və qlobal xarakter alıb. Belə cinayətlərə qarşı mübarizə aparmaq üçün ölkələr arasındakı əməkdaşlıq və informasiya mübadiləsi son dərəcə vacibdir.

**Vergi Xidməti və əlaqəli qurumların rolu**

Dövlət Vergi Xidməti, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizədə iştirak edən əsas qurumlardan biridir. Vergi orqanları mülkiyyət və maliyyə tranzaksiyalarını izləməklə, bu cür fəaliyyətlərin aşkar edilməsində əhəmiyyətli rol oynayır. Bizim bu istiqamətdə əsas fəaliyyətimiz hər hansı bir qeyri-qanuni fəaliyyətin, o cümlədən terrorçuluğun maliyyələşdirilməsi məqsədilə həyata keçirilən maliyyə əməliyyatlarının qarşısını almaqdır. Bunun üçün vergi orqanlarının fəaliyyətində şəffaflıq və müvafiq nəzarət tədbirlərinin həyata keçirilməsi çox önəmlidir. Vergi xidmətinin qanunvericiliklə müəyyən edilmiş səlahiyyətləri əsasında yalnız vergi hüquqpozmaları ilə bağlı yoxlamalar aparmaqla kifayətlənmirik, eyni zamanda, maliyyə sisteminin cinayətkar yollarla istismarının qarşısını almaq üçün də əməkdaşlıq edir və müvafiq məlumatları toplayaraq qanunvericilik çərçivəsində digər dövlət qurumları ilə bölüşürük.

**Qlobal əməkdaşlıq və informasiya mübadiləsi**

Bu sahədə daha effektiv nəticələr əldə etmək üçün beynəlxalq əməkdaşlıq çox vacibdir. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi məsələləri təkcə bir ölkənin yox, bütöv bir regionun və dünyanın problemi olaraq qalır. Bu səbəbdən, vergi orqanları yalnız milli səviyyədə fəaliyyət göstərməkdə kifayətlənmir, həm də beynəlxalq əməkdaşlıqda bu məsələləri sıx müzakirə edirlər.

Dövlət Vergi Xidməti bu məsələləri prioritet saxlamaq üçün müvafiq struktur – Maliyyə Monitorinqi Şöbəsi yaradıb. Bu struktur cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində fəaliyyət göstərən, komplayens sahəsində Dövlət Vergi Xidmətində siyasətini müəyyən edən və hüquqları həyata keçirən müstəqil struktur bölməsidir.

Bu sahədə Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti ilə sıx əməkdaşlığı xüsusilə qeyd etmək istərdim. Son 2 ildir ki, öhdəlik daşıyan şəxslər üçün birgə təlimlər, məlumatlandırma sessiyaları təşkil edirik. Dövlət Vergi Xidməti bu sahədə kadr potensalını artırmaq, eyni zamanda bu sahədə bilikləri əldə etmək və paylaşmaqla öhdəlik daşıyan şəxslərin maarifləndirilməsinə öz töhfəsini verməkdədir. 2024-cü il ərzində 2-si öhdəlik daşıyan şəxslər, 5-i isə Dövlət Vergi Xidmətinin əməkdaşları üçün olmaqla, ümumilikdə 7 təlim təşkil edilib. Təkcə aprel ayında keçirilmiş sonuncu təlimdə 250-dək öhdəlik daşıyan şəxs iştirak edib. Bununla yanaşı, öhdəlik daşıyan şəxslər üçün təlimat və metodologiyalar hazırlanaraq Dövlət Vergi Xidmətinin rəsmi internet səhifəsində yerləşdirilib. Görülmüş işlər nəticəsində öhdəlik daşıyan şəxslərin 1260-nın Maliyyə Monitorinqi Xidmətinin Şübhəli Əməliyyatların Monitorinqi Sistemində qeydiyyatdan keçmələri təmin edilib.

Dövlət Vergi Xidməti öhdəlik daşıyan şəxslər üzərində həm də yoxlama funksiyası da daşıyır. Nəzarət funksiyamız çərçivəsində 2023-2024-cü illər ərzində onlardan 48-i üzərində vergi yoxlaması təyin edilib.

Dövlət Vergi Xidməti cinayət təqibi orqanı olaraq, eyni zamanda, müvafiq sahə ilə bağlı Vergi Cinayətlərinin İbtidai Araşdırılması Baş İdarəsinin tərkibində maliyyə araşdırmaları ilə məşğul olan ayrıca struktura malikdir. Bu strukturun əsas fəaliyyət istiqaməti mürəkkəb sxemlərlə törədilmiş, Cinayət Məcəlləsinin 193, 193-1 və 213-cü maddəsində nəzərdə tutulan

cinayət əməllərinin ibtidai istintaqını həyata keçirməkdir. Şöbənin yaradılmasında məqsəd paralel maliyyə araşdırmalarının aparılması və inkişaf etdirilməsidir.

**Vergi xidmətinin qarşısında duran vəzifələr**

Şübhəsiz ki, vergi xidmətinin qarşısında duran əsas vəzifələrdən biri də maliyyə cinayətlərinin qarşısını almaq üçün daha səmərəli və müasir alətlərin tətbiqidir. Yeni texnologiyalar və innovativ maliyyə monitorinq sistemləri, bu sahədə daha effektiv fəaliyyət göstərməyimizə imkan yaradır.

Öhdəlik daşıyan şəxslərin fəaliyyətinin nəzarətdə saxlanması, bu sahədə risk əsaslı yanaşmanın tətbiqi, sanksiya tətbiq edilməli fiziki şəxslərin və qurumların birbaşa və ya dolayı yolla aktivlərdən faydalanmasının qarşısının alınması, Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti ilə müvafiq sahədə məlumat mübadiləsinin birgə həyata keçirilməsi bu sahədə fəaliyyətin əsasını təşkil edir.

Mən xüsusilə “Shell” şirkətləri ilə mübarizə məsələlərini vurğulamaq istərdim. Ölkəmiz bu sahədə müxtəlif çağırışlarla qarşılaşır. Dövlət Vergi Xidməti ölkəmizdə vergi cinayətləri ilə mübarizənin effektivliyinin artırılması, vergi hüquqpozmalarının yaranma səbəblərinin aradan qaldırılması yolunda yeni innovativ tədbirlər həyata keçirir. "Shell" şirkətlərin yaranması ilə bağlı səbəblərin təhlil olunaraq risklərin müəyyən edilməsi, bununla bağlı hüquqi şəxslərin qeydiyyat prosedurlarının təkmilləşdirilməsi, vergidən yayınma cinayətlərini törədən vergi ödəyicilərinin faktiki rəhbərlərinin (benefisiarların) aşkarlanması, vergi cinayətləri ilə mübarizə sahəsində risk və təhdidlərin müəyyənləşdirilməsi istiqamətində çalışırıq. Dövlət Vergi Xidməti bu sahədə beynəlxalq əməkdaşlıq mexanizmlərinin təmin edilməsi və beynəlxalq təcrübə üzrə məlumat mübadiləsinin aparılmasını da həyata keçirir. Qeyd etməliyəm ki, tərəfimizdən OECD-nin "Vergi cinayətləri ilə mübarizə - 10 əsas beynəlxalq prinsip" sənədinin milli təcrübədə tətbiqi imkanları araşdırılıb və hazırda vergi cinayətləri ilə mübarizənin effektivliyinin artırılması məqsədilə beynəlxalq təcrübədə istifadə olunan "çəkindirmə" metodlarından istifadə edilir, bu çərçivədə vergi cinayəti törətmiş şəxslərin işləri

barədə məlumatlar açıqlanır. Bu tədbirlər biznes mühitində leqal fəaliyyətin, məsuliyyətli yanaşmanın və öhdəliklərin icrasına xidmət edir.

Avropa Şurası MONEYVAL Komitəsinə təqdim edilməsi nəzərdə tutulan tərəqqi hesabatına hazırlıq vəziyyətinə də toxunmaq istərdim. Bildirmək istəyirəm ki, Dövlət Vergi Xidmətinin MONEYVAL hesabatı üzrə məsul qurum qismində çıxış etdiyi bütün tövsiyələrdə reytinqin qalxması gözlənilir. Əlavə olaraq, "Cinayət yolu ilə əldə olunmuş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı"nda 2024-cü il üzrə ümumilikdə 46 tədbirin qiymətləndirilmə prosesi aparılıb, tədbirlərin 85%-i tam, 4%-i qismən icra edilib, 11% və ya 5 tədbirin isə icrası davam edir kimi qiymətləndirilib.

**Nəticə**

Hörmətli tədbir iştirakçıları,

Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə, hər birimizin rolu son dərəcə vacibdir. Vergi xidmətinin, müvafiq nəzarət orqanlarının birgə səyləri və beynəlxalq əməkdaşlıq bu mübarizənin uğurlu nəticələr əldə etməsi üçün kritik əhəmiyyət daşıyır. Bu baxımdan maliyyə cinayətləri ilə mübarizə sahəsində fəaliyyətimizi daim güclü saxlamaq və beynəlxalq əməkdaşlıqda daha fəal olmaqda davam edəcəyik.

Rieltorlar, hüquq, mühasibat və vergi məsləhəti xidmətləri göstərən şəxslərlə birgə səylərin gücləndirilməsi cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə effektivliyin artırılması baxımından vacibdir. Bu səbəbdən, bütün aidiyyəti şəxsləri və qurumları DVX ilə sıx əməkdaşlıq etməyə və birgə fəaliyyətlərə qoşulmağa dəvət edirik.

Bugünkü müzakirələrin həm praktiki, həm də nəzəri yanaşmalarımızın gücləndirilməsinə və bu mübarizənin daha da effektiv olmasına təkan verəcəyinə inanırıq.

Diqqətinizə görə təşəkkür edirəm.

*Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan İqtisadçılar İttifaqının sədri, akademik*

***Ziyad SƏMƏDZADƏ***

# REAL SEKTORDA SAĞLAM RƏQABƏT MÜHİTİNİN YARADILMASI, KÖLGƏ İQTİSADİYYATININ AZALDILMASI, ÇİRKLİ PULLARIN YUYULMASINA QARŞI MÜBARİZƏNİN STRATEJİ AMİLİ KİMİ

**Ziyad SƏMƏDZADƏ,**
**akademik, Milli Məclisin üzvü,**
**Azərbaycan İqtisadçılar İttifaqının sədri**

*zsamedzade1940@gmail.com*
*Azərbaycan İqtisadçılar İttifaqı*

**Xülasə**

*Məruzədə Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkədə yeni iqtisadi sistemin qurulmasının əsas iatiqamətləri, uçot və maliyyə nəzarəti, onun formalaşmasını şərtləndirənamillər təhlil edilir. Büdcə, vergi, bank sektorunda maliyyə vəsaitlərindən istifadənin, iqtisadi təhlükəsizlik, məşğulluq, milli iqtisadiyyatın inkişafı baxımından qiymətləndirilməsi beynəlxalq təcrübədən istifadə məsələləri açıqlanır.*

***Açar sözlər:** sağlam rəqabət mühiti, barter əməliyyatları, beynəlxalq terrorizm, daxili bazarın qorunması, ünsiyyət həyatımızan vacib tələbatıdır.*

Azərbaycan dövləti cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı sistemli tədbirlər həyata keçirir. Bu iş heç də asan olmamışdır. Müstəqilliyin ilk illərində ölkədə yaranmış ictimai-siyasi şərait, yeni iqtisadi sistemin yaradılması prosesində meydana çıxan çətinliklər, maliyyə-bank strukturunda özünü göstərən sistemsizlik beynəlxalq ticarətdə iştirak sahəsində təcrübənin olmaması yeni tədbirlərə uyğun uçot, audit sisteminin formalaşmaması və s. amillər bir çox istiqamətlərdə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizədə kifayət qədər nəticənin olmamasını şərtləndirirdi. Uzun illər boyu

yaradılmış iqtisadi potensial sürətlə dağılır, bu prosesin qarşısını almaq üçün görülən tədbirlər səmərə vermirdi. Ulu öndər Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə qayıtması qeyd edilən taleh yüklü məsələyə diqqət artırıldı, onun qarşısının alınması strateji vəzifə kimi qiymətləndirildi.

Azərbaycan müstəqillik əldə etdikdən sonra xarici iqtisadi əlaqələrini formalaşdırmaqda, strateji inkişaf xəttini seçməkdə tam sərbəstlik qazandı. Amma xarici iqtisadi əlaqələr sistemini qurmaq üçün böyük işlər görülməli, xüsusilə də təkmil qanunvericilik bazası yaradılmalı idi. SSRİ dağıldıqdan sonra ilk günlərdən müstəqil dövlətlər təkmil olmayan iqtisadi-siyasi texnologiyalardan istifadə edirdilər. Qeyd etmək kifayətdir ki, 1993-cü ildə idxalın 15%-i, ixracın isə 18%-i barter sövdələşmələrinin payına düşürdü. Müxbir hesablaşmalarının aparılması da xeyli çətinləşmişdi. Bu proseslərdə barter, sövdələşmələr geniş vüsət almışdı.

Mən burada Heydər Əliyevin müstəqilliyin ilk illərində hökumətin iclasında dediyi bir fikri qeyd etmək istərdim: Ulu Öndər demişdi:

**"Ən nəhayət, barter məsələsi. Mən dedim, - Nazirlər Kabineti və Baş nazir mənə bu barədə ayrıca izahat verməlidir. Ancaq bir daha hamınıza deyirəm: barter mənim fərmanımla qadağan olunub və bu gün bir də qadağan edirəm. Deyirəm ki, bundan sonra kim bu işlə məşğul olacaqsa, o, çox ciddi cəzalanacaqdır.**

**Sonra deyirlər ki, qarşılıqlı hesablaşmadan çox sui-istifadə edirlər. Mən Nazirlər Kabinetinə tapşırıram ki, qarşılıqlı hesablaşma məsələsi ilə çox ciddi məşğul olsunlar. Çünki burada hər iki tərəf dövlət vəsaitini mənimsəyir. Hər iki tərəf. Ona görə də hər iki tərəf buna maraqlıdır. Amma bu, bizə, bizim dövlətimizə ziddir. Əgər onlar dövlətimizə, hökumətimizə zərər vurmaq istəyirlərsə, biz bunun qarşısını almalıyıq. Bunu Nazirlər Kabineti etməlidir və bununla ciddi məşğul olmalıdır.**

**Təəssüflər olsun ki, nazirliklərdə, şirkətlərdə müxtəlif belə fırıldaqlar bu gün, bu sözü əvvəl də demişəm, mövcuddur. Mən tələb edirəm ki, bunlara son qoyulsun. Tələb edirəm və bilin ki, çox ciddi tədbirlər görəcəyik"**

1994-1995-ci illərdə hökumət tərəfindən xarici iqtisadi fəaliyyət işinin genişləndirilməsilə bağlı əlavə tədbirlər görüldü ki, bu da ağır vəziyyətdə olan iqtisadiyyatda geniş vüsət almış qanun pozuntularının, dövlət vəsaitlərinin qanunsuz istifadəsi hallarının azalması ilə müşaiət olunurdu. Dövlətçiliyi daha da möhkəmləndirmək, siyasi sabitliyi təmin etmək, investisiya mühitini yaxşılaşdırmaq üçün şərait yaradılırdı ki, bütün bunlar da çirkli pulların miqyasının, kölgə iqtisadiyyatının azalmasına öz təsirini göstərirdi.

Amma təəssüf ki, keçid dövründə  də "başabəla" islahatçılar özlərində cəsarət tapıb etiraf etmədilər ki, bəzi maşınqayırma, yüngül, yeyinti sənaye müəssisələri işləmirsə, daxili bazarın qorunması imkanlarından səmərəli istifadə edilmirsə, vergilərin yığımı müəyyən edilmiş proqnozlardan xeyli geri qalırsa, məşğulluq problemi kəskinləşirsə, bunda onların da günahı böyükdür.

Ulu Öndər narahatlıqla bildirirdi ki,  "Respublikamızın böyük iqtisadi, sənaye, aqrar potensialı var. Elə aqrar sektordakı heyvandarlıq komplekslərini, cürbəcür kənd təsərrüfatı müəssisələrini götürək. Onların bəziləri indi lazım deyil. Amma bu o demək deyildir ki, onları söküb, dağıdıb, kəsib harasa atmaq lazımdır. Bu yaxınlarda mənə məlumat gəlmişdir ki, Füzuli, İsmayıllı və bir sıra rayonlarda şərab zavodlarının çənlərini, avadanlığını kəsirlər, aparıb xaricdə satırlar. Axı bu iynə deyil, şərab zavodlarının çənlərini kəsib doğrayırlarsa, bu insanların gözü qabağında olur. Verilən məlumatlardan belə görünür ki, orada həm dövlət orqanları, həm də inzibati orqanlar iştirak edirlər. Demək, yığışırlar, ümumi, şəxsi mənafelərini bir yerə qoyurlar, dövlətin əmlakını dağıdırlar. Beləliklə, iqtisadiyyatımıza nə qədər zərbələr vururlar.

**Başqa bir çıxışında O deyir ki, "Metal qırıntısı həmişə yığılıb, yığılmaqdadır. Ancaq bu metal qırıntısı yığılıb dövlətə verilməlidir. Əgər gedib küçəyə atılmış metalı yığıb gətirirsə, bu, başqa məsələ. Ancaq gedib dövlətin zavodunu, fabrikini, digər istehsal, sənaye, nəqliyyat müəssisəsini söküb-dağıdırsa, bu, biabırçılıqdır, cinayətdir. Bunun qarşısı alınmalıdır".**

Respublikamızın inkişaf imkanları, perspektivləri çox böyükdür. Onlardan istifadə edilməsi digər amillərlə yanaşı iqtisadi işin yaxşılaşdırılmasını tələb edirdi.

Ulu öndər Heydər Əliyev respublika iqtisadiyyatının inkişafı ilə bağlı çıxışlarında Azərbaycanın gələcəyinə inandığını, bunun üçün real imkanların, müəyyən etdiyi strateji xəttin dönməz olduğunu, bu strateji xəttin xalqımızın, milli dövlət mənafelərinə, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsinə yönəldiyini xüsusi vurğulayırdı.

Prezident Heydər Əliyev 7 yanvar 1999-cu il tarixində dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında 69 saylı fərman imzaladı. Nəzərdə tutulurdu ki, dövlət nəzarəti sistemi təkmilləşdirilməli, sahibkarlığın inkişafı, yerli və xarici iş adamlarının fəaliyyətinə əsasız müdaxilələrin qarşısı alınmalıdır. Korrupsiya, rüşvətxorluq və digər vəzifədən sui-istifadə halları ilə mübarizənin gücləndirilməsi məqsədi ilə bütün mərkəzi və yerli icra hakimiyyəti, o cümlədən hüquq mühafizə orqanlarına tapşırıldı ki, iş adamlarının iqtisadi fəaliyyətinə əsassız müdaxilə hallarına son qoyulmasını və sahibkarlıq fəaliyyətinin genişləndirilməsi üçün əlverişli mühitin yaradılmasını təmin etsinlər.

Çirkli pulların yuyulmasına qarşı mübarizə tədbirləri kifayət qədər genişdir. Müvafiq iqtisadi strukturlar, hüquq mühafizə orqanları möhkəm qanunvericilik bazasına əsaslalanaraq əməli işlər görürdülər ki, bunlar da öz müsbət nəticəsini verirdi. Mən diqqəti bir neçə məsələyə cəlb etmək istərdim.

Heydər Əliyev deyirdi ki, **“ayrı-ayrı dövlət orqanları tərəfindən iqtisadi sahəyə əsassız müdaxilələr narahatçılıq doğurur. Bu dövlət orqanlarının bəzi işçiləri öz qanunsuz hərəkətləri ilə dövlətin nüfuzuna xələl gətirir və bir çox hallarda öz hüquqlarından şəxsi mənafeləri üçün istifadə edirlər. Hüquq mühafizə orqanları yerli və xarici iş adamlarının istehsal, xidmət və maliyyə-kredit fəaliyyətində apardıqları yoxlamaları bəzi hallarda uzun-uzadı təhqiqat və istintaq hərəkətləri pərdəsi altında həyata keçirirlər və sahibkarlığın müxtəlif sahələrinə lüzumsuz müdaxilə edirlər”.**

Əgər müstəqilliyimizin ilk illərində üzləşdiyimiz böhranlar, xaos, cinayətkarlığın, kölgə iqtisadiyyatının, ölkəyə rəhbərlik edənlərin buraxdığı kobud səhvlərin nəticəsi idisə, 1993-cü ilin ortalarından başlanan dövr müstəqilliyimizin qorunub saxlanılması, Azərbaycanın iqtisadi tənəzzülə deyil, inkişaf yoluna qədəm qoyması, beynəlxalq mövqelərinin möhkəmləndirilməsi, beynəlxalq terrorizmə, cinayətkarlığa qarşı daha sistemli mübarizənin aparıldığı dövrdür.

Əbədiyaşar şəxsiyyət, ulu öndər Heydər Əliyev Azərbaycanı parçalanmaqdan xilas etdi, müstəqilliyimizi qorudu və böyük siyasi dühası, xalqımız qarşısındakı xidmətləri ilə müasir dövlətimizin banisinə, xalqımızın ümummilli liderinə çevrildi. Heydər Əliyevin böyüklüyü həm də ondadır ki, o, müasir dövlətçiliyimizin və respublikamızın inkişafının möhkəm təməllərini yaratmaqla bərabər, korrupsiya, çirkli pulların yuyulmasına qarşı bir sıra mübarizə tədbirlərinin görülməsini vacib hesab edirdi. Bütün bu tədbirlər öz müsbət nəticəsini verirdi. İlk növbədə, qanunvericilik bazası formalaşdırıldı, "Vergi Məcəlləsi" qəbul edildi. İnvestisiya mühitinin yaxşılaşmasına xidmət edən tədbirlər həyata keçirildi. Son 25 ildə ölkə iqtisadiyyatına 350 milyard dollardan çox investisiya qoyulmuşdur.

Bir çox iş adamları kiçik və orta biznesin müdafiəsi, iqtisadi alətlərin, daxili bazarın müdafiəsi metodlarının təkmilləşdirilməsinə dair maraqlı təkliflərlə respublika Prezidentinə müraciət edirdilər. Bütün bu müraciətlər ümumiləşdirilir, konkret təkliflərin qiymətləndirilməsi aparılır və müvafiq qərarlar qəbul edilirdi. Məsələn, Prezident Heydər Əliyev sahibkarlarla keçirilən görüşlərin birində qeyd edirdi: "Yerli istehsal bizim istədiyimiz səviyyəyə çatmayıb. Olan istehsalı biz gərək qoruyaq. Əlbəttə, bu məqsədlə Azərbaycanda istehsal olunan mallar gərək sərbəst şəkildə ölkəmizdə də istehlak olunsun. Bu məqsədlə buna oxşar malların idxalına da, əlbəttə ki, rüsumlar qoyulmalıdır. Bu, başqa ölkələrdə də var, bizdə də olmalıdır. Amma bu, məsələnin bir tərəfidir.

Tutaq ki, biz bunu etdik. Mən əminəm ki, etməliyik və edəcəyik. Amma heç kəs üçün sirr deyildir ki, bu gün Azərbaycanda gömrükdə qaçaqmalçılıqla mübarizə istənilən səviyyədə deyildir. Rəsmi qaydada daxil olan mallara rüsum tətbiq edilsə də, respublikamıza qaçaqmalçılıq yolu ilə gətirilmiş mallar yenə də yerli istehsala böyük ziyan

vuracaqdır. Bu məsələ ilə əlaqədar ciddi tədbirlər görülməlidir. Qaçaqmalçılığa son qoyulmalıdır. Bunun kökü kəsilməlidir. Bu, Azərbaycanın iqtisadi inkişafına böyük zərbədir, biz bununla barışa bilmərik".

Aparılan təhlillər, iş adamlarının hökumətə müraciətləri, keçirilən müşavirələr onu da göstərirdi ki, sahibkarlığın inkişaf etdirilməsi imkanlarından səmərəli istifadə etməyə bir sıra hallarda süni maneələr törədilir. Bu kimi hallar dövlət başçısını ciddi narahat edirdi.

**Bu gün Azərbaycan müstəqil siyasət yürüdən beynəlxalq birliyin fəal üzvü, aktual qlobal müzakirələrin fəal iştirakçısı, Avropanın enerji təhlükəsizliyində aparıcı dövlətlərdən biridir. Vətən müharibəsindəki qələbə isə respublikamızın beynəlxalq nüfuzunu daha da artıran tarixi amil oldu.**

Əlbəttə ki, inkişafın təməlində dayanan əsas şərtlərdən biri cəmiyyətimizdəki konsensusdur. Bu konsensusun təmin olunmasında isə əsas rolu siyasi-iqtisadi amillərlə yanaşı, Prezident İlham Əliyevin vətəndaşlarla görüşləri və vətəndaş müraciətlərinə çevik reaksiyası oynayır. Müxtəlif tədbirlər çərçivəsində, bayramlarda, rayonlara səfərlər zamanı əhali ilə birbaşa təmasda olan Prezident cəmiyyəti düşündürən, ədalətsizliyə və haqsızlığa qarşı xalqla həmrəylik nümayiş etdirərək, qaldırılan məsələlərin həlli ilə bağlı operativ tədbirlər görür. Məsələyə bu prizmadan yanaşsaq görərik ki, dövlətimizin başçısının fəaliyyətinin ən mühüm tərəflərindən biri vətəndaşlarla təmaslara, ünsiyyətlərə, söhbətlərə vaxt ayırması, belə görüşləri fəaliyyətinin mühüm istiqamətlərindən birinə çevirməsidir.

Ümumiyyətlə, ünsiyyət həyatımızın vacib tələbatıdır. Məkanından və zamanından asılı olmayaraq, doğulduğumuz gündən etibarən daim ünsiyyətdəyik. Bu prosesin inkişafında cəmiyyət və ətraf mühitin oynadığı rol olduqca böyükdür. Ünsiyyətsiz cəmiyyət mövcud olmadığı kimi, cəmiyyətsiz də ünsiyyətin mövcudluğunu təsəvvür etmək qeyri-mümkündür.

Prezident İlham Əliyev bölgələrə ardıcıl səfərlər etdikdən, vətəndaşlarla ünsiyyətdən sonra həmin rayonların sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi, korrupsiyaya, ədalətsizliyə qarşı mübarizənin daha gücləndirilməsi, şəffaflığın artırılması məqsədilə yeni

tədbirlər planını təsdiqləyir, Prezidentin ehtiyat fondundan onların reallaşması üçün əlavə vəsaitlər ayrılır, müvafiq inzibati strukturlara tapşırıqlar verilir və onların icrası nəzarətə götürülür.

Vətəndaşların dövlət strukturlarına olan müraciətlərinə çevik və ədalətli münasibətin ortaya qoyulması da olduqca vacibdir. Xüsusən, söhbət sosial dövlətdən və ədalətli cəmiyyətdən gedirsə, burada vətəndaş müraciətlərinə diqqətlə yanaşılmalıdır. Çünki məhz bu kimi məsələlərin kökündə insanların dövlət orqanlarına inamının və etimadının formalaşması dayanır. Ölkə prezidentinin tapşırığı ilə 2013-cü ilin aprel ayından başlayaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən respublikanın şəhər və rayonlarında vətəndaşların qəbullarının həyata keçirilməsi işi də insanları narahat edən məsələlərin aradan qaldırılmasına mühüm töhfə olmaqla bərabər, vətəndaşlarla ünsiyyətin bir formasıdır.

Ölkədə iqtisadi islahatların sistemli aparılması onu tələb edir ki. iqtisadi qanunvericilik bütövlükdə azad bazar münasibətlərinin bütün istiqamətlərini əhatə etsin, qanunvericilikdə boşluqları minimuma endirməyə, ziddiyyətlərin aradan qaldırılmasına nail olunsun, beynəlxalq təcrübədə özünü doğrultmuş iqtisadi mexanizmlərdən istifadəni nəzərdə tutsun. Bu məqsədlərə nail olmaq asan məsələ deyil. Ölkədə kifayət qədər təcrübə yox idi, keçid dövrünün ciddi ziddiyyətləri hələ də özünü göstərirdi... Amma dövlət başçısının qətiyyəti, onun islahatların nəticələrinə inamı nəticəsində ölkədə şəffaf iqtisadiyyatın qurulması istiqamətində mühüm işlər görülür.

Kölgə iqtisadiyyatının azaldılması, şəffaflığın artırılması istiqamətində uğurlu nəticələr əldə olunur. Bunlar özünü, ilk növbədə muzdla işləyənlərin sayının və əməkhaqqı fondunun ÜDM-də xüsusi çəkisinin artmasında özünü göstərir.

Bir iqtisadçı kimi qeyd etmək istəyirəm ki, Vergi Məcəlləsinin hazırlanması keçid dövrünü yaşayan gənc dövlət üçün həqiqətən yeni bir hadisə idi. Çünki bu sənədin qəbulu ilə ölkədə vergi siyasətinin güclü metodoloji, elmi əsasları, çirkli pulların yuyulmasına qarşı səmərəli mübarizə aparmaq üçün güclü baza yaradıldı.

Ölkə iqtisadiyyatının inkişafına dövlət dəstəyinin artdığı bir şəraitdə müəssisə, idarə və təşkilatları tərəfindən dövlət vəsaitləri hesabına malların (işlərin və xidmətlərin) satın alınması zamanı şəffaflığın artırılması və ədalətli rəqabətin təmin olunması istiqamətində tədbirlərin diqqət mərkəzində saxlanılması vacib məsələlərdən biridir. Etiraf edilməlidir ki, bu sahədə hələ də boşluqlar var. Araşdırmalar göstərir ki, iddiaçılardan hələ də xeyli şikayət daxil olur. Şikayətlər əsasən açıq tenderlərdə iddiaçıların iştirakına ayrı-ayrı satınalan təşkilatlar tərəfindən maneələrin yaradılması ilə bağlıdır.

Sahibkarları narahat edən məsələlərdən biri aparılan yoxlamaların bir sıra hallarda əsassız olmasıdır. Təcrübə göstərir ki, **"Vergi sistemində aparılan qeyri-qanuni yoxlamalar, xüsusilə uzunmüddətli yoxlamalar biznesə böyük zərbə vurur, şirkəti iflic vəziyyətinə salır.**

Bu məsələdə dövlətin mövqeyini açıqlayan Prezident İlham Əliyev deyir:

"...**Bəzən bunu rəqabət naminə edirlər, onun kökündə başqa amillər də durur.**

**Bunlara son qoyulmalıdır. Yoxlamalar hər bir ölkədə olduğu kimi, aparılmalıdır. Amma onlar qərəzsiz aparılmalıdır. Onun kökündə başqa maraqlar olmamalıdır".**

Amma çirkli pulların yuyulmasına qarşı mübarizə aparmaq üçün təkcə respublika hüdudlarında deyil rügional, qlobal səviyyədə sistemli tədbirlərin görülməsinə ehtiyac vardır.

Dünya siyasi elitasında özünəməxsus yeri olan Amerika siyasətinin "patriarx"larından Henri Kissincer yazır: "Müasir dünyada sabitliyə nail olmaq üçün regional xüsusiyyətlərin bir-biri ilə əlaqələndirilməsi tələb ediləcək. Bu hədəflər heç də həmişə eyni olmur və ya bir-birini qarşılıqlı tamamlamır: bir regionda uğurlu nəticələr vermiş radikal dəyişikliklər başqa regionlarda xaos doğura bilər. Regionda bir ölkənin başqaları üzərində hərbi hökmranlığı, hətta bu hökmranlıq həmin regionda sabitliyi təmin etsə belə, ümumdünya böhranına səbəb ola bilər".

Dünyada regional iqtisadiyyatlarda özünü göstərən meyllərdən çıxarılan nəticə onu deməyə əsas verir ki, dünya nizamının yeni konturlarının formalaşması, qlobal risklərin məhdudlaşdırılması üçün uzun vaxt tələb ediləcək. Bunlara baxmayaraq dünya ölkələri

aşağıda göstərilən bir sıra vacib ümumi maraqları birlikdə təmin etmək üçün səylərini əsirgəməməlidirlər.

-beynəlxalq terrorizmə, həmçinin qloballaşan narkomafiyaya qarşı mübarizə;

-yeni nüvə dövlətlərinin yaranmasının və xüsusilə, kütləvi qırğın silahlarının terrorçuların əlinə düşməsinin qarşısının alınması;

-yer kürəsində həyatın mövcudluğuna təhlükə doğuran ekologiya problemlərinin həlli;

-qloballaşan iqtisadiyyatın az-çox sabit inkişafının təmin edilməsi;

-ölkələrin çoxunu təhdid edən ekstremal vəziyyətlərin (yoluxucu xəstəliklər, kütləvi epidemiyalar, təbii fəlakətlər, vulkan püskürmələri, asteroidlərin düşməsi və s., həmçinin atom elektrik stansiyasında qəzalar) aradan qaldırılması işində əməkdaşlıq.

Faktlar göstərir ki, sadalanan problemlərin həllində eləcə də, dünya maliyyə -bank sistemində yeni texnalogiyaların tətbiqində müəyyən müsbət nəticələr əldə edilsə də korrupsiyaya, çirkli pulların yuyulmasına qarşı mübarizə o qədər də səmərəli olmamışdır... Bir qayda olaraq bu proseslərdə ən çox əziyyət çəkən inkişaf etməkdə olan və kasıb ölkələrdir.

**Ədəbiyyat:**


1. Azərbaycanda dövlət idarəetmə sisteminin islahatlarına həsr edilmiş beynəlxalq konfransda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi – 16 mart 1999-cu il.

2. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Prezident Aparatında keçirilmiş müşavirədə giriş nitqi - 26 yanvar 2000-ci il

3. Azərbaycan Prezidenti İlham Əliyevin Bakı Biznes Mərkəzinin açılışında yerli sahibkarlarla yekun nitqi 3 fevral 2004-cü il

4. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının bir illiyinə həsr olunmuş konfrans Azərbaycan Prezident İlham Əliyevin giriş nitqi, 11 fevral 2005-ci il

5. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 30 dekabr 2022-ci il

6. “İlham Əliyev: Biz elə etməliyik ki, xalqımız daha yaxşı yaşasın, heç bir sosial gərginlik olmasın”, Akademik Z.Səmədzadənin məqaləsi, Respublika qəzeti, 25.12.2019

7. Z.Səmədzadə “Azərbaycan iqtisadiyyatı 100 ildə” 5 cildlik. Bakı 2021.

*Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru*

*Ədalət MURADOV*

**Təhsilin Fərdiləşdirilməsi və Dəyərlərin Prioritetləşdirilməsi – uğur modeli**

Hörmətli tədbir iştirakçıları, əziz həmkarlar, dəyərli tələbələr!

Bu gün sizi UNEC adından salamlayır, belə mühüm və aktual bir mövzuda fikir mübadiləsi aparmaq imkanına görə təşəkkür edirəm. Müzakirəyə çıxardığımız "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə nəzarət orqanlarının rolu, vəzifələri və məsuliyyəti" mövzusu təkcə təhsil sistemində deyil, bütövlükdə cəmiyyətimizin gələcəyində həlledici rol oynayan strateji bir məsələdir.

Son onilliklərdə təhsildə baş verən dəyişikliklər bizə göstərdi ki, kütləvi və standartlaşdırılmış təhsil modeli artıq çağdaş cəmiyyətin tələblərinə tam cavab vermir. Texnologiyanın sürətli inkişafı, əmək bazarındakı çeviklik və biliklərə olan tələbatın dəyişməsi təhsilin daha çevik, adaptiv və fərdiləşdirilmiş olmasını zəruri edir.

Fərdiləşdirilmiş təhsil o deməkdir ki, hər bir tələbənin maraqları, bacarıqları, öyrənmə tərzi və hədəfləri nəzərə alınaraq ona uyğun tədris yanaşması tətbiq edilir. Bu, təkcə texnoloji platformaların tətbiqi ilə yox, həm də müəllim-tələbə münasibətlərinin yenidən qurulması, kurikulumların çevikləşdirilməsi və qiymətləndirmə meyarlarının fərdiləşdirilməsi ilə mümkündür.

UNEC olaraq biz bu istiqamətdə artıq bir neçə mühüm addım atmışıq. "Fərdi tədris planı", "mütəxəssisə yönəlik modul sistemi" və "təhsil alanın seçimi əsasında dərs yüklərinin formalaşdırılması" kimi mexanizmlər tələbənin öz təhsil trayektoriyasını özü müəyyən etməsinə imkan verir.

Texnologiya və fərdiləşmə nə qədər önəmli olsa da, təhsilin mahiyyətində duran əsas elementlərdən biri və bəlkə də birincisi – dəyərlərdir. Təhsil təkcə bilik vermək deyil, həm də şəxsiyyət formalaşdırmaqdır. Biz yalnız savadlı deyil, həm də vətənpərvər, dürüst,

əməksevər, sosial məsuliyyət daşıyan və əxlaqi prinsiplərə sadiq vətəndaşlar yetişdirməyə borcluyuq.

Dəyərlərin prioritetləşdirilməsi o deməkdir ki, tədris prosesində insanpərvərlik, milli-mənəvi dəyərlər, sosial ədalət, ətraf mühitə hörmət və fərqli baxışlara dözümlülük kimi prinsiplər əsas yer tutur. Bu dəyərlər tədris planlarında, müəllim davranışlarında və ümumi təhsil mühitində öz əksini tapmalıdır.

UNEC bu baxımdan yalnız bir iqtisadiyyat universiteti deyil, həm də sosial məsuliyyət daşıyan bir ali təhsil müəssisəsidir. Biz təhsil prosesini bilik ötürməkdən çox, düşünmək, dəyərləndirmək və məsuliyyət daşımaq bacarığını formalaşdırmaq prosesi kimi görürük. UNEC-də tətbiq olunan sosial layihələr, könüllülük proqramları və tələbə təşəbbüsləri bunun bariz nümunəsidir.

Rəqəmsallaşma təhsilin fərdiləşdirilməsində yeni imkanlar yaradır. Süni intellekt alqoritmləri vasitəsilə hər bir tələbənin öyrənmə göstəriciləri təhlil olunur və ona uyğun fərdi təkliflər irəli sürülə bilir. UNEC olaraq biz bu texnologiyaları tətbiq etməklə tədris prosesini daha məqsədyönlü və effektiv etməyə çalışırıq.

Lakin bu imkanlarla yanaşı, rəqəmsallaşma bəzən dəyərlər sahəsində risklər də yarada bilər. Sosial təcrid, informasiyanın yanlış istifadəsi və etik dilemmlar bu sahədə yeni çağırışlardır. Buna görə də rəqəmsal bacarıqlarla yanaşı, rəqəmsal etik dəyərlərin də formalaşdırılması vacibdir.

Müəllimin rolu dəyişir, amma əhəmiyyəti azalmır. Yeni dövr müəllimi yalnız bilik verən deyil, həm də tələbənin təlim yolçuluğunda bələdçi rolunu oynayır. O, fərdi yanaşma göstərməli, tələbənin güclü və zəif tərəflərini dərk edərək onu düzgün istiqamətləndirməlidir. Bu isə müəllimlərin pedaqoji və psixoloji hazırlığını, eyni zamanda onların öz dəyərlərinə sadiqliyini tələb edir.

UNEC müəllimlərinin peşəkarlığının artırılması, onların müasir metodlara yiyələnməsi və tələbə ilə sağlam münasibət qurması üçün sistemli tədbirlər görür. Biz inanırıq ki, müəllim dəyərləri yaşayan və yaşadan şəxs olmalıdır.

Əziz konfrans iştirakçıları, biz fərdiləşdirilmiş və dəyərlərə əsaslanan təhsil modelini yalnız bir təhsil islahatı kimi deyil, milli inkişafımızın ideoloji dayağı kimi görürük. Çünki bu model ölkənin insan kapitalını daha effektiv formalaşdırır, fərdləri daha məsuliyyətli edir və cəmiyyətin sosial bağlarını gücləndirir.

UNEC olaraq biz qarşıdakı illərdə bu istiqamətdə fəaliyyətimizi daha da genişləndirəcəyik. Dəyərləri tədrisin mərkəzinə çevirəcək, hər bir tələbənin özünəməxsus potensialını üzə çıxaracaq və onları cəmiyyət üçün dəyərli bir vətəndaşa çevirəcək sistemlər üzərində çalışacağıq.

Sonda bir daha vurğulamaq istəyirəm: gələcəyin təhsili fərdiləşdirilmiş və dəyərlərlə zəngin təhsil olacaq. UNEC bu istiqamətdə irəliləyir, texnologiyanı və humanizmi birləşdirən təhsil modelini formalaşdırmaqdadır.

Diqqətinizə görə təşəkkür edirəm!

*Türkiyənin Sertifikatlı Mühasiblər Palataları Birliyinin (TÜRMOB) Beynəlxalq əlaqələr departamentinin rəhbəri*

*Seher Gündoğdu*

TÜRMOB
TÜRKİYE SERBEST MUHASEBECİ MALİ MÜŞAVİRLER VE YEMİNLİ MALİ MÜŞAVİRLER ODALARI BİRLİĞİ
(UNION OF CHAMBERS OF CERTIFIED PUBLIC ACCOUNTANTS OF TÜRKİYE)

***The effectiveness of TÜRMOB in the fields of training, awareness and cooperation on AML and CFT in Türkiye.***

***Seher GÜNDOĞDU (PhD.c.)***

***Head of International Affairs Dept.***

- **TÜRMOB** (Union of Chambers of Certified Public Accountants of Türkiye)
- **the national professional body with the sole authority** to award professional license. TÜRMOB was founded in 1989 with the Law 3568 on Certified Public Accountancy and Sworn-in Certified Public Accountancy.
- **85 Chambers** of which 77 are CPA Chambers and 8 are Sworn-in CPA Chambers.
- **134,749 members**, 20,000 aspiring professional accountants
- **62,189 SMPs**
- **72,560 PAIBs**
- **International membership**
- IFAC & Accountancy Europe full member
- FCM & Edinburgh Group founding member
- Providing education and training for professional development

- **TESMER** (Education and Practical Training Center)
- **SÜRGEM** (Continuous Professional Development Center -CPDE).

## Authorities on AML/CFT in Türkiye

- **Financial Crimes Investigation Board (MASAK)** – Leading authority for detecting and preventing money laundering and terrorist financing.

- **Banking Regulation and Supervision Agency (BRSA - BDDK)** – Supervises and regulates banks and financial institutions for AML compliance.

- **Capital Markets Board of Turkey (CMB - SPK)** – Monitors capital markets and ensures transparency in financial transactions.

- **Ministry of Treasury and Finance** – Develops national AML/CFT policies and ensures legal compliance.

- **Other regulatory bodies** (Central Bank, Insurance Regulation Authority) – Oversee the financial sector and ensure AML compliance.

## TÜRMOB’s International Representation on AML/CFT

### Active member of Accountancy Europe’s AML Working Party

- Participating in the development of new EU AML rules, ensuring the profession’s perspectives are represented.
- Engaging in policy discussions to enhance AML compliance and prevent financial crimes across Europe.
- 7 April – the draft of IFAC's response to the FATF financial inclusion guidance consultation
- FATF-IFAC-IBA AML Capacity Building Program

### Represented in IFAC’s AML Community of Practice

- Connecting AML leads from 28 organizations across 25 countries to exchange best practices.
- Actively contributing to global discussions on AML/CFT policies, focusing on financial inclusion and proportionality.
- Supporting the FATF’s initiatives on balancing AML compliance with financial inclusion.
- the providing the document outlining concrete steps that accountancy practices, national institutes of accountants, auditors, and advisors can take to prepare for the EU’s antimoney laundering and countering the financing of terrorism (AML/CFT) legislation coming into effect in 2027.
- Expanding **training programs** to reach more members, Educating your member professionals
- Working with key domestic stakeholders
- Enhancing **cooperation** with national & international bodies
- Developing **new implementation guidelines for members** on AML/CFT compliance.

*İsrailin Sertifikatlaşdırılmış İctimai Mühasiblər İnstitutu (ICPAI) İdarə Heyətinin üzvü, İqtisadi cinayətlərə və çirkli pulların yuyulmasına qarşı mübarizə komitəsinin sədri*

*Simon YANİV*




- ✓ *The Chairman of the Management Board of FMS (Financial Monitoring Service of the Republic of Azerbaijan) - Mr. Fatizade*
- ✓ *The president of the of the CAAR (Azerbaijan chamber of certified accountants) – Mr. NOBROZOV*
- ✓ *The ambassador of Israel at Azerbaijan. Mr Dayek*
- ✓ *The president of the ICPA (institute of certified public accountants in Israel) –Mr. Shraiber*

*First, I want to say that this I It is a honor to take part in this important Conference That Strengthens the bond and commitment of both chambers and countries and our shared commitment As gatekeepers against Economic crime. Which harms the economies of both countries and the world in general.*

# The AML Law  In Israel



- The Money Laundering Prohibition Law was Added to the Israeli law book in 2000.

- Following to the law, bank's and other financial institutions including <u>Accountants and lowers</u> are subject to this law by orders.

2

# Enforcement actions by banks and other financial institutions

Those order's details the specific duties  such as:

- ✓ Make KYC on potential customer;
- ✓ Prevent any suspicions  transactions in the account;
- ✓ Report  to the AMLTF  in case of suspicious activities and cash transfers over 50,000 Nis, and In some cases  also in lower amounts.



3

*Report  to the AMLTF  in case of suspicious activities and cash transfers over 50,000 Nis, and In some cases  also in lower amounts*
*in case that the activity in the account is  not typical to the customer  or appears suspicions without a satisfy explanation from the customer or without  References for action.*

## Enforcement actions by banks and other financial institutions

- ✓ Avoid opening or mange account that is carrying out actions that are suspicions to be made for camouflaged the source of the money;
- ✓ Opening and managing funds and financial assets on name of anthers, that they are not the benefiter's owners .
- ✓ Maintain records about the client actions.




4

***Avoid opening or mange account that is carrying out actions that are suspicions to be made for camouflaged the source of the money.***

## The Authority for the Prohibition of Money Laundering and Terrorist Financing (AMLTF)

- ➢ In order to enforce the law, the AMLTF was established in 2002.
- ➢ The AMLTF is responsible for:
- ✓ Producing and mining relevant information;
- ✓ Umlauting the financial intelligence picture;
- ✓ Deliver the information to the relevant force agencies, such as Israeli Police, I.D.F, The Israel Securities Authority...



5

## Sanctions imposed on lawbreakers



- The Law allows to catch the property of a person that suspecet or convicted of a money laundering offense
- There are two options for seizing property in the criminal process.

✓ Temporary seizure

✓ Permamaent ond final seizure

*Temporary seizure – wile of investigating the suspecnes offens or wile the trial is ongoing - in order to prevent the smuggling the assets*

*Permamaent ond final seizure - in case that the persons convicted of a money laundering offense.*

## Sanctions imposed on lawbreakers



- Any property owned by the suspect can be seizure
- The amount of the seizure will be equal to the value of the money laundering offense and its regardless if the offender profited from the activity or not.

*It important to menschen that Any property owned by the suspect or the convicted can be seizure,*

*Even that the surest of the money to purchase those property in from legitimate sources.*

## Sanctions imposed on lawbreakers

**The damage resulting from the seizure of the property can be critical, since the investigation procedure can take in israel a long peroid of time , even a years, especialy to a person who is found innocent at the end of the criminal proceeding.**



8



## THANK YOU!



**Simon Yaniv, CPA, Adv.**

Member of the Board of Directors of the Institute of Certified Public Accountants in Israel (ICPAI);

Chairman of the Committee for Handling Economic Offenses and Money Laundering (ICPAI)

9

*So far the main principle of the AML low in israel and My college Mr Roy Katz will follow me and expand on the obligation by the low on banks and financial institutions including on crypto activity.*

*Azərbaycan Respublikası Mərkəzi Bankının Baş direktoru*

*Fuad İSAYEV*

**“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə nəzarət orqanlarının rolu, vəzifələri və məsuliyyəti” mövzusunda beynəlxalq elmi-praktiki konfransın**

**“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Azərbaycan Respublikası Mərkəzi Bankının rolu” mövzusunda çıxışı**

**Hörmətli tədbir iştirakçıları!**

Sizi salamlayır və bu əhəmiyyətli tədbirdə iştirak etməkdən məmnunluğumu bildirirəm. Bu gün müzakirə etdiyimiz mövzu – cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə – yalnız hüquq mühafizə, milli və iqtisadi təhlükəsizlik məsələsi deyil, eyni zamanda maliyyə sisteminin bütövlüyü, şəffaflığı və davamlılığı baxımından olduqca vacibdir.

Qlobal maliyyə sistemində sürətli dəyişikliklər və texnoloji inkişaf fonunda yeni risklər formalaşmaqdadır. Bu baxımdan, ölkəmizin iqtisadi və maliyyə təhlükəsizliyinin təmin olunması, habelə beynəlxalq nüfuzunun qorunması üçün Azərbaycan Respublikası Mərkəzi Bank olaraq bu sahəyə xüsusi əhəmiyyət verilir.

**Normativ və metodoloji bazanın inkişafı**

Son illər ərzində, xüsusilə 2022-ci ildən başlayaraq, bu sahədə əhatəli islahatlar həyata keçirilmişdir. Bizim əsas məqsədimiz – beynəlxalq standartlara cavab verən, effektiv və təkmil nəzarət sisteminin formalaşdırılması olmuşdur. Bu istiqamətdə ilk növbədə normativ və metodoloji bazanın gücləndirilməsi diqqət mərkəzində olmuşdur. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə mübarizə sahəsində yoxlamaların aparılması və monitorinq prosedurlarını tənzimləyən yeni təlimatlar hazırlanmış, risklərin qiymətləndirilməsi metodologiyaları beynəlxalq təcrübə ilə uyğunlaşdırılmışdır. Eyni zamanda, elektron köçürmələr və virtual aktivlərlə əməliyyatlara dair yeni layihələr hazırlamışdır. Bu yanaşmalar mütərəqqi təcrübələrə, həm də FATF, Bazel Komitəsi prinsiplərinə əsaslanır.

**İnstitutsional islahatlar**

Nəzarət funksiyasının effektiv icrasının təmin edilməsi məqsədilə institusional islahatlara da ciddi önəm verilmişdir. Mərkəzi Bankın strukturunda bu sahəyə cavabdeh olan 2 ixtisaslaşmış departament – maliyyə monitorinqi üzrə siyasət və tənzimlənmə, habelə

nəzarət funksiyasını icra edən maliyyə monitorinqi departamentləri yaradılmışdır. Əvvəllər yalnız bir struktur bölməsinin icra etdiyi funksiyalar hazırda daha funksional və ixtisaslaşmış şəkildə analitik əsasda həyata keçirilir.

**İnsan resurslarının inkişafı**

İnsan resursları və texnologiyanın inkişafı da bu prosesin mühüm tərkib hissəsidir. Əməkdaşlarımızın bilik və bacarıqlarının artırılması məqsədilə yerli və beynəlxalq təlimlərə cəlb olunmaları təmin edilmiş, bir sıra mütəxəssislər beynəlxalq sertifikatlar əldə etmişdir. Paralel olaraq, nəzarət fəaliyyətinin operativliyini və effektivliyini təmin etmək üçün avtomatlaşdırılmış proqram təminatlarının tətbiqi genişləndirilmişdir.

**Lisenziyalaşdırma prosesində ƏL/TMM risklərinə nəzarətin gücləndirilməsi**

Təbii ki, ƏL/TMM risklərinin azaldılmasının ən effektiv yollarından biri bazara sağlam iştirakçıların buraxılmasıdır. Bu səbəbdən Mərkəzi Bank lisenziyalaşdırma prosesində də şəffaflıq və uyğunluq prinsiplərini rəhbər tutur. Lisenziya prosesində nizamnamə kapitalına qoyulan vəsaitlərin mənbəyi, benefisiar mülkiyyətçilər və rəhbər şəxslər barədə ətraflı araşdırmalar aparılır və bu nəzarət lisenziya verildikdən sonra da davam etdirilir. Son dövrlərdə bu istiqamətə diqqət daha da artırılmışdır.

**Risk-əsaslı nəzarətə keçid**

Mərkəzi Bank bütün nəzarət subyektləri və istiqamətləri üzrə risk-əsaslı nəzarətə keçid islahatlarını ƏL/TMM sahəsində də aparmışdır. Ötən il, Mərkəzi Bankın ARAS risk əsaslı nəzarət yanaşmasını ehtiva edən Konsepsiya ictimaiyyətə elan edilmişdir. “2024-2026-cı illərdə Maliyyə sektorunun inkişaf strategiyası” çərçivəsində görülmüş bu işlər ƏL/TMM sahəsində aparılmış və sahəvi risk qiymətləndirilməsi metodologiyası təsdiq edilmişdir. Mərkəzi Bankda bu çərçivədə sahəvi risk qiymətləndirməsi aparılır, bu qiymətləndirmənin nəticələrinə uyğun olaraq fərdi yoxlamalar keçirilir və zəruri hallarda korrektiv tədbirlər görülür.

**Maarifləndirmə tədbirləri**

ƏL/TMM sahəsində səmərəli fəaliyyətin təmin olunması məqsədilə maliyyə sektorunun əməkdaşları üçün mütəmadi olaraq təlim və seminarlar təşkil olunur. Bu tədbirlər qanunvericilik tələbləri, sanksiyalar və onlarla bağlı yaranan risklərin idarə olunması üzrə bilik və bacarıqların artırılmasına hədəflənir.

“Əməliyyatların monitorinqi, şübhəli əməliyyat sxemlərinin müəyyən olunması, analizi, təhlil hesabatlarının hazırlanması, əməliyyatın və əməliyyat sxemlərinin şübhəli olub-olmamasına dair qərarların qəbul edilməsi, şel şirkətlərlə bağlı əməliyyatların təhlil keyfiyyətinin yüksəldilməsi”, “İnstitusional risklərin qiymətləndirilməsi, habelə müştəri uyğunluğu və yeni texnologiyaların tətbiqi zamanı verifikasiya tədbirlərinə, risk faktorlarının müəyyən edilməsinə və müştəri profilinin risk qruplarına aid edilməsi” ,“Daxili nəzarət proqramının təkmilləşdirilməsi”, “Müştəri uyğunluğu tədbirlərinin tətbiqi”, “Sanksiya rejiminin tətbiqi, ikili təyinatlı malların müəyyən edilməsi, ixracı ilə bağlı” bu kimi mövzularda təlimlər və seminarlar keçirilmişdir.

**Qeyd olunan kompleks tədbirlərin nəticəsində Mərkəzi Bank, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə mübarizə sahəsində beynəlxalq standartlara uyğun, möhkəm və davamlı maliyyə nəzarət sisteminin formalaşdırılmasına ciddi töhfə verməkdədir.**

**Azərbaycan Mərkəzi Bankı olaraq bu sahədə fəaliyyətimizi bundan sonra da sistemli və ardıcıl şəkildə davam etdirmək əzmindəyik. Əminəm ki, dövlət qurumları, maliyyə sektoru iştirakçıları və beynəlxalq tərəfdaşlarımızla birgə səylər nəticəsində daha şəffaf, təhlükəsiz və dayanıqlı maliyyə mühiti formalaşacaqdır.**

Diqqətinizə görə təşəkkür edirəm!

*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədr müavini*

*Rauf Səlimov*






## Müşahidə olunmayan iqtisadiyyatın ölçülməsinin rəsmi statistikada rolu

- Statistik məlumatların keyfiyyətinin təmin edilməsi üçün müşahidə olunmayan iqtisadiyyat düzgün qiymətləndirilməlidir

### Əsas çətinliklər

- Sahibkarların ənənəvi (birbaşa) statistik metodlarla müşahidəyə cəlb edilməsinin mümkün olmaması
- İstehsal olunan mal və xidmətlərin real həcminin bilərəkdən tam və ya qismən gizlədilməsi

### Nəticələr və risklər

- Ümumi Daxili Məhsulun həcmi və dinamikasına dair statistik məlumatların təhrif olunması riski

## Terminoloji dolaşıqlığın mövcudluğu

- Media nümayəndələri və müxtəlif ekspertlər müşahidə olunmayan iqtisadiyyat mövzusuna müraciət edərkən çox vaxt bu fenomen və onun sərhədləri barədə müfəssəl məlumatlara malik olmurlar
- Gizli iqtisadiyyat, kölgə iqtisadiyyatı, qeyri-qanuni iqtisadiyyat və s. ifadələr çox vaxt sinonimlər qismində istifadə olunur
- Mövzunu şərh edənlər və izləyənlər üçün anlaşılmazlıq yaradır
- Belə şərhlər ictimai rəyə təsir göstərsə də, real iqtisadi təhlilə əsaslanmır



## Müşahidə olunmayan iqtisadiyyatın rəsmi statistikada qiymətləndirilməsinə dair əsas metodoloji vəsaitlər

- Milli Hesablar Sistemi-2008
- Avropa Hesablar Sistemi-2010
- İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) "Müşahidə olunmayan iqtisadiyyatın ölçülməsi" Təlimatı










## Müşahidə olunmayan fəaliyyətin növləri

- Gizli fəaliyyət
- Qeyri-qanuni fəaliyyət
- Qeyri-formal sektorda fəaliyyət
- Ev təsərrüfatları tərəfindən istehsal edilən və özlərinin son istehlakı üçün nəzərdə tutulan istehsal



## Gizli fəaliyyət

**Gizli fəaliyyət** - qanuni fəaliyyət prosesində istehsal olunan, lakin vergi və digər ödənişlərdən yayınmaq üçün dövlət orqanlarından bilərəkdən gizlədilən mal və xidmətlərin istehsalı ilə bağlı fəaliyyətdir

**Misal 1: Rəsmiləşdirilməyən mebel istehsalı**

| Məhsul | Miqdar (ədəd) |
|---|---|
| **Yazı masası (cəmi)** | **700** |
| ondan:<br>rəsmi bəyan edilmişdir | 500 |
| **Gizli istehsal** | **200** |

**Nəticədə nə baş verir?** Əlavə gəlir əldə olunur, amma bu fəaliyyət heç bir statistika və vergi hesabatında əksini tapmır




## Gizli fəaliyyət *(ardı)*

**Misal 2: Rəsmiləşdirilməyən işçilər**

| | Muzdla işləyənlərin sayı | Əmək haqqı fondu, manat | İllik gəlir, manat |
|---|---|---|---|
| **Faktiki məlumatlar** | **5** | **30 000** | **90 000** |
| ondan:<br>rəsmi bəyan edilmişdir | 3 | 18 000 | 50 000 |
| **Gizli / qeyri formal fəaliyyət** | **2** | **12 000** | **40 000** |

**Nəticədə nə baş verir?** Müştərilər var, xidmət göstərilir, gəlir əldə olunur, lakin bu fəaliyyət heç bir rəsmi hesabatda uçota alınmır



## Qeyri-qanuni fəaliyyət

**Qeyri-qanuni fəaliyyət -** qanunla qadağan olunmuş və ya müvafiq icazə olmadığı üçün qeyri-qanuni hesab edilən mal və xidmətlərin istehsalı və göstərilməsi ilə bağlı fəaliyyətləri əhatə edir

Qeyri-qanuni fəaliyyətlərə aiddir:

- narkotik vasitələrin istehsalı və satışı
- oğurluq
- insan alveri
- gizli qumar oyunlarının təşkili
- qaçaqmalçılıq
- müvafiq lisenziyası olmayan şəxslər tərəfindən tibbi xidmətlərin göstərilməsi
- digər kriminal fəaliyyət

## Qeyri-qanuni fəaliyyət *(ardı)*

**Misal: Ölkəyə qaçaqmalçılıq yolu ilə malların idxalı**

- Bu fəaliyyət qeyri-qanunidir və təbii ki, rəsmi statistika, gömrük və vergi hesabatlarında əks olunmur



## **Qeyri-qanuni fəaliyyət** *(ardı)*

Qeyri-qanuni fəaliyyətin statistik qiymətləndirilməsi və beynəlxalq müqayisəliliyin təmin edilməsində əsas çətinliklər:

- qeyri-qanuni fəaliyyətin qiymətləndirilməsi üçün etibarlı məlumat mənbələri mövcud deyil
- ölkələrin qanunları fərqlənir, bir ölkədə qadağan olunmuş fəaliyyətə digər ölkədə tam və ya qismən icazə verilir
- qanunların zamanla dəyişməsi qeyri-qanuni fəaliyyətlərin hüquqi statusuna da təsir göstərir

## **Qeyri-qanuni fəaliyyət** *(ardı)*

- Azərbaycanın rəsmi statistikasında qeyri-qanuni fəaliyyət ÜDM-ə daxil edilmir
- Avropa İttifaqının Statistika Bürosunun (Avrostat) və BMT-nin Avropa İqtisadi Komissiyasının məlumatlarına əsasən Avropa İttifaqı ölkələrində qeyri-qanuni fəaliyyətin ÜDM-də payı orta hesabla **0,5 faiz** təşkil edir.



## Qeyri-formal fəaliyyət

**Qeyri-formal fəaliyyət** - dövlət orqanlarında qeydiyyata alınmayan və rəsmi statistika müşahidəsindən kənarda qalan ev təsərrüfatlarının iqtisadi fəaliyyətdir




## Ev təsərrüfatları tərəfindən istehsal edilən və özlərinin son istehlakı üçün nəzərdə tutulan məhsul istehsalı üzrə fəaliyyət

Ev təsərrüfatları tərəfindən istehsal edilən və satış üçün deyil, yalnız özlərinin şəxsi istehlakı üçün nəzərdə tutulan malların - çörək və çörək məmulatları, süd və süd məhsulları, ət, yumurta, meyvə, tərəvəz, bostan bitkiləri və s. bu kimi məhsulların istehsalını əhatə edir

**Məsələn**: bir ailə öz şəxsi təsərrüfatında buğda əkir, həmin buğdanı üyüdərək un əldə edir və ev şəraitində çörək bişirir. Bu çörək nə satışa çıxarılır, nə də dəyişdirilir – yalnız ailə üzvləri tərəfindən istehlak olunur.



## 2023-cü ildə müşahidə olunmayan iqtisadiyyatın Ümumi Daxili Məhsulda payı

| | ÜDM-də payı, % | Qeyri neft-qaz ÜDM-də payı, % |
|---|---|---|
| Müşahidə olunmayan iqtisadiyyat | 7.7 | 11.9 |
| ondan: | | |
| - gizli iqtisadiyyat | 1.8 | 2.7 |



## Müşahidə olunmayan iqtisadiyyatın qeyri neft-qaz ÜDM-də payı, faizlə



## Rəsmi hesabatlarda məlumatların etibarlılıq səviyyəsinin qiymətləndirilməsinə dair statistik müayinə

**Məqsəd:**

Statistik hesabatlarda məlumatların qəsdən təhrif olunması səviyyəsini öyrənmək

**Respondentlər:**

- *Auditorlar Palatasına üzv olan auditor təşkilatları və sərbəst auditorlar*
- *Mühasibat, audit və vergi məsləhəti sahəsində çalışan hüquqi və fiziki şəxslər*



## Rəsmi hesabatlarda məlumatların etibarlılıq səviyyəsinin qiymətləndirilməsinə dair statistik müayinə *(ardı)*

**Müayinənin nəticələrinə əsasən ən çox təhrif olunma halları olan sahələr:**

- tikinti
- emal sənayesi
- turistlərin yerləşdirilməsi və ictimai iaşə
- ticarət
- nəqliyyat vasitələrinin təmiri



**Rəsmi hesabatlarda məlumatların etibarlılıq səviyyəsinin qiymətləndirilməsinə dair statistik müayinə** *(ardı)*

**Təhrif olunan hesabatlarda:**

- gəlirlər faktiki olduğundan **14,4 faiz** az
- əmək ödənişləri **12,5 faiz** az
- işçilərin sayı **13,8** faiz az
- xammal və material xərcləri isə **12,6 faiz** çox göstərilir.

**Diqqətinizə görə təşəkkür edirəm**

***İsrailin Sertifikatlaşdırılmış İctimai Mühasiblər İnstitutu (ICPAI) Direktorlar Şurasının üzvü, Blokçeyn və kriptovalyutalar üzrə komitəsinin sədri***

***Roi KATZ***






3

**Israel: AML Banking Regulations**

- Comprehensive AML law since 2000 underpins strict compliance in banking
- Active regulators (Bank of Israel, IMPA) enforce rigorous KYC and reporting obligations
- Banks must verify customer identity & beneficial owners, and monitor transactions
- Mandatory suspicious activity reports to Israel's FIU (IMPA) – heavy penalties for lapses

4

**Azerbaijan: AML Reforms**

- New AML/CFT Law – 2023 modernizes framework, aligning with FATF global standards
- Broader scope: now covers crypto exchanges, real estate, lawyers, accountants as regulated entities
- Stronger oversight: Financial Monitoring Service (Central Bank) empowered to enforce compliance
- Practical impact: firms must implement KYC, monitoring, and training programs to meet stricter obligations

## Risk-Based Approach to AML

5

- Identify and prioritize high-risk clients, transactions, and sectors (e.g. PEPs – politically exposed persons)
- Enhanced due diligence for higher-risk cases; simplified checks for low-risk scenarios where appropriate
- No "one-size-fits-all" – AML controls should be proportional to each client's risk exposure
- Regulators expect documented risk assessments and regular updates as threats evolve

## Accountants as AML Gatekeepers

6

- Conduct thorough client due diligence (verify identity, beneficial owners, and source of funds)
- Stay alert to red flags in clients' activities; report suspicious transactions to authorities promptly
- Keep detailed records of due diligence and transactions to maintain a clear audit trail
- Implement internal AML policies and regular staff training to foster a strong compliance culture

## Crypto Assets: AML Risks & Global Response

7

- Cryptocurrencies pose new laundering risks – fast, borderless transfers with pseudonymous identities
- Global regulators now impose AML rules on crypto firms (licensing, KYC checks, transaction monitoring)
- FATF's "Travel Rule" extends to crypto: exchanges must share sender/recipient data to ensure traceability
- Enforcement is rising: authorities cracking down on illicit crypto schemes and using blockchain analytics to trace funds

## Crypto Assets: AML Risks & Global Response

8



## Crypto Assets: AML Risks & Global Response

Kraken.com

Exchange

BTC | Asset | USD

Overview | Counterparties | Transfers | Addresses | OSINT | Community (15)

| Counterparty | Insights | Transfers | Sent | Received | 09/13 | 05/25 |
|---|---|---|---|---|---|---|
| Binance.com | | 758,113 | 797,362 | 1,054,882 | | |
| bc1pyyt92hkyk... | | 73,088 | 590,253 | 620,198 | | |
| Bitfinex.com | | 123,940 | 565,365 | 543,644 | | |
| bc1qv4r4zwvf... | | 28,032 | 507,837 | 522,511 | | |
| bc1p82w6q4t... | | 66,268 | 493,477 | 519,720 | | |
| Coinbase.com | | 770,405 | 535,548 | 508,366 | | |
| Poloniex.com | | 167,500 | 355,008 | 397,940 | | |
| Bitstamp.net | | 93,124 | 334,475 | 338,896 | | |
| bc1pwu5hk6v... | | 27,383 | 299,783 | 302,018 | | |
| Bittrex.com | | 323,252 | 211,553 | 232,487 | | |
| OKX.com | | 39,200 | 129,083 | 209,283 | | |
| Gemini.com | | 49,405 | 147,699 | 192,329 | | |
| HTX.com (form... | | 41,454 | 121,567 | 186,002 | | |
| BitPay.com | | 14,416 | 8,528.61 | 174,187 | | |
| B2C2.com | | 6,141 | 173,850 | 140,019 | | |
| Nexo.io | | 334,508 | 24,187 | 118,686 | | |
| Cumberland.io | | 1,180 | 62,309 | 107,868 | | |
| FTX.com | | 25,852 | 61,739 | 86,415 | | |
| Numerium3.com | | 1,320 | 25,864 | 82,266 | | |
| XapoBank.com | | 19,862 | 27,545 | 78,758 | | |
| KuCoin.com | | 101,875 | 29,859 | 77,209 | | |
| Bitcoin.de | | 86,769 | 199,075 | 73,880 | | |

9

## Crypto AML Red Flags

10

- Sudden unexplained high-volume crypto trades
- Multiple transactions just below reporting limits
- Funds involving anonymous wallets/mixers
- Inconsistent wallet ownership documentation
- Refusal to provide crypto transaction records

11

**Key Takeaways**

- Fighting financial crime is a shared effort – it requires vigilant professionals and cross-border cooperation
- Regulatory expectations are rising (new laws, crypto oversight) – staying educated and adaptable is critical
- A proactive, risk-focused compliance approach protects your clients, your firm, and the financial system
- Beyond avoiding fines, strong AML practices uphold integrity, trust, and the rule of law

12

# Thank you!

**CPA ROI KATZ**
**MEMBER OF THE BOARD OF DIRECTORS AT THE ICPAI;**
**CHAIRMAN OF THE COMMITTEE ON BLOCKCHAIN AND CRYPTOGRAPHIC CURRENCIES;**
**CHAIRMAN OF THE SPECIAL APPROVALS COMMITTEE.**

*Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin*
*Nəzarət və hüquq mühafizə orqanları ilə iş departamentinin direktoru*

***Nurlan BABAYEV***









## ➢ NƏZARƏT TƏDBİRLƏRİ



# Suallar ?

nurlan.babayev@fiu.az

Bul -bul  St 40 , Baku, Azerbaijan

+994557632763

www.fiu.az

Presented By : Larana Corporate

*Azərbaycan Respublikası Hesablama Palatasının*
*Dövlət gəlirlərinin və iqtisadi sahələrin auditi şöbəsinin müdiri*

***Azim ABBASOV***

## Dövlət vəsaitinin mənimsənilməsinə qarşı mübarizədə Azərbaycan Respublikası Hesablama Palatasının rolu

**Hörmətli konfrans iştirakçıları! Hesablama Palatasının sədri, cənab Vüqar Gülməmmədovun adından konfrans iştirakçılarını salamlayaraq tədbirin səmərəli olacağına ümidvar olduğumu bildirirəm!**

Müasir dövrdə qlobal iqtisadi münasibətlərin sürətlə genişlənməsi, maliyyə bazarlarının artan liberallaşması, texnika və texnologiyanın yüksək templə inkişafı fonunda cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması kimi transsərhəd risklər daha da aktuallaşmışdır. Bu halların qarşısının alınması və effektiv nəzarət mexanizmlərinin təmin edilməsi məqsədilə hər bir dövlət öz hüquqi və institusional çərçivəsini formalaşdırmalı, beynəlxalq əməkdaşlıq platformalarında aktiv iştirak etməlidir. Cənab Prezident İlham Əliyevin dediyi kimi "maliyyə intizamı, maliyyə resurslarının xərclənməsinə nəzarət, bu həmişə diqqət mərkəzində olmalıdır, indi isə buna daha da böyük ehtiyac var", bu kontekstdə nəzarət orqanlarının rolu, funksional vəzifələri və hüquqi məsuliyyəti həlledici əhəmiyyətə malikdir.

Hazırda cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, yəni çirkli pulların yuyulması, qlobal təhlükəsizlik üçün ciddi təhdidlərdən biri hesab olunur. Bu cür qanunsuz fəaliyyətlər həm iqtisadi sabitliyə, həm maliyyə sisteminin şəffaflığına, həm də dövlət idarəetməsinin səmərəliliyinə ciddi zərbə vurur. Bu baxımdan dövlət nəzarət və audit orqanlarının, o cümlədən Azərbaycan Respublikasının ali audit qurumu olan Hesablama Palatasının rolu xüsusi əhəmiyyət kəsb edir.

Hesablama Palatası, "Hesablama Palatası haqqında" Azərbaycan Respublikası Qanununda da qeyd edildiyi kimi, dövlət vəsaitinin və digər dövlət əmlakının qanunauyğun, məqsədyönlü və səmərəli istifadəsinə dövlət nəzarətinin təmin edilməsi sahəsində kənar dövlət maliyyə nəzarəti funksiyasını həyata keçirən dövlət qurumudur. Qanuna əsasən **dövlət vəsaiti** - dövlət büdcəsinin, büdcədənkənar dövlət fondlarının, məqsədli dövlət fondlarının, publik hüquqi şəxslərin vəsaitləri, dövlət zəmanəti ilə alınan kreditlər, dövlət qrantları və texniki yardımlar, büdcədən maliyyələşdirilən təşkilatların büdcədənkənar fondlarının vəsaitidir.

Ulu Öndər Heydər Əliyev demişdir. "Azərbaycan Respublikası Prezidenti olandan gördüyüm işlərin əsasını təşkil edən bu olmuşdur ki, Azərbaycanın vəsaiti qorunsun və onun dağılmasına yol verilməsin." Bu məqsədlə Palata öz səlahiyyətləri çərçivəsində

dövlət büdcəsinin, büdcədənkənar fondların, dövlət əsaslı vəsait qoyuluşlarının, dövlət borcunun və dövlət zəmanətləri ilə verilmiş borcların təyinatı üzrə istifadəsinin auditini həyata keçirir. Vəsaitlər təyinatı üzrə istifadə edilmədikdə Cinayət Məcəlləsinin 308-1-ci maddəsinə və İnzibati xətalar Məcəlləsinin 410-cu maddəsinə əsasən cəza tədbirləri və cərimələr nəzərdə tutulmuşdur. Hesablama Palatası tərəfindən aparılmış auditlər nəticəsində 2023-cü ildə bərpa edilməli dövlət vəsaiti - 60.6 mln manat, bərpa edilmiş məbləğ - 55.7 mln manat, 2024-cü ildə isə bərpa edilməli dövlət vəsaiti 83.4 mln manat, bərpa edilmiş məbləğ 58.4 mln manat təşkil etmişdir.

Nəzərə alaq ki, korrupsiya hallarının aşkar edilməsi və nəticələrinin aradan qaldırılması əvəzinə, korrupsiyaya şərait yaradan mühitin təkmilləşdirilməsi və qabaqlayıcı tədbirlərin görülməsi daha çox fayda verir. Bu məqsədlə nəzarət obyektləri üzrə risk qiymətləndirilməsinin aparılması vacibdir. Belə ki, Palata "Hesablama Palatası haqqında" Azərbaycan Respublikası Qanununun 20.4-cü maddəsinə əsasən iş planında nəzərdə tutulan kənar dövlət maliyyə nəzarət tədbirlərini risk qiymətləndirilməsi yolu ilə müəyyən edir. Bu qanunun 21.2.1-ci maddəsinə əsasən Hesablama Palatası kənar dövlət maliyyə nəzarəti obyektinin fəaliyyəti haqqında məlumatları, o cümlədən onun fəaliyyətini tənzimləyən qanunvericilik aktlarını, maliyyə-iqtisadi göstəricilərini və müvafiq hesabatlarını, uçot və hesabat işlərinin vəziyyətini, keçirilmiş maliyyə nəzarəti tədbirlərinin nəticələri üzrə materialları, mövcud olan riskləri, fəaliyyətinə təsir edən daxili və xarici amilləri, dövlət proqramlarının və layihələrinin icrası barədə məlumatları toplayır və bu məlumatların təhlili nəticəsində kənar dövlət maliyyə nəzarəti tədbirinin əhatə edəcəyi məsələləri müəyyənləşdirir. Risklərin qiymətləndirilməsi zamanı Hesablama Palatası Kollegiyasının 20 may 2019-cu il tarixli Q-80 nömrəli "Kənar dövlət maliyyə nəzarəti tədbirlərinin planlaşdırılması prosesində risklərin müəyyən edilməsi üzrə Tövsiyələr" və 19 iyul 2023-cü il tarixli 2-3/3-2-98/2023 nömrəli Qərarı ilə təsdiq edilmiş "Risklərin idarəedilməsi" Təlimatından istifadə edilir. Dövlət vəsaitlərinin izafi və ya əsassız istifadəsi, şəffaf olmayan əməliyyatlar və qanunvericiliyin pozulması halları müşahidə edildikdə, əgər bu hallar cinayət tərkibinin əlamətlərinə malikdirsə, müvafiq materiallar aidiyyəti hüquq mühafizə və nəzarət orqanlarına təqdim olunur. Son iki il ərzində – 2023-cü ildə 9 hal və 2024-cü ildə 4 hal olmaqla ümumilikdə 13 nəzarət tədbiri üzrə materiallar Hesablama Palatasının Kollegiya Qərarına əsasən Azərbaycan Respublikasının Baş Prokurorluğuna və Dövlət Təhlükəsizlik Xidmətinə göndərilmişdir.

Beləliklə, Palata yalnız audit funksiyasını yerinə yetirmir, eyni zamanda maliyyə cinayətlərinin profilaktikasına töhfə verən bir qurum kimi fəaliyyət göstərir. 2023-cü ildə hüquq-mühafizə orqanlarına göndərilmiş zərər məbləği - 13.7 mln manat, 2024-cü ildə isə - 8.7 mln manat olmuşdur. Əlavə olaraq Palata KDMN obyekti tərəfindən qanunlarda və normativ-hüquqi aktlardakı bəzi boşluqlardan sui-istifadə hallarına qarşı sənədlərin təkmilləşdirilməsi barədə hökumətə təklif və tövsiyyələrini verir,

Hesablama Palatası aparılmış auditlərin nəticələri üzrə ictimaiyyətə məlumat verir, habelə saytda yerləşdirilir, "Dövlət Auditi" jurnalında ayrı-ayrı auditlər barədə nəticələr, tövsiyyələr və təkliflər dərc olunur, Milli Məclis və digər müvafiq orqanlara məlumat verilir ki, bu da korrupsiya hallarının qarşısının alınmasında profilaktik və çəkindirici rol oynayır.

Nümunə olaraq, satınalan təşkilat tərəfindən həyata keçirilmiş satınalmanı misal göstərmək olar. Məsələn, bir təşkilat tərəfindən malın(iş,xidmət) əldə edilməsi məqsədilə təchizatçı şirkətə ödəniş edilməyinə və sənədləşmənin həyata keçirilməsinə baxmayaraq, mal(iş,xidmət) təqdim edilməməsi əlavə araşdırma zərurətini yaradır.

Eyni zamanda, Palata qeyd edilən mövzu üzrə yerli və beynəlxalq əməkdaşlığa xüsusi önəm verir. 2024-cü ildə Baş Prokurorluq və Hesablama Palatası arasında əməkdaşlığa dair memorandum imzalanmışdır. Bu memorandum münasibətlərin yeni mərhələyə keçidini təmin etməklə, tərəflər arasında dövlət maliyyəsi sahəsində korrupsiyaya, iqtisadi və maliyyə xarakterli cinayətlərə qarşı mübarizədə əhəmiyyətli töhfələr verəcəkdir. Memorandum çərçivəsində müxtəlif təlim proqramlarının həyata keçirilməsi hədəf kimi müəyyənləşdirilmiş və Baş Prokurorluğun Elm-Tədris Mərkəzi ilə Hesablama Palatası arasında əməkdaşlıq haqqında protokol imzalanmışdır.

Hesablama Palatası INTOSAI, EUROSAI və ASOSAI kimi beynəlxalq qurumlarla əməkdaşlıq edir, bu istiqamətdə təcrübə mübadiləsində fəal iştirak edir və metodoloji yenilikləri fəaliyyətində tətbiq etməyə çalışır. Bu, audit strategiyalarının və risk əsaslı yanaşmaların daha da təkmilləşdirilməsinə imkan yaradır. INTOSAI (Beynəlxalq Ali Audit Orqanları Təşkilatı) və onun audit standartları toplusu olan ISSAI çərçivəsində çirkli pulların yuyulması (AML – Anti-Money Laundering) və terrorçuluğun maliyyələşdirilməsi (CFT – Countering the Financing of Terrorism) ilə bağlı dolayı şəkildə bu riskləri əhatə edən prinsiplər və tövsiyələr mövcuddur.

**Ali Audit Qurumlarının beynəlxalq təşkilatının GUID 5270 Təlimatı** – Korrupsiyanın Qarşısının Alınması üzrə Audit üzrə Təlimatından istifadə edilir. Bu sənəd dövlət qurumlarında korrupsiyanın qarşısının alınması siyasətlərinin və prosedurlarının auditində yardım məqsədi ilə hazırlanmışdır. Sənəd bu təşkilatlarda antikorrupsiya siyasətlərini, strukturlarını və proseslərini əhatə edir və auditorlar üçün audit aləti kimi istifadə oluna bilər. Eyni zamanda, auditi aparılan qurumlar (məsələn, dövlət idarələri, təşkilatlar və s.) tərəfindən öz antikorrupsiya fəaliyyətlərinin həyata keçirilməsində bələdçi kimi istifadə oluna bilər. Təlimatda dövlət təşkilatlarında mövcud olan antikorrupsiya strukturları və prosedurlarının əsas sahələri əhatə olunur. Buraya antikorrupsiya strukturlarının yaradılması, risklərin qiymətləndirilməsi yanaşmaları, təhlil və monitorinq mexanizmləri daxildir. Əsas diqqət effektiv antikorrupsiya təşkilatı üçün vacib olan elementlərə, məsələn, vəzifələrin dəqiq ayrılması, rotasiya siyasəti, daxili nəzarətin rolu, insan kapitalının idarə olunması, işçilərin maarifləndirilməsi və təliminə yönəldilir.

Ali audit qurumlarının korrupsiyaya qarşı mübarizədə ən vacib funksiyalarından biri onların ictimai institutları – milli bütövlük sisteminin sütunlarını – gücləndirmək istiqamətində gördüyü işlərdir. Dövlət orqanı öz səlahiyyətləri çərçivəsində milli dürüstlük sistemini dəstəkləyən dayaqlardan biri kimi çıxış edir. Belə sistemin əsasları şəffaflıq, dürüstlük və hesabatlılıqdır. Nəzərə alaq ki, korrupsiyanı aşkarlamaqdan daha effektiv yol onun qarşısının alınmasıdır, bu səbəbdən AAO-nun fəaliyyəti çoxşaxəli olmaqla aşağıdakılardan ibarət ola bilər.

- Korrupsiya və sui-istifadə hallarını müntəzəm audit fəaliyyətlərinə daxil etmək.
- Audit nəticələrinin vaxtında, ictimaiyyətə açıq şəkildə yayılması ilə ictimai maarifləndirməni artırmaq.
- Korrupsiya və digər pozuntulara qarşı mübarizə alətlərini və metodlarını təkmilləşdirmək.
- Pozuntularla bağlı məlumat verənlər üçün mexanizm yaratmaq.
- Korrupsiyaya qarşı mübarizə aparan digər qurumlarla əməkdaşlıq etmək.

Bəzi ölkələrdə, o cümlədən Azərbaycanda AAO-lar hüquq-mühafizə orqanlarının səlahiyyətlərinə malik deyil. Lakin audit zamanı korrupsiyaya dair əsaslı şübhələr aşkar edildikdə, bu hallar müvafiq istintaq orqanlarına yönləndirilməlidir. Bəzi hallarda AAO əməkdaşları məhkəmə istintaqında şahid kimi çıxış edə bilərlər. AAO-nun korrupsiya və digər pozuntuların aşkarlanmasında səmərəliliyi onun strategiyasından asılıdır. Bu səbəbdən metodologiyalar mütəmadi olaraq təkmilləşdirilməli, işçilərin peşəkarlığı və ixtisası artırılmalıdır. Uğur təkcə audit alətləri və prosedurlarına deyil, həm də insan resurslarının bacarıq və biliklərinə əsaslanır. AAO həmçinin işçilərində fərdi dürüstlük prinsiplərinə sadiqlik formalaşdırmalıdır. Bununla əlaqədar olaraq, əməkdaşlar arasında mütəmadi treninqlər keçirilir, maraqlar toqquşması hallarının qarşısı alınır və etik bəyanın imzalanması vasitəsilə auditin şəffaf aparılması barədə öhdəlik götürülür.

Eyni zamanda, AAO pozuntular barədə məlumat verən şəxslər üçün təhlükəsiz mexanizm təqdim etməlidir. Bir çox AAO-da bunun üçün qaynar xəttlər və onlayn sistemlər mövcuddur.

Əlavə olaraq bildirmək lazımdır ki, ali audit orqanlarının korrupsiya və çirkli pulların yuyulması ilə mübarizədə fəaliyyətlərini dəstəkləmək məqsədilə 2007-ci ildə Venesiya şəhərində işçi Qrup (WGFACML) yəni, Working Group on the Fight Against Corruption and Money Laundering təsis edilmişdir. Bu işçi Qrup üzvləri açıqlığın artırılması və vətəndaş cəmiyyəti ilə əməkdaşlığın gücləndirilməsi üzrə bir sıra təşəbbüslər etmişlər. Belə ki, Rusiya SAI-nin uğurlu antikorrupsiya təcrübələrinin işlənib hazırlanması, sistemləşdirilməsi və yayılması, habelə korrupsiyaya qarşı mübarizə aparan işçilər üçün maarifləndirici tədbirlərin keçirilməsi ilə bağlı fəaliyyəti ilə dəstəklənir. 2023-cü ildə Rusiya Ədliyyə Nazirliyi Korrupsiya Riskinin Müəyyənləşdirilməsi və Qiymətləndirilməsi üçün Təlimat hazırlamışdır. Sənəd təkcə korrupsiya komponenti olan pozuntuların müəyyən

edilməsinə deyil, həm də audit obyektində bütün korrupsiya risklərinin idarə edilməsi sisteminin təhlilinə yönəldilmişdir.

İşçi qrupun digər üzvü Braziliya SAI tərəfindən Korrupsiya və çirkli pulların yuyulmasına qarşı Mübarizə üzrə Milli Strategiya formalaşdırılmışdır. Proqram ictimai təşkilatların bütün menecerlərinə yönəldilmişdir və Braziliyada fırıldaqçılıq, korrupsiya səviyyəsini inkişaf etmiş ölkələrlə eyni səviyyəyə endirmək məqsədi daşıyır. Davamlı onlayn özünəxidmət platforması vasitəsilə menecer uğursuzluqlara aşkar edərək öz müəssisəsini qiymətləndirmək imkanı əldə edir. Proqram korrupsiyaya nəzarət mexanizmlərinin həyata keçirilməsi üçün əlavə təlimat, təlim və modeller təklif edir.

**Ali Audit Qurumlarının beynəlxalq təşkilatının INTOSAI-P 20 – Şəffaflıq və Hesabatlılıq Prinsipləri.**

Bu sənəd ali audit orqanlarının şəffaflıq və hesabatlılıq prinsiplərini müəyyən edir. Burada qeyd olunur ki, audit orqanları yüksək etik və dürüstlük standartlarına riayət etməli və dövlət vəsaitlərinin qanunauyğun, səmərəli və məqsədəuyğun istifadəsini təmin etməlidirlər. Bu prinsiplər, maliyyə cinayətlərinin, o cümlədən çirkli pulların yuyulması risklərinin qarşısının alınmasına yönəldilmişdir. Əlavə olaraq Azərbaycan Respublikası Hesablama Palatası Kollegiyasının 2018-ci il 7 dekabr tarixli Q-152 nömrəli Qərarı ilə təsdiq edilmiş Hesablama Palatası tərəfindən kənar dövlət maliyyə nəzarəti tədbirlərinə hazırlıq, kənar dövlət maliyyə nəzarəti tədbirlərinin keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsi **Qaydaları**nın 10-cu maddəsinə əsasən nəzarət tədbirini obyektiv, qərəzsiz, vaxtında və keyfiyyətlə yerinə yetirmək, nəzarət tədbiri üzrə təqdim olunmuş və ya topladığı (əldə etdiyi) sənədlərin qorunmasını təmin etmək, nəzarət tədbirinə rəhbərlik edən auditorun tapşırıq və göstərişlərinə əməl etmək qrup üzvlərinin səlahiyyət və vəzifələrinə aid edilmişdir.

**Ali Audit Qurumlarının beynəlxalq təşkilatının ISSAI 100 standartı – Dövlət sektorunda auditinin əsas prinsipləri.**

ISSAI 100 – Audit üçün fundamental prinsipləri özündə birləşdirir. Bu sənəddə qeyd olunur ki, ali audit orqanları audit fəaliyyətində risk əsaslı yanaşma tətbiq etməli, qanunsuz əməliyyatlar və sui-istifadə hallarını aşkar etmək üçün nəzərəçarpacaq audit sübutları toplamalı, şəffaflıq və hesabatlılıq üçün tövsiyələr verməlidirlər. Bu çərçivədə, çirkli pulların yuyulması ilə bağlı risklər yüksək maliyyə riskləri kimi qiymətləndirilə və audit planlaşdırılmasında nəzərə alına bilər.

Nəticə etibarilə, Hesablama Palatası dövlət maliyyəsinin düzgün idarə olunmasını təmin etməklə, qanunsuz maliyyə axınlarının istifadəsinin qarşısını alır, bu isə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı sistemli mübarizənin mühüm tərkib hissəsidir. Onun audit nəticələri təkcə maliyyə intizamının təmin olunmasına deyil, eyni zamanda milli təhlükəsizliyin qorunmasına da xidmət edir.




pwc
EY
ANR
BDO
KPMG
TIMP
AUDIT REPORTING
Fairmont


(BEYNƏLXALQ ELMİ-PRAKTİK KONFRANS)
Bakı, 23-24 may 2025-ci il
"Roles, Duties and Responsibilities of Supervisory Authorities in Combating the Legalization of Criminally Obtained Property and Financing of Terrorism"
(INTERNATIONAL SCIENTIFIC-PRACTICAL CONFERENCE)
Baku, 23-24 May, 2025
Xarici tərəfdaşların dəstəyi ilə / With the support of international partners
Maliyyə Monitorinqi Xidməti
Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti
Financial Monitoring Service of the Republic of Azerbaijan
Auditorlar Palatası
Chamber of Auditors of
Gümüş sponsorlar / Silver sponsors
Gold sponsors
ICAP
TÜRMOB
LZRA
pwc
HIMMARA
EY Building a better working world
Deloitte.
ANR AUDIT
BDO
KPMG
AAK
TIMP
INVEST FINANCE
Yaşar Abbasov / Independent Auditor - Yashar Abbasov
AUDIT REPOR

"Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə nəzarət orqanlarının rolu, vəzifələri və məsuliyyəti"
(BEYNƏLXALQ ELMİ-PRAKTİK KONFRANS)
Bakı, 23-24 may 2025-ci il
"Roles, Duties and Responsibilities of Supervisory Authorities in Combating the Legalization of Criminally Obtained Property and Financing of Terrorism"
(INTERNATIONAL SCIENTIFIC-PRACTICAL CONFERENCE)
Baku, 23-24 May, 2025
Azərbaycan Respublikasının Auditorlar Palatası
Chamber of Auditors of the Republic of Azerbaijan
Maliyyə Monitorinqi Xidməti
Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti
Financial Monitoring Service of the Republic of Azerbaijan
Xarici tərəfdaşların dəstəyi ilə / With the support of international partners
Qızıl sponsorlar / Gold sponsors
Gümüş sponsorlar / Silver sponsors
ICAP
TÜRMOB
LZRA
pwc
HIMMARA
Deloitte.
ANR AUDIT

*Latviyanın Sertifikatlı Auditorlar Assosiasiyasının (LZRA) üzvü,*
*ƏL/TMM üzrə mütəxəssis*

***Kiril KONDRATOVS***

# The Role of Sworn Auditors in Combating Money Laundering, Terrorist Financing and Sanctions

**Kirils Kondratovs**

Sworn Auditor
ACAMS Certified AML Specialist
Certified Tax Consultant
Member of LZRA AML/CTF committee

1

# AGENDA

I. Role of Sworn Auditors
II. Terminology
III. International Regulation, Guidelines & Methodology
IV. Auditor's practice level
  - Revision of Internal Quality System
  - Customer Acceptance Procedure amendment
  - Task Acceptance amendment
  - Impact on Audit engagement process
  - Staff Learning
  - Regular review of regulatory documents

2

# I. ROLE OF SWORN AUDITORS IN AML/CTF AND SANCTION RESILIENCE




3

# II. TERMINOLOGY

- Anti-Money Laundering (AML)
  - – Converting illegal funds into legal assets
  - – Concealing the illegal source of funds
  - – Possessing criminal proceeds
  - – Aiding others in avoiding justice
- Countering the Financing of Terrorism (CFT)
  - – Funding terrorism or WMD proliferation
  - – Direct or indirect fund transfers
  - – Even small amounts can pose serious threats

Procedures affected:

- IQS – Internal Quality System
- CDD – Customer Due Diligence
- ECDD – Enhanced Customer Due Diligence
- PeP – Politically Exposed Person Identification
- KYP - Know Your Partner

4

# III. INTERNATIONAL REGULATIONS, GUIDELINES & METHODOLOGY

- EU AML Directives & regulations:

  EU 2015/849 Directive: Directive - 2015/849 - EN - aml directive - EUR-Lex
  EU 2018/843 Directive: Directive - 2018/843 - EN - aml directive - EUR-Lex
  EU High risk countries: Delegated regulation - 2020/855 - EN - EUR-Lex

- FATF Recommendations & Guidelines:

  High-Risk Jurisdictions subject to a Call for Action - 21 February 2025
  Jurisdictions under Increased Monitoring - 21 February 2025
  FATF Guidance on AML/CFT measures and financial inclusion, with a supplement on customer due diligence
  FATF Guidance for a Risk-Based Approach for the Accounting Profession

5

# IV. HARMONIZATION OF AUDITOR'S PRACTICE: ROADMAP

- Each Auditor's practice needs to perform:
  - Implementation of Internal Quality System in accordance with IAASB ISQM 1 Standard [1]
  - Amendment of Customer Acceptance procedure
  - Amendment of Task Acceptance procedure
  - Consider specific AML/CTF risks during audit engagement process
  - Regular staff learning and testing
  - Regular review of practice internal & regulatory documents

*1 International Standard on Quality Management (ISQM) 1, Quality Management for Firms that Perform Audits or Reviews of Financial Statements, or Other Assurance or Related Services Engagements*

6

# INTERNAL CONTROL SYSTEM (ICS) AND CUSTOMER DUE DILIGENCE (CDD)

📌 ICS must be based on a risk assessment tailored to business activities and risks.

- Risk-based approach **both for customer and audit engagement acceptance**
- Set of procedures to mitigate possible risks
- Updated on regular basis to cope with AML/CTF risks

✅ ICS must include procedures for:

- Customer risk assessment and monitoring
- CDD and identification of suspicious transactions
- Reporting to FIU, data retention, employee training
- Independent audits ("cold" checks) and whistleblowing (if 50+ employees)

7

# CUSTOMER ACCEPTANCE PROCEDURE AMENDMENT

📌 CDD is required:

- Prior to establishing business relationships
- When high-value transactions or suspicious activity are identified
- When management and/or UBO structure has become obsolete

📌 CDD scope:

- UBO – Ultimate Beneficial Owner
- Decision Making Unit
- Media information

📌 ECDD is required:

- When PeP is identified
- When AML/CTF risks cannot be mitigated below immaterial threshold
- When business activity is performed in the industry with significant risk (according to FIU guidelines)

📌 ECDD scope:

- Source of wealth (Origins of UBO funds)
- PeP – Politically Exposed Person
- Thorough business transaction analysis

8

# CUSTOMER ACCEPTANCE PROCEDURE AMENDMENT

📌 Client AML/CFT and sanctions risk assessments must be holistic, covering legal, geographic, service, and delivery dimensions.

✅ Most valuable insights come from **non-public, client-provided information**.
✅ Questionnaires should be **designed to extract detailed, specific risk factors:**
- UBO check
- Company check
- Business activity check

✅ High-risk indicators **require enhanced due diligence and documentation**.

✅ Understanding **geographic and sectoral exposure** is critical for sanctions compliance.

9

# CLIENT AML/CFT RISKS – KEY CATEGORIES

📌 **Four Risk Categories to Assess** During Client Due Diligence:

✅ **Client Risk**
Legal form, ownership structure, nature of business or personal activities of the client or beneficial owner.

✅ **Geographical Risk**
Connection to countries or regions with high ML/TF/PF risks due to economic, legal, or political conditions.

✅ **Product/Service Risk**
Risk of misuse of the institution's products or services for ML/TF/PF purposes.

✅ **Delivery Channel Risk**
How the client accesses or uses services (e.g., non-face-to-face, intermediaries).

🛡 Due diligence questionnaires must gather sufficient information across all four categories to support accurate risk assessments.

10

# CLIENT AND GEOGRAPHIC RISK FACTORS

✅ **Client-Related High-Risk Indicators:**

- Complex or opaque ownership structures.
- Use of bearer shares or trusts.
- Entities with unrelated or foreign economic activity.
- Large or unusual cash transactions.
- Payments from unknown third parties or offshore institutions.
- Clients avoiding direct contact or operating through intermediaries.

✅ **Geographical Risk Indicators:**

- Links to high-risk or sanctioned jurisdictions (e.g., FATF lists, OFAC, EC Delegated Regulation 2022/229).
- Countries with high corruption, low AML enforcement, or tax havens.

11

# PRODUCT, CHANNEL RISK FACTORS

✅ **Product/Service Risk Indicators:**

- Use of private banking or anonymous/encrypted services.
- Use of novel, untested technologies or services.

✅ **Delivery Channel Risk Indicators:**

- Non-face-to-face onboarding without legal exception.
- Remote-only interactions.
- Frequent use of intermediaries without clear economic rationale.

12

# SANCTIONS RISK FACTORS

✅ **Sanctions Risk Indicators:**

- History of sanctions breaches or attempts.
- Business in dual-use or strategic goods.
- Trade or tourism with sanctioned countries or neighbors.
- Activities involving restricted sectors (e.g., concrete, electronics).

🛡 **If elevated sanctions risk is identified:**

- Perform ECDD
- Gather transaction details and documentation.
- Verify counterparties and beneficial owners.
- Check goods and routes against sanctions lists.

13

# TASK ACCEPTANCE PROCEDURE AMENDMENT

✅ Main risks (red flags) that needs to be taken into consideration (FIU AML typology):

- KYP procedures for business partners of our Customer:
    - off-shores
    - Shell companies
    - Professional Service Providers
- Business activity
    - Deals without reasonable economic substance and other trade-based money laundering
    - Unusual real estate activity
    - Cross-border activity
    - Assignments
- Crypto Assets & NFTs
- Sanctions bypass and/or evasion

14

# IMPACT ON AUDIT ENGAGEMENT PROCESS




15

# STAFF LEARNING & TESTING

✅ Monitor AML/CTF legislation changes -> disseminate information -> implement into ICS and/or procedures

✅ Internal employee training to be performed on regular basis

✅Test employee's abilities to:

- identify AML/CTF risks
- apply defined set of procedures to mitigate identified risks
- issue & document an alert notification (if required)

16

# CHECK LIST OF AML CONTROL ENGAGEMENT

List of control questions for Audit practice (internal QA):

- whether Audit practice has IQS, and updated on regular basis to cope with AML/TF risks
- how Audit practice documents and performs KYC procedure and defines sectoral risk level for each customer
- whether Audit practice performs internal employee trainings on regular basis
- how Audit practice is investigating and documenting suspicious operations cases
- how Audit practice is investigating and documenting violations of Sanctions Law
- how Audit practice records alert notifications for FIU
- how Audit practice has documented cases when customer has not been accepted or business relationship with customer has been terminated due to inability to perform KYC procedure

17

# AML/CFT RISKS AND SANCTIONS COMPLIANCE RED FLAGS II

🔵 Sanctions Compliance Overview:

Types:
🎯 Targeted Financial Sanctions – Freeze assets, restrict access
🏭 Sectoral Sanctions – Trade restrictions on goods/services

In Latvia, the following are binding:
LV National sanctions
UN UN sanctions
EU EU sanctions

⚠️ Non-binding but impactful:
US US OFAC sanctions (reputation & access risks)
GB UK sanctions (used as early warnings)

🛑 Example Red Flags of Violations:
– Change of trade partners to bypass Russia sanctions
– Business links to sanctioned Russian group via offshore structures

18

## AML/CFT RISKS AND SANCTIONS COMPLIANCE RED FLAGS I

🔴 **AML Risk Scenarios:**
– Undeclared foreign payments to politically exposed persons
– Real estate acquisitions tied to unclear funding
– Large cash injections from individuals with no financial explanation

🔴 **Terrorism Financing Indicators:**
– Regular donations to opaque charities linked to hostage aid
– Funds sent to unknown persons from high-risk countries

19

## WHO MUST DEVELOP AN INTERNAL CONTROL SYSTEM (ICS)?

📌 Entities required to establish an ICS and conduct CDD include:

- Credit and financial institutions (incl. crypto providers)
- Accountants, **auditors**, tax advisors
- Notaries, lawyers (in specific transactions)
- Providers of legal entity setup/registered office services
- Real estate agents, gambling operators, cash-in-transit services
- High-value traders (cash ≥ €10,000), art/antique dealers
- Debt collection agencies

✅ Exception: Intra-group services do not trigger AML/CFT obligations.

20

# CONTACTS

**Kirils Kondratovs**

Sworn Auditor
ACAMS Certified AML Specialist
Certified Tax Consultant
Member of LZRA AML/CTF committee

+371 29 231 204
kko@corvusfirm.com

21

***Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Mütəxəssis təhlilləri şöbəsinin rəis müavini***

***Tural VƏLİBƏYOV***

**Tədbir.** Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə nəzarət orqanlarının rolu, vəzifələri və məsuliyyəti.

**Mövzu.** Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması cinayətlərinin istintaqı zamanı maliyyə təhlili məlumatlarından istifadə edilməsi təcrübəsinin genişləndirilməsi, bu məlumatlara olan ehtiyacların təhlil edilməsi və mütərəqqi çağırışlara yönələn tədbirlərin həyata keçirilməsi üçün təkliflər.

**Məruzəçi.** Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş idarəsinin Mütəxəssis təhlilləri şöbəsinin rəis müavini, ədliyyə müşaviri Vəlibəyov Tural Mehman oğlu

İqtisadiyyat inkişaf etdikcə və dünya təsərrüfat sisteminə inteqrasiyası gücləndikcə iqtisadi-maliyyə münasibətlərində şəffaflığın təmin olunmasında, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə maliyyə nəzarəti qurumlarının, auditin imkanlarından daha geniş istifadə etmək zərurəti yaranmışdır.

Özəl sektorun iqtisadiyyatımızda çəkisinin artdığı, dövlətin sosial-iqtisadi siyasətinin yeni imkanlar yaratdığı, mülkiyyət və təsərrüfatçılıq formalarının müxtəlifliyinin geniş vüsət aldığı bir dövrdə maliyyə nəzarətinin müxtəlif formaları arasında əlaqələrin düzgün müəyyən edilməsi, səlahiyyət bölgüsünün dəqiqləşdirilməsi, qabaqlayıcı tədbirlərin görülməsi, risk əsaslı təhlillərin aparılması Respublikamızda həyata keçirilən islahatların müsbət nəticələr verməsinə, iqtisadi təhlükəsizliyin təmin edilməsinə, iqtisadi nəzarət mexanizmlərinin işləməsinə şərait yaratmışdır.

İqtisadi sahədə dövlətin tənzimləyici funksiyasının effektiv həyata keçirilməsi maliyyə resurslarının düzgün idarə edilməsi, səmərəli və effektiv istifadəsi, eyni zamanda, maliyyə pozuntularının vaxtında aşkar edilməsini, aradan qaldırılmasını və gələcəkdə bu nöqsanların qarşısının alınmasını ehtiva edir.

Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi cinayətlərinin aşkar edilməsi, onların dairəsinin tam müəyyən edilməsi, cinayət törətmiş şəxslərin əməllərinə əsaslı və obyektiv hüquqi qiymət verilməsi üçün maliyyə nəzarəti qurumlarının yoxlamaları sübutların toplanmasında mühüm rol oynayır, istintaqı istiqamətləndirir.

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 fevral tarixli Sərəncam ilə qəbul edilmiş "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı" əsasında Baş prokurorun 2024-cü il 01 fevral tarixli, 150/48 nömrəli əmri ilə təsdiq edilmiş Azərbaycan Respublikası Prokurorluğunun 2024-cü il üzrə İş Planında göstərilmiş tədbirin icrası ilə əlaqədar aparılmış təhlillərlə Baş İdarənin struktur qurumları və ya digər prokurorluq orqanları, habelə bilavasitə və ya dolayısı ilə əlaqəli fəaliyyət göstərən maliyyə nəzarətini həyata keçirən digər dövlət orqanları, kənar maliyyə nəzarəti orqanları ilə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması cinayətlərinin ilkin araşdırılması və ibtidai istintaqı prosesində maliyyə məlumatlarının əldə edilməsi, toplanması, düzgün təhlil olunaraq istifadə edilməsi, məlumat mübadiləsində operativliyin təmin edilməsi, yeni araşdırma metodlarının yaradılması, bu sahədə olan problemlər və onların həlli yollarının müəyyən edilməsində əməkdaşlığın inkişaf etdirilməsinə baxmayaraq, günün tələbləri səviyyəsində olmadığı, hələ də bəzi münasibətlərin tənzimlənməsində zəifliklərin olduğu müəyyən edilmişdir.

Məlumat üçün bildirilir ki, Baş İdarədə 2023-2024-cü illər ərzində ümumilikdə bu növ cinayətlərlə bağlı 24 cinayət işi üzrə ibtidai istintaq aparılmışdır. Azərbaycan Respublikası CM-in 193-1-ci maddəsi ilə istintaq olunmuş 19 cinayət işi üzrə 28 şəxsə ittiham elan edilmişdir. Hazırda isə Azərbaycan Respublikası CM-in 193-1-ci maddəsi ilə 11 cinayət işi üzrə ibtidai istintaq davam etdirilir.

2023-cü ilə münasibətdə 2024-cü ildə ibtidai istintaqı tamamlanaraq məhkəməyə göndərilmiş cinayət işlərinin sayında artım müşahidə edilmişdir.

| S/s | **Cinayətlərin təsnifatı üzrə (CM-nin maddəsi)** | 2023-cü il üzrə | | 2024-cü il üzrə | |
|---|---|---|---|---|---|
| | | İş | Şəxs | İş | Şəxs |
| 1 | **Cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırma mad.(193-1)** | 5 | 7 | 14 | 21 |

Bundan əlavə müəyyən edilmişdir ki, 2023-cü ildə istintaqı tamamlanmış cinayət işləri üzrə dövlətə dəymiş 17.834.430 manat məbləğində ziyandan 4.702.351 manat məbləğində pul vəsaitinin ödənilməsi təmin edilmiş, 11.517.470 manat dəyərində əmlak üzərinə müvafiq məhkəmənin qərarı ilə həbs qoyulmuş, cinayət işləri üzrə xüsusi mülkiyyətə dəymiş 14.844.059 manat məbləğində ziyandan 2.055.000 manat məbləğində pul vəsaitinin ödənilməsi təmin edilmiş, 28.016.000 manat dəyərində əmlak üzərinə müvafiq məhkəmənin qərarı ilə həbs qoyulmuş, ümumilikdə 32.678.489 manat məbləğində dəymiş ziyandan 6.757.351 manat məbləğində pul vəsaiti ödənilmiş, 39.533.470 manat dəyərində əmlak üzərinə həbs qoyulmuşdur.

2024-cü ildə istintaqı tamamlanmış cinayət işləri üzrə dövlətə dəymiş 27.558.403 manat məbləğində ziyandan 1.100.724 manat məbləğində pul vəsaitinin ödənilməsi təmin edilmiş, 13.698.662 manat dəyərində əmlak üzərinə müvafiq məhkəmənin qərarı ilə həbs qoyulması təmin edilmişdir.

İstintaq və maliyyə araşdırmaları ilə müəyyən olunmuşdur ki, əsasən rəsmi sənədlərə və informasiya resurslarına bilə-bilə yalan məlumatlar əlavə etməklə, mənimsənilən vəsaitlərin izini gizlətmək və leqallaşdırmaq məqsədilə müxtəlif mürəkkəb maliyyə əməliyyatları həyata keçirilmişdir.

Leqallaşdırma cinayətləri istintaq təcrübələrinə əsasən dövlət büdcəsindən müxtəlif idarə, müəssisə və təşkilatlara ayrılmış ayrılmış vəsaitlərin işlərin görülməsi və xidmətlərin görülməsi adı altında həmin iş və xidmətlərin dəyəri şişirdilməklə formal olaraq yaradılmış kommersiya hüquqi şəxslərə pul vəsaitinin köçürülməklə, sonradan əldə edilmiş pul vəsaitlərinin həqiqi mənbəyinin gizlədilməsi üçün müxtəlif maliyyə əməliyyatlarının aparılması ilə xarakterizə olunur. Qeyd edilən üsul leqallaşdırma cinayətlərinin daha çox rastlandığı üsuldur.

Bundan başqa, araşdırılmış materialların təhlili nəticəsində aydın olmuşdur ki, hüquqi şəxslərin fəaliyyətində nominal direktor və payçılardan istifadə halları müntəzəm olaraq rast gəlinir. Belə ki, hüquqi şəxsin real, faktiki təsisçisinin adına deyil, uydurma şəxsin adına təsis edilməsi və sonuncunun formal rəhbərliyi həyata keçirməsi, sənədləşmələrdə real rəhbərin adının əks olunmaması və nəticədə onun məsuliyyətdən kənarda qalmasına arxayınçılıq hissinin yaranması hüquqi şəxslərdən əmlakın leqallaşdırılması məqsədilə istifadə hallarının artmasına gətirib çıxarır.

Hüquqi şəxslərin “çirkli” əmlakın ilkin mənbəyinin gizlədilməsi məqsədilə ən çox istifadə edildiyi iqtisadi sektorlara ticarət, tikinti və daşınmaz əmlakın dövriyyəsi ilə bağlı sahələri aid etmək olar. Şübhəli maliyyə əməliyyatları bank hesabları üzərindən, daha sonra isə daşınmaz əmlakla bağlı icra olunan əməliyyatlar vasitəsilə həyata keçirilir və real fəaliyyəti, şəxsi aktivləri olmayan, “uydurma” hüquqi şəxslər təsis edilməsi metodundan geniş istifadə edilir. Araşdırılan materiallar üzrə demək olar ki, bütün hallarda “Şel” şirkətlərdən istifadə edilmişdir.

Qeyd edilənlərdən əlavə olaraq, Maliyyə Monitorinqi Xidmətindən daxil olmuş məlumatlar əsasında aparılmış araşdırmalar zamanı dövlət satınalmalarının Azərbaycanın ictimai maliyyə sisteminin ən zəif yerlərindən biri olduğu müəyyən edilmişdir. Böyük həcmdə vəsaitlər həm hökumətin sərəncamında olan büdcəni, həm də dövlət şirkətlərinin maliyyə resurslarını davamlı risklərə məruz qoyur.

Aparılmış araşdırmalar zamanı ən çox rast gəlinən hallardan biri də maliyyə sisteminə daxil edilən cinayət yolu ilə əldə edilmiş nağd vəsaitin təsbit edilməməsi üçün kiçik hissələrə bölünərək banklara qanuni yolla əldə edilmiş kimi göstərilərək transfer edilməyə çalışılmasıdır. Bu hal daxildə, həm də xarici ölkələrə pulların transver edilməsini əhatə edir ki, nəticədə həmin vəsaitlərin izinin tapılması çətinləşir. Ona görə də bu cinayətlərin artıq qloballaşması və transmilli xarakter daşıması ölkələr arasında iş birliyini və ortaq hərəkətetməni tələb edir. Çünki informasiya texnologiyalarının inkişafı və

elektron pul vəsaitləri cinayət yolu ilə əldə edilmiş vəsaitlərin rahatlıqla fərqli ölkələrin maliyyə sistemlərində dolaşmasına kömək edə bilir.

Aparılmış təhlillərlə cinayət əməllərinin aşağıdakı mərhələlərlə törədilməsi müəyyən edilmişdir.

 Vəsaitlərin yerləşdirilməsi – cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin ilkin qanunsuz mənbədən ayrılması və maliyyə sisteminə daxil edilməsi prosesidir.

 Mürəkkəb maliyyə əməliyyatları – maliyyə sistemində pulun mürəkkəb əməliyyat şəbəkələri vasitəsilə, çox vaxt "saxta" şirkətlər və hesablar vasitəsilə hərəkətidir.

 İnteqrasiya – cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin daşınmaz əmlaka investisiya kimi fəaliyyətlər vasitəsilə iqtisadiyyata daxil edilməsi prosesi. (vəsaitlərin qanuni iqtisadiyyata daxil edilməsidir).

Müsbət hal kimi qiymətləndirilməlidir ki, Maliyyə Monitorinqi Xidmətindən daxil olmuş məlumatlar üzrə toplanmış materiallar əsasında Azərbaycan Respublikası CM-in 193-1-ci maddəsi (həm müstəqil şəkildə 193-1-ci maddə, həm də CM-in digər maddələri ilə birlikdə məcmu qaydasında) 2023-cü ildə 8, 2024-cü ildə isə 5 cinayət işi (əlavə olaraq 1 cinayət işi MMX-dan daxil olmuş material əsasında CM-in 244-1-ci maddəsi ilə) başlanılmaqla istintaqı aparılmışdır.

2024-cü il ərzində Baş Prokurorluğun istintaq və araşdırma aparmaq səlahiyyətinə malik olan qurumları tərəfindən maliyyə yoxlamasının aparılması məqsədi ilə Mütəxəssis təhlilləri şöbəsinə daxil olmuş 80 qərar icra edilərək mütəxəssis rəyi verilmişdir. Mütəxəssis araşdırmalarının nəticələrinin 24-ü sahibkarlıq subyektlərinin təsərrüfat fəaliyyəti, 13-ü dövlət büdcəsindən ayrılmış vəsaitlərin istifadəsi, 12-i vergi və rüsumlar, 7-i cinayət yolu ilə əldə edilmiş əmlakların leqallaşdırılması, 5-i tikinti, 5-i təhsil, 5-i səhiyyə, 4-ü bankların fəaliyyəti və verilmiş kreditlərin istifadəsi, 3-ü əhalinin sosial müdafiəsi, 2-i bələdiyyələrin fəaliyyəti ilə bağlı olmuşdur.

Bundan əlavə, 2024-cü il ərzində Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətindən daxil olmuş məlumatlar əsasında Baş İdarənin İstintaq idarəsindən daxil olmuş 10 qərar əsasında büdcə vəsaitinin xərc istiqamətləri ilə əlaqədar 46 dövlət müəssisəsinin, faktiki fəaliyyəti olmayan hüquqi şəxslərə pul vəsaitlərini köçürərək nağdlaşdıran 13 qeyri-dövlət müəssisəsinin fəaliyyəti yoxlanaraq müvafiq rəylər verilmişdir.

Aparılmış araşdırmalar zamanı cinayət yolu ilə əldə edilmiş əmlakların leqallaşdırılması cinayətlərinin operativ, tam və obyektiv istintaqı və araşdırılmasında hələ də aşağıda qeyd olunan problemlərin olduğu müəyyən edilmişdir.

Maliyyə təhqiqatı orqanlarına məlumatı mübadilə etmək imkanını verən mexanizmlərin hələ də tam formalaşmaması və ya təhlükəsizlik tədbirləri adı ilə əldə edilməsinin çətin olması, habelə mərkəzləşdirilmiş milli bank reyestrlərinin və ödəniş hesabları reyestrlərinin və yaxud məlumatların axtarılmasının mərkəzləşdirilmiş sistemlərinin yaradılmaması operativ hərəkət etmək imkanlarını aradan qaldırır.

Təhlillərlə müəyyən edilmişdir ki, bəzi hallarda nəzarət orqanları tərəfindən əmlakın cinayət yolu ilə əldə edilməsi riskinə malik sahələrə daha çox diqqət yönəldilmir, bu istiqamətdə risklərin vaxtaşırı və dəqiq qiymətləndirilməsi, monitorinq subyektlərinin

risk profilini formallaşdıran bütün müvafiq məlumatlara səyyar və kameral vasitəsi ilə çıxışın təmin edilməsi prosesində ləngimələr var. Belə məlumatlar milli risk qiymətləndirilməsi, yerli və beynəlxalq tipologiyalar, nəzarət təcrübəsi, habelə maliyyə monitorinqi orqanının məlumatlarından və s. olmaqla aparılmalıdır. Bunun üçün həm texniki, həm də operativ hərəkətetmə qabiliyyətinə malik sitem yaradılmalıdır. Məlumatların toplandığı vahid istemin yaradılması üçün mənbələrin istintaq materiallarından, sahələr üzrə tipoloji hesabatlardan, nəzarət orqanlarının hesabatlarından, milli səviyyədə təhdid qiymətləndirmələrindən, qarşılıqlı qiymətləndirmə hesabatlarından, hüquq mühafizə orqanlarında olan ümumi informasiyalardan ibarət olmalıdır. Lakin aparılmış araşdırmalar zamanı müəyyən edilmişdir ki, dövlət nəzarət orqanları, o cümlədən kənar maliyyə nəzarəti orqanları tərəfindən pozuntu halları müəyyən edilsə də onların yaranmasına şərait yaradan hallar çox vaxt qabardılmır və aradan qaldırılması üçün təkliflər verilmir. Ona görə də artıq yoxlamaların mahiyyəti də dəyişməlidir. Risklərin müəyyən edilməsi məqsədilə hər sahə üzrə əsaslı monitorinq sisteminin yaradılması, mübarizə tədbirlərinin təsirinin qiymətləndirilməsi, dövlət qurumlarının fəaliyyətinin monitorinq və qiymətləndirmə mexanizminin yaradılması, əsas risk ssenarilərinin hazırlanması prosesi də günün tələbləri səviyyəsində aparılmalıdır. Pozuntuların baş verməsinə şərait yaradan halların, habelə həssas sahələrin, təhdid və zəifliklərin vaxtında aşkar edilməsi üçün risk əsaslı dövrü təhlil metodologiyaları yaradılmalıdır. Həmçinin risklərin müəyyən edilməsinə köməklik göstərən əlaqəli sahələr üzrə üzləşdirmələrin aparılması qaydaları da olmadığından, habelə dövlət orqanları arasında bu sahədə əməkdaşlığın yaradılmasında əsaslı marağın olmaması prosesi zəiflədir. Bunun üçün risk amillərinin ilkin siyahısının tərtib edilməsi qaydalarının yaradılması və müvafiq dövlət orqanlarına bu amilər üzrə məlumatların vahid bazada toplanması üçün məcburi göstərişlərin verilməsi, qeyri-dövlət orqanları, xüsusilə kənar maliyyə nəzarəti orqanlarının da bu sistemə daxil edilməsi effektiv ola bilər.

Eyniləşdirmə vasitələri və verifikasiyadan banklar, Maliyə Monitorinqi Xidmətindən başqa, digər monitorinq orqanlarında mütəşəkkil formada istifadə edilməməsi və ya bunların həyata keçirilməsi üçün üsul və vasitələrin azlığı, məlumat mənbələrinə giriş imkanının zəif olması, şəxsi maraqların şübhəli halların və əməliyyatların müəyyən edilməsi üçün eyniləşdirmə aparılmasını üstələməsi səbəbindən risklər yarana bilir.

Mühasibatlıq standartlarındakı fərqliliklər xarici ticarət əlaqələrinin qurulmasında, qurulan ticarət əlaqələrində cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə əlaqədar şübhələrin müəyyən edilməsinə və ya bu cinayətlərə qarşı mübarizə aparılmasında əməkdaşlıq edilməsinə əngəl olur. Hətta xarici maliyyə quruluşları mühasibatlıq standartlarındakı fərqliliklərin sərmayə qoyuluşu üçün xarici ölkələri fikirləşməyə belə vadar etdiyini etiraf edirlər. Ona görə də beynəlxalq mühasibatlıq standartlarının yerli mühasibatlıq standartlarına uyğunlaşdırılması, nəzarət standartlarının yenilənməsi üçün beynəlxalq təcrübənin öyrənilməsi, bu məqsədlə beynəlxalq nəzarət və mühasibatlıq standartlarını hazırlayan təşkilatlarla əlaqələrin qurulması məqsədə müvafiqdir.

Ənənəvi olmayan cinayətlərin artması özündə cinayət yolu ilə əldə edilmiş əmlakların leqallaşdırılması formalarının da müxtəlifliyinin artmasına gətirib çıxarır. Xüsusilə də elə sahələr vardır ki, orada boşluqlar var, qanunvericilik müəyyən mənada həmin münasibətləri tənzimləyə bilmir və ya mübarizə üçün təcrübə formalaşmamışdır. Xüsusilə son zamanlar elektron ticarətin artması, elektron pul vahidlərinin dövriyyəsi və buna bağlı digər münasibətlərin inkişafı olsa da, müəyyən edilən cinayət əməlləri öz növbəsində bu sahədə ciddi problemlərin yarandığını, nəzarətin zəif təmin olunduğunu, eyniləşdirmə vasitələrinin işləmədiyi, beynəlxalq, transmilli xarekter daşıdığı üçün də izləməyin çətin olduğunu göstərir.

**Dövlətin iqtisadi təhlükəsizliyinin, milli maraqların, vətəndaşların hüquqlarının cinayətkar qəsdlərdən qorunması üçün maliyyə nəzarəti orqanları, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizə aparan digər dövlət orqanları ilə sıx əlaqələrin qurulması, qarşılıqlı iş vərdişlərinin yaradılması, yoxlamaların, nəzarətin səmərəliliyinin artırılması, yeni mübarizə formalarının tapılması, qarşıya qoyulmuş vəzifələrin layiqincə həyata keçirilməsi üçün aşağıdakı tədbirlər həyata keçirilməli və ya təkmiləşdirilməlidir.**

- Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması cinayətlərinin istintaqı prosesində maliyyə məlumatlarının əldə edilməsi, toplanması, düzgün təhlil olunaraq istifadə edilməsi, operativ hərəkətetmə qabiliyyətinin formalaşdırılması, məlumatlara əlçatanlığın təmini üçün asan formaların yaradılması.

- Müəssisə, idarə və təşkilatlarda qəbul edilmiş idarəetmə qərarlarının əsaslılığını və səmərəliliyini qiymətləndirmək, kənarlaşmaları və əlverişli olmayan vəziyyətləri aşkara çıxarmaqla yanaşı, fəaliyyətdə risklərin idarə olunması, aradan qaldırılması və ya azaldılması üzrə qərarların qəbul edilməsi, aşkar edilmiş kənarlaşmaların səbəb-nəticə əlaqələrini müəyyənləşdirərək, yoxlanılan obyektdə fəaliyyətin mövcud vəziyyətini yaxşılaşdırmaq üçün tövsiyə və təkliflər verməklə maliyyə nəzarəti qurumlarının və yoxlayıcıların fəaliyyətinin istiqamətləndirilməsi və genişləndirilməsi.

- Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizənin mütəşəkkil formada aparılmasında yoxlayıcıların da iştirak etməsi, bu sahədə onların peşəkar vərdişlərindən istifadə edilməsi üçün pul vəsaitlərinin və əmlakların hərəkəti ilə bağlı məlumatların qeydiyyatını aparan orqanlarla, habelə maliyyə monitorinqi orqanı ilə əməkdaşlıq edilməsi üçün müvafiq koordinasiya mexanizminin yaradılması.

- Maliyyə qurumlarından, nəzarətedici orqanlardan müştəri tanıma məlumatlarının alınaraq bir mərkəzdə toplanması, qeydiyyata alınaraq daimi yenilənməsi, həmin məlumatların əldə edilməsinin asanlaşdırılması.

- Şübhəli əməliyyatlar üzrə hüquqi şəxsə sahibliyi və nəzarəti həyata keçirən fiziki şəxslər, onların maliyyə hesabatları, ödədiyi vergilər, eləcə də səlahiyyətlərin ötürülməsinə dair məlumatların vahid reyestrdə əks etdirilməsi və bu reyestrlərdə olan məlumatların mütəmadi yenilənməsi.

- Şəxsiyyətin eyniləşdirilməsi üçün məlumatları almaq və ya məlumatların doğruluğunu təyin etmək üçün müştərinin və ya müştərinin adından çıxış edən şəxsin və

ya şəxslərin kimliyini təsbit etmək və əməliyyat nəticəsində əsl fayda (gəlir) götürənin (maraqlı şəxs) ortaya çıxarılması üçün tədbirlərin görülməsi.

- Əməliyyatların müştərilərin peşəsi, ticarət fəaliyyəti, iş keçmişi, maliyyə vəziyyəti, risk profili, fond mənbələrinə dair məlumatlar ilə uyğun olub-olmamasınının davamedən münasibətlər ərzində müntəzəm olaraq izlənilməsi, müştəri haqqında məlumat, sənəd və qeydiyyatların daimi təzələnməsi.

- Dövlət və qeyri-dövlət müəssisələrində, özəl subyektlərdə üz-üzə olmayan əməliyyatların aparılmasını mümkün edən üsul və vasitələrdən istifadə edilərək həyata keçirilən sürətli iş münasibətləri, hesaba pul köçürmək, hesabdan pul çəkmək, elektron pul dövriyyəsi kimi əməliyyatlara xüsusi diqqət göstərilməsi, müştərinin maliyyə profilinə və fəaliyyətinə uyğun olmayan və ya fəaliyyəti ilə bağlılığı olmayan əməliyyatların izlənilməsi, əməliyyatın həcmi və sayını müəyyən etmək və nəzarəti təmin etmək üçün uyğun sistemlərin yaradılması.

- Sifariş və ya müqavilə əsasında müəssisələrin fəaliyyətini sağlamlaşdırmaq, pozuntuları aşkara çıxarmaq məqsədilə yoxlamalar həyata keçirilərkən dövlətin maraqlarına qəsd edən digər hallar (vergi və ya digər məcburi ödənişləri ödəməkdən yayınma, gəlirləri gizlətmə, qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma, nağdlaşdırma əməliyyatlarında iştirak, dövlət satınalmalarında iştirakla əlaqədar qanun pozuntuları və sair hallar) aşkar edildikdə müəssisənin maraqlarına zidd olsa belə, müvafiq hüquq mühafizə orqanlarına məlumat verməklə, toplanmış materialların təqdim edilməsi.

- Müəssisə, idarə və təşkilatlarda qəbul edilmiş idarəetmə qərarlarının əsaslılığını və səmərəliliyini qiymətləndirmək, kənarlaşmaları və əlverişli olmayan vəziyyətləri aşkara çıxarmaqla yanaşı, fəaliyyətdə risklərin idarə olunması, aradan qaldırılması və ya azaldılması üzrə qərarların qəbul edilməsi, aşkar edilmiş kənarlaşmaların səbəb nəticə əlaqələrini müəyyənləşdirərək, yoxlanılan obyektdə fəaliyyətin mövcud vəziyyətini yaxşılaşdırmaq üçün tövsiyə və təkliflər verməklə auidit fəaliyyətinin genişləndirilməsi.

- Korporativ idarəetmə sisteminin beynəlxalq standartlara uyğun inkişaf etdirilməsi üçün müəssisələrə köməklik göstərilməsi.

- Cinayətlərin baş verməsinə səbəb olan təhdidlərin müəyyən edilməsi üçün yoxlayıcılar və ya auditorlar tərəfindən sahələr üzrə tipoloji hesabatların hazırlanması, milli və beynəlxalq səviyyədə təhdid qiymətləndirmələrinin aparılıması.

- Müəssislərin normal fəaliyyəti, dövlətin iqtisadi təhlükəsizliyi üçün əhəmiyyət kəsb etdiyindən təsərrüfatsızlığa, korrupsiyaya, qanun pozuntularına, çirkli pulların yuyulmasına şərait yaradan halların təhlil edilərək boşluqların, vəzifəli şəxslərin qanunsuz hərəkətlərinin, eyni pozuntuların təkrarlanmasının, adət halını almasının qarşısının alınaraq aradan qaldırılması üçün məlumatların toplanması mexanizminin yaradılması.

- Mərkəzləşdirilmiş milli bank reyestrlərinin və ödəniş hesabları reyestrlərinin və yaxud məlumatların axtarılmasının mərkəzləşdirilmiş sistemlərinin yaradılaraq maliyyə məlumatlarının reyestr və sistemlərinə çıxış imkanının verilməsi.

- “Follow the money (pulun arxasınca get)” prinsipi üzrə maliyyə araşdırmaları institutundan fəal şəkildə istifadə olunması.

- Məlumatların verilməsi üçün təşviq siyasətinin həyata keçirilməsi, məlumatların bir hovuzda toplanması, çeşidlənməsi və istifadə olunması.

- Maliyyə nəzarəti orqanları tərəfindən leqallaşdırma ilə bağlı yüksək riskə malik sahələrə diqqətin yönəldilməsi, korrupsiya riskinin konkret sahələr üzrə dəqiq qiymətləndirməsinin aparılması, monitorinq subyektlərinin risk profili formalaşdırılması.

- Risklərin müəyyən edilməsi məqsədilə sahələr üzrə əsaslı monitorinq sisteminin yaradılması, mübarizə tədbirlərinin təsirliliyinin qiymətləndirilməsi, təsərrüfatsızlıq hallarına şərait yaradan halların, həssas sahələrin, aşkar edilməsi üçün risk əsaslı dövrü təhlil metodologiyalarının hazırlanması, münasibətlərin iştirakçılarının yüksək riskli olduğunu müəyyən etməyə kömək edən sahələr üzrə qayda və prosedurаların hazırlanması, iştirakçının mövcud statusu, fəaliyyəti, cəmiyyətdə mövqeyi (siyasət ilə əlaqəsi), mənşəyi, gəlirin və mövcud aktivlərinin mənbəyinin müəyyən edilməsi, dövlət təşkilatlarında sektoral yanaşmanın tətbiq edilməsi.

-İnformatorlar tərəfindən verilən məlumatların toplandığı vahid baza yaradılması, yüksək təhlükəsizliyə, anonimliyə və şəxsi məlumatların qorunmasına zəmanət verilməsi sahəsində ciddi və dəqiq addımların atılması.

-Cinayətkarlığın inkişaf edən münasibətlərə uyğun olaraq ölkə sərhədindən çıxaraq transmilli xarakter alması və bunun ictimai-siyasi, iqtisadi əsaslara ziyan vurması təhlükəsini nəzərə alınaraq, beynəlxalq və transmilli cinayətkarlığa qarşı mübarizədə, həmçinin dövlət əhəmiyyətli, iri həcmli, kompleks maliyyə araşdırmalarında effektivliyə nail olmaq üçün çoxprofilli qruplar və ya işçi qruplarının təşkil edilməsi.

-Beynəlxalq maliyyə yoxlamalarının aparılması üçün müəyyən edilən tələblərə və standartlara cavab verən, gələcəkdə hər hansı hüquqpozma baş verdikdə şirkətlərarası, dövlətlərarası, təşkilatlararası iqtisadi, ticari münasibətlərdə ortaya çıxacaq mübahisələrin dövlətimizin iqtisadi subyektlərinin maraqları çərçivəsaində həll edilməsi üçün əvvəlcədən potensial qüvvə kimi belə işlərin araşdırılmasında peşəkar, manevr etmək qabiliyyəti olan ixtisaslı, günün tələblərinə cavab verən mütəxəssislərin yetişdirilməsi.

-“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair tədbirlər haqqında Qaydalar”ın yaradılması. Qaydaların yaradılmasında məqsədin “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununun həyata keçirilməsi üçün müxtəlif dövlət və qeyri-dövlət müəssisələri qarşısında öhdəliklər yaratmaqdan və həmin öhdəliklərin həyata keçirilməsinə nəzarəti təmin etməkdən ibarət olmasıdır. Qaydalarda Respublika ərazisində fəaliyyət göstərən bütün dövlət və qeyri-dövlət orqanları nəzərə alınmaqla konkret hər bir sahə üzrə öhdəliklər, şəxslərin və münasibətlərin tanınması, eyniləşdirilməsi əsasları və bu istiqamətdə görülən işlər, hüquqi və fiziki şəxslərin maddi vəziyyətinin və fəaliyyətinin, köçürmə və nağd əməliyyatların izlənməsi, riskli ölkələr və şirkətlərlə münasibətlər, görülən tədbirlər, şübhəli əməliyyatlara dair məlumatlar, həmin məlumatların gizliliyi, məlumatı verənlərin qorunması, məlumat və sənədləri vermə, nəzarətin əhatə dairəsi, nəzarətin kimlər tərəfindən həyata keçirilməsi və həyata

keçirilmə qaydaları, monitorinqin nəticələri və müəyyən edilən pozuntular əsasında həyata keçirilən hərəkətlər, məlumat və sənədlərin toplanma bazası və mühafizəsi, geriyə məlumatlandırma bölmələrinin təsbit edilməsi. Qaydalarda cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizə tədbirləri çərçivəsində şübhəli halların müəyyən edilməsinin və həmin şübhəli halların nədən ibarət olmasının konkret sadalanması və müəyyən edildiyi halda araşdırmanın aparılmasına səbəb olmasının təsbit edilməsi.

-"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan ehtimal olunan qiymətlərin düzgün müəyyən etmək üçün dövlət müəssisələrinin potensial olaraq ala biləcəyi bütün əmtəə, xidmət və işlərin elektron bazası, onları təqdim edən potensial təchizatçıların katoloqu və müvafiq qiymət cədvəlinin yaradılması, dövri olaraq (ən azı 6 ayda bir dəfə) qiymətlərin yenilənməsi, yeni əmtəə (yaxud iş və xidmət) meydana çıxarsa, malların elektron bazasının yenilənməsi.

-Maliyyə Monitorinqi Xidmətindən daxil olmuş materiallar əsasında aparılan araşdırmalar zamanı cinayət yolu ilə əldə edilmiş əmlakların əksər hallarda qeri-rəsmi iqtisadiyyatın (kölgə iqtisadiyyatı) nəticəsi olaraq ortaya çıxdığı müəyyən edilmişdir ki, sonradan həmin əmlaklar leqallaşdırılmışdır. Ona görə də qeyri-rəsmi iqtisadiyyatla bağlı təkmil statistik informasiya bazası formalaşdırılmalıdır. Azərbaycanda qeyri-rəsmi iqtisadiyyatla mübarizədə dövlət siyasətinin inkişaf etdirilməsi zəruri olan istiqamətlərindən biri də bu sektorla bağlı mükəmməl rəsmi statistik informasiya bazasının formalaşdırılmasıdır. Bu istiqamətdə ilk növbədə Azərbaycan Dövlət Statistika Komitəsində fəaliyyət göstərən "Gizli iqtisadiyyat" bölməsinin imkanları genişləndirilməlidir. Belə ki, bu struktur qeyri-rəsmi iqtisadiyyatın kəmiyyət qiymətləndirməsi ilə bağlı çalışmalarında beynəlxalq metodologiyadan daha geniş şəkildə istifadə etməli, İqtisadiyyat Nazirliyi, Vergi Xidməti, Dövlət Gömrük Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Maliyyə Nazirliyi, Maliyyə Monitorinqi Xidməti, Auditorlar Palatası, Hesablama Palatası və hüquq mühafizə orqanları kimi dövlət qurumları ilə sıx əməkdaşlıq etməli və bu sahədəki monitorinqlərini, sorğu və anket tədqiqatlarını intensivləşdirməlidir. Eyni zamanda qeyri-rəsmi iqtisadiyyatın kəmiyyət qiymətləndirmələri təkcə makro səviyyədə deyil, sektorlar, regionlar və fəaliyyət sahələri üzrə aparılmalıdır.

-Müstəqil audit xidmətlərinin inkişaf etdirilməsi və onlardan istifadə praktikasının genişləndirilməsi. Bu istiqamətdə ilk növbədə beynəlxalq auditor şirkətlərinin Azərbaycandakı fəaliyyətlərinin genişləndirilməsini stimullaşdırmaq, həmçinin də yerli auditor şirkətlərinin formalaşması və inkişafını təmin etmək zəruridir. İkincisi, ölkədə bazar subyektlərinin müstəqil audit xidmətlərindən istifadə etmələri təşviq edilməli, həmçinin də əksər hallarda bunun qanunlarla məcburiliyi təsbit edilməlidir. Xüsusilə, dövlət tərəfindən həyata keçirilən satınalmalarda iştirak etmək istəyən bazar subyektləri üçün müstəqil audit prosesindən keçmə şərti qanunla təsbit edilməlidir. Bazar subyektlərinin bu tipli audit prosesindən keçmələri onların maliyyə-təsərrüfat fəaliyyətlərini mövcud qanunlara uyğunlaşdırma cəhdlərini artıracaq və qeyri-rəsmi iqtisadi fəaliyyətlərə yönəlmə stimullarını zəiflədəcəkdir.

İqtisadi islahatlar konsepsiyası reallaşdırılarkən müasir dünyada baş verən siyasi və iqtisadi-maliyyə böhranlarının olduğu indiki şəraitdə dövlət idarəetməsinin mühüm vasitəsi olan maliyyə nəzarətinin və cinayətkarlığa qarşı mübarizənin rolu artır. Ona görə də görülən tədbirlərin nəticəliliyinin, şəffaflığının və aşkarlığının, obyektivliyinin, müstəqilliyinin və təsirliyinin iqtisadi inkişafa və təhlükəsizliyə təminatının əsas istiqamətləri, cinayət hüquqi hərəkətlərin hüdudları, forma və metodları, hüquqi statusu, idarəetmə orqanlarının əlaqələrinin təkmilləşdirilməsi, maraqların toqquşmasının qarşısının alınması, qurumların fəaliyyətinin iqtisadi və hüquqi mexanizmlərinin tam formalaşdırılması günün tələbidir.

*İsrailin Enerji infrastrukturu üzrə şirkətinin icraçı direktorunun müavini və maliyyə rəhbəri*

***Eli ZUKER***




ENERGY INFRASTRUCTURES



# HISTORY

1931




British High Commissioner -IPC agreement

ENERGY INFRASTRUCTURES

# HISTORY

The first days

1931

1934







British High Commissioner -IPC agreement

“P

Ltd.

ENERGY

# HISTORY



1931
British High Commissioner -IPC agreement
1934
The first days
1959
"Petroleum Services" established
1994
Petroleum & Energy Infrastructures Ltd
2021
Energy Infrastructures Ltd.




ENERGY INFRASTRUCTURES
NATIONWIDE DEPLOYMENT
K. Haim terminal
Haifa oil port
Elroi terminal
Tel-aviv
Bilu terminal
Ashkelon terminal
Eshel terminal
Efrat
Negev
Eilat
ENERGY INFRASTRUCTURES

# OVERVIEW 2024



### Current main activities

Established in 1959

- Port services
- Crude oil & distillates storage
- Energy transportation
- Distillates dispensing services

### Numbers

- Turnover **401 M NIS**
- EBITDA **143 M NIS**
- Employees **400**
- pipelines **1,000 KM**

### Main customers

ENERGY INFRASTRUCTURES

# DEVELOPMENT OF NEW GROWTH ENGINES

**Solar Energy**

- 16.5 mw facility power
- Utilization of space between containers



ENERGY INFRASTRUCTURES

# Thank you !

Together for a better world



*Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının*
*Audit şöbəsinin müdiri*

***Ramil ƏLİYEV***

**Mövzu. "Çirkli pulların yuyulmasına qarşı mübarizədə etik davranış və institusional məsuliyyət. Həmkarlar ittifaqlarının rolu"**

**Hörmətli tədbir iştirakçıları!**

**Xanımlar və cənablar!**

Hamınızı salamlayır, mühüm mövzuya həsr olunmuş tədbirə dəvət üçün təşkilatçılara təşəkkürümü bildirirəm. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının nümayəndəsi kimi bu cür platformalarda çıxış etmək və fikirlərimizi bölüşmək dəyərli fürsətdir.

Bu gün müzakirə etdiyimiz məsələ - çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə yalnız hüquq-mühafizə və maliyyə nəzarəti orqanlarının deyil, bütün institutlarının, xüsusilə də əmək hüquqlarını və sosial ədaləti qoruyan həmkarlar ittifaqlarının diqqət mərkəzindədır. Çünki çirkli pullar və qeyri-qanuni maliyyə axınları yalnız iqtisadiyyata zərər vurmur, həm də əmək münasibətlərində qeyri-şəffaflıq yaradır, iş yerlərində ədalətsiz bölgü, əmək hüquqlarının pozulması və sosial etimadsızlıq kimi problemlərə yol açır. Həmkarlar ittifaqları da fəaliyyətində məhz ədalətli əmək mühitinin formalaşdırılması, işçilərin hüquq və mənafelərinin müdafiəsi kimi prinsiplərə əsaslanır.

Bu baxımdan, mövzuya sosial institutun - həmkarlar ittifaqları sisteminin prizmasından baxmaq istədim.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası bu sahədə üzərinə düşən ictimai və institusional məsuliyyətindən irəli gələrək, bir sıra təşəbbüslər həyata keçirir. Bu təşəbbüsləri dörd əsas istiqamət üzrə təqdim etmək istərdim.

**1. Maarifləndirmə və davranış risklərinin tanıdılması – işçilərin düzgün və dürüst davranış qaydaları barədə məlumatlandırılması**

Bu sahədə ilk növbədə ictimai şüurun formalaşdırılması və davranış risklərinin müəyyənləşdirilməsi vacib amildir. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və üzv təşkilatları əmək kollektivlərində mütəmadi olaraq etik davranış və şəffaflıq prinsiplərinin təşviqi istiqamətində maarifləndirmə işləri aparır.

İşçilər üçün etik risklərə, korrupsiya hallarına qarşı qabaqlayıcı tədbirlərin görülməsi iş mühitində sosial immunitetin formalaşmasına səbəb olur.

Keçirilən təlimlər, seminarlar və forumlarda maarifləndirmə artıq minlərlə həmkarımızın bu məsələdə məlumatlandırılmasına xidmət edir.

**2. İşçi nümayəndələrinin iştirakı ilə daxili nəzarət və monitorinq mexanizmləri**

Həmkarlar ittifaqları yalnız maarifləndirmə aparmaqla kifayətlənmir, həm də bu sistemdə çalışanların şəffaf fəaliyyəti və məsuliyyətinin təşviqi üçün tədbirlər həyata keçirir. Üzv və tabe təşkilatlarda həyata keçirilən daxili auditlərdə həmkarlar ittifaqlarının nümayəndələri iştirak edir, proseslərdəki boşluqlar, qeyri-etik halların aşkar olunması və tövsiyələrin hazırlanması bu işin önəmli hissəsidir.

Bu, rəhbərlik və işçilər arasında etimada əsaslanan münasibətlərin qurulmasına, həmçinin hesabatlılıq mədəniyyətinin formalaşmasına töhfə verir.

**3. Etik çərçivələrin hazırlanması və işçilər üçün institusional təlimlərin təşkili**

Konfederasiyanın təşəbbüsü ilə üzv təşkilatlarımızda etik davranış kodeksləri qəbulu işləri aparılır və onların tətbiqi üzrə izləmə mexanizmləri yaradılır.

Bu sənədlər sadəcə formal qaydalar toplusu deyil, həmkarlar ittifaqlarının təşviq etdiyi dəyərlərin praktik ifadəsidir. şəffaflıq, məsuliyyət, dürüstlük və sosial ədalət.

Bundan əlavə, həm rəhbər heyət, həm də əmək kollektivləri üçün etik qərarvermə, iş mühitində dürüstlük və idarəetmədə hesabatlılıq mövzularında təlimlər keçirilik. Bu təlimlər sosial tərəfdaşlıq mədəniyyətinin formalaşmasında xüsusilə önəmlidir.

**4. Dəyərlər və institusional mədəniyyətin formalaşdırılması**

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyanın fəaliyyətində əsas məqsədlərdən biri də dayanıqlı və dəyərlərə əsaslanan institusional mədəniyyətin formalaşdırılmasıdır.

Çirkli pulların yuyulması ilə mübarizə yalnız texniki nəzarət deyil, həm də formalaşan mədəniyyətdir. Bu mədəniyyət özünü həmkarlar ittifaqlarının daxilində də, işçi-müəssisə münasibətlərində də göstərir.

Etik prinsipləri təşviq edən layihələrin və təşəbbüslərin həyata keçirilməsi bu mədəniyyətin cəmiyyətin digər sahələrinə yayılmasına da tövhə verir.

**Hörmətli tədbir iştirakçıları!**

Çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə kimi qlobal məsələ təkcə qanunvericilik və texniki nəzarət tədbirləri ilə məhdudlaşmamalıdır. Hesab edirik ki, cəmiyyətin müxtəlif institutları bu məsələyə öz dəyərləri, davranış modelləri və sosial məsuliyyət baxışları ilə töhfə verə bilərlər.

Bu yolda hər birinizə uğurlar arzulayır, diqqətinizə görə təşəkkür edirəm.

***Auditin hüquqi tənzimlənməsi və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə idarəsinin rəisi***

***Elnur İBRAHİMOV***



## AZƏRBAYCAN RESPUBLİKASI AUDİTORLAR PALATASININ NƏZARƏT OQANI KİMİ CİNAYƏT YOLU İLƏ ƏLDƏ EDİLMİŞ ƏMLAKIN LEQALLAŞDIRILMASINA VƏ TERRORÇULUĞUN MALİYYƏLƏŞDİRİLMƏSİNƏ QARŞI MÜBARİZƏDƏ İŞTİRAKI

- Azərbaycan Respublikası Auditorlar Palatası 2023-2024-cü illər ərzində cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində mühüm addımlar atmışdır. Bu tədbirlər "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023–2025-ci illər üzrə Milli Fəaliyyət Planı"nın müvafiq bəndlərinin icrası çərçivəsində həyata keçirilmişdir.
- Palatanın fəaliyyəti nəzarət orqanlarında ixtisaslaşmış struktur bölmələrinin yaradılması, təlimlərin keçirilməsi, risk əsaslı yanaşmanın tətbiqi və digər istiqamətlərdə olmuşdur.



## ƏL/TMM haqqında Qanunun tələblərinə əsasən Auditorlar Palatasının öhdəlikləri

Auditorlar Palatası auditor xidməti göstərən şəxslərə münasibətdə apardıqları yoxlamalar zamanı ƏL/TMM haqqında Qanunun 11-ci maddəsi ilə müəyyən edilmiş əsaslara uyğun gələn əməliyyatları araşdırmalı və bu cür əməliyyatlara dair məlumat və sənədlərin maliyyə monitorinqi orqanına göndərilmədiyini aşkar edərsə, dərhal həmin məlumat və sənədlərin maliyyə monitorinqi orqanına göndərilməsini təmin etməli və məlumat və sənədlərin təqdim edilməməsinin səbəblərini araşdırmalıdır.

Auditorlar Palatası auditor xidməti göstərən şəxslər tərəfindən ƏL/TMM haqqında Qanunun tələblərinə əməl edilməməsini aşkar edərsə, onlara qarşı inzibati və ya qanunvericilikdə nəzərdə tutulmuş digər tədbirləri tətbiq etməli və bu barədə maliyyə monitorinqi orqanına məlumat verməlidir.

Auditorlar Palatası nəzarət yoxlamalarını müəyyən edilmiş, habelə sahəvi və ölkə səviyyəsində mövcud olan risklərə uyğun olaraq qanunla müəyyən edilmiş qaydada həyata keçirməlidir. .

## ƏL/TMM monitorinqinin aparılmasında məqsəd

Azərbaycan Respublikasında auditor xidməti göstərən şəxslər tərəfindən Qanunlar və digər normativ sənədlərin tələblərinə riayət edilməsinin təmin edilməsi

ƏL/TMM sahəsində qanunvericiliyin pozulması ilə əlaqədar hüquqpozmalara görə məsuliyyətə cəlb etməklə deyil, habelə hüquqpozmalara şərait yaradan halların müəyyən edilməsi, təhlili, aradan qaldırılması və qabaqlayıcı tədbirlərin görülməsi

«Azərbaycan Respublikasında auditor xidməti göstərən şəxslər tərəfindən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına dair qanunvericiliyə riayət edilməsinin monitorinqinin aparılması barədə» Qaydalar Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2024-cü il 30 sentyabr tarixli 368/3 nömrəli Qərarına əsasən təsdiqlənmişdir.

## Monitorinqlər

Planlaşdırılmış

Plandankənar

Əyani

Qiyabi

Plandankənar ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqi aşağıdakı hallarda keçirilir:

nəzarət orqanına Qanunun tələblərinin pozulması faktları haqqında mənbəyi bəlli olan məlumat və ya şikayət daxil olduqda

sonuncu monitorinq nəticəsində aşkar edilmiş pozuntuların və ya onların nəticələrinin müəyyən edilmiş müddət ərzində aradan qaldırılmasına dair məlumat və sənədlər auditor xidməti göstərən şəxslər tərəfindən İdarəyə təqdim edilmədikdə və ya verilmiş məlumatın yanlış olduğu müəyyən edildikdə və ya bunun üçün şübhələr olduqda.

## AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI TƏRƏFİNDƏN ƏL/TMM QANUNVERİCİLİYİNƏ RİAYƏT EDİLMƏSİNİN MONİTORİNQİ İLƏ BAĞLI GÖRÜLƏN TƏDBİRLƏR

- «Azərbaycan Respublikasında auditor xidməti göstərən şəxslər tərəfindən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına dair qanunvericiliyə riayət edilməsinin monitorinqinin aparılması barədə» Qaydaların hazırlanması;
- ƏL/TMM qanunvericiliyinə riayət olunması barəsində metodik vəsaitlərin hazırlanması, seminar və təlimlərin keçirilməsi;
- Müfəttişlər qrupunun və idarənin monitorinq sənədlərinin hazırlanması;
- ƏL/TMM üzrə monitorinqlərin aparılmasına dair müfəttişlər qrupunun siyahısının təsdiq edilməsi;
- ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinin təşkili;
- ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinin keçirilməsi proqramının hazırlanması;
- Monitorinq zamanı konfidensiallığın təmin edilməsi;
- ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinin nəticələrinin qiymətləndirilməsi;
- ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinin nəticələrinin sənədləşdirilməsi və elan olunması.



Azərbaycan Respublikası Auditorlar Palatası sədrinin 2024-cü il 16 yanvar tarixli 1/5 nömrəli «ƏL/TMM üzrə monitorinqlərin aparılmasına dair müfəttişlər qrupunun siyahısının təsdiq edilməsi haqqında» Sərəncamına əsasən ƏL/TMM üzrə monitorinqlərin aparılmasına cəlb edilən auditorların siyahısı təsdiq edilmişdir.



## İxtisaslaşmış struktur bölməsinin yaradılması

- Auditorlar Palatası "Milli Fəaliyyət Planı"nın 8.2.2.1-ci bəndinin icrası çərçivəsində 2023-cü ildə mühüm struktur dəyişiklikləri həyata keçirmişdir. İlin əvvəlində bu işlərin görülməsi Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinə tapşırılmış və müvafiq dəyişikliklər edilmişdir.
- 2023-cü ilin 28 dekabr tarixində isə Auditorlar Palatasının Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin tərkibində Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə şöbəsi yaradılmışdır. Bu şöbənin yaradılması Palata sədrinin 2023-cü il 28 dekabr tarixli K-116 nömrəli Əmri ilə təsdiq edilmişdir.

**❖ Struktur Dəyişikliyi**

İxtisaslaşmış şöbənin yaradılması ilə Auditorlar Palatası ƏL/TMM sahəsində nəzarət funksiyalarını daha effektiv həyata keçirmək imkanı əldə etmişdir.

**❖ Kadr Potensialı**

Yeni şöbənin yaradılması ilə kadr potensialının artırılması və ixtisaslaşmış mütəxəssislərin cəlb edilməsi təmin edilmişdir.

**❖ Nəzarət Mexanizmi**

Bu struktur dəyişikliyi ƏL/TMM sahəsində nəzarət mexanizminin təkmilləşdirilməsinə və daha səmərəli fəaliyyətə imkan yaratmışdır.

“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun auditorlar tərəfindən tətbiqinə dair metodik materiallar TOPLUSU Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2024-cü il 21 fevral tarixli 363/9 nömrəli qərarı ilə çap olunmuşdur.




## 2023-cü ildə nəzarət orqanlarının əməkdaşları üçün sahəvi risklərə uyğun olaraq illik təlim planına əsasən təlimlərin keçirilməsi





“Milli Fəaliyyət Planı”nın 8.2.2.2-ci bəndinin icrasının təmin edilməsi məqsədilə Auditorlar Palatası tərəfindən Auditorlar Palatasının əməkdaşları və üzvləri üçün sahəvi risklərə dair təlim və seminarlar keçirilmiş və şərhlər verilmişdir.

## Təlimlər

- 19-22 iyun - Palatanın üzvləri üçün "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə"
- 12 iyul - Palatanın üzvləri üçün "ƏL/TMM qanunvericiliyi və onun auditdə tətbiqi"
- 20 iyul - Palatanın üzvləri üçün "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn öhdəliklər"
- 10 avqust - Palatanın üzvləri üçün "ƏL/TMM qanunvericiliyinin pozulması ilə bağlı məsuliyyət"
- 12 sentyabr - Palatanın üzvləri üçün "ƏL/TMM-də daxili nəzarətin qurulması"
- 13-21 sentyabr - Palatanın üzvləri üçün "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM) sahəsində auditorların vəzifələri və öhdəliklərinə dair yeni qanunvericilik"
- 12 oktyabr - Palatanın üzvləri üçün "ƏL/TMM-də eyniləşdirmə və verifikasiya əməliyyatlarının aparılması"
- 18-26 oktyabr - Palatanın üzvləri üçün "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM) sahəsində auditorların vəzifələri və öhdəliklərinə dair yeni qanunvericilik"
- 13 noyabr - Palatanın üzvləri üçün "Əməliyyatların qadağan edildiyi və ya məhdudlaşdırıldığı dövlətlər (ərazilər və şəxslərlə) ilə işləyən zaman auditorun hərəkətləri"
- 21-24 noyabr - Palatanın üzvləri üçün "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə"
- 2023-cü il 29 noyabr tarixində Palatanın üzvləri üçün "Nəzarət orqanının funksiyaları"

## Seminarlar

- 15 fevral - Palatanın üzvləri üçün "ƏL/TM-ə qarşı mübarizədə auditorların rolu, vəzifələri və məsuliyyəti sahəsində əhəmiyyətli dəyişikliklərin edilməsi barədə"
- 13 mart - Palatanın üzvləri üçün "Müştəri profili üzrə risk dərəcəsinə müvafiq olaraq irihəcmli hesab edilə bilən nağd əməliyyatların araşdırılması Metodologiyası"
- 26 iyul - Palatanın üzvləri üçün "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınmasına dair tədbirlər haqqında Metodik Göstəriş"
- 26 iyul - Palatanın üzvləri üçün "Auditor fəaliyyəti ilə məşğul olan şəxslərin cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində öhdəlikləri"
- 26 iyul - Palatanın üzvləri üçün "Auditor təşkilatlarında ƏL/TM-ə qarşı mübarizə sahəsində daxili nəzarət sisteminin səmərəliliyinin müəyyən edilməsi üzrə metodik vəsait"
- 22 sentyabr - Palatanın üzvləri üçün "Öhdəlik daşıyan şəxslər tərəfindən şel şirkətlərin müəyyən edilməsi meyarları"

## Şərhlər

- 28 fevral - Palatanın üzvləri üçün "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM) sahəsində auditorların vəzifələri və öhdəliklərinə dair yeni qanunvericilik barədə"
- 28 fevral - Palatanın üzvləri üçün "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn öhdəliklər barədə"
- 7 mart - Palatanın üzvləri üçün "Hədəfli maliyyə sanksiyalarının tətbiqinə dair Təlimat barədə"
- 7 sentyabr - Palatanın üzvləri üçün "Hədəfli maliyyə sanksiyalarının tətbiqinə dair Təlimat barədə"

## Əməkdaşlıq çərçivələrinin yaradılması

"Milli Fəaliyyət Planı"nın 8.8.2-ci bəndinin icrası çərçivəsində Auditorlar Palatası Maliyyə Monitorinqi Xidməti ilə sıx əməkdaşlıq qurmuşdur. Birgə yaradılacaq işçi qrupunda Auditorlar Palatasını təmsil edəcək nümayəndələr müəyyən edilmiş və 2023-cü ilin 14 dekabr tarixində Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinə məlumat verilmişdir.

Bundan əlavə, 2023-cü il 27 oktyabr tarixində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə nəzarət orqanlarının rolu və vəzifələri" mövzusunda elmi-praktik konfrans keçirilmiş və 2023-cü il 22 dekabr tarixində Anlaşma Memorandumu imzalanmışdır.



## 2024-cü ildə nəzarət orqanları tərəfindən müəyyən edilmiş risklərə (ölkə, sahəvi və institusional) uyğun olaraq illik təlim planına əsasən təlimlərin keçilməsi

“Milli Fəaliyyət Planı”nın 8.2.3.1-8.2.2.2-ci bəndlərinin icrasının təmin edilməsi məqsədilə Auditorlar Palatasının əməkdaşları və üzvləri üçün sahəvi risklərə dair 13 seminar, 4 təlim və 1 onlayn iclas və 1 onlayn konfrans keçirilmişdir.



## Seminarlar

- 07 yanvar - Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə şöbəsinin əməkdaşlarına "Öhdəlik daşıyan şəxslər"
- 17 yanvar - Palatanın üzvləri və əməkdaşları üçün "Auditorlar Palatasının əməkdaşları və üzvləri üçün sahəvi risklər" və "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair tədbirlərin Təqdimatı"
- 09 fevral - Palatanın əməkdaşları və ƏL/TMM üzrə monitorinqlərin aparılmasına dair müfəttişlər qrupu üçün "Müştəri uyğunluğu tədbirləri"
- 27 fevral - Palatanın əməkdaşları və ƏL/TMM üzrə monitorinqlərin aparılmasına dair müfəttişlər qrupu üçün "Daxili nəzarət proqramı"
- 11 mart - Palatanın üzvləri üçün "Öhdəlik daşıyan şəxslərin daxili nəzarət proqramının cavab verməli olduğu minimum Tələblər"
- 29 mart - Palatanın üzvləri və əməkdaşları üçün "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə nəzarət orqanlarının səlahiyyətləri"
- 06 aprel - Palatanın əməkdaşları və ƏL/TMM üzrə monitorinqlərin aparılmasına dair müfəttişlər qrupu üçün "Hədəfli Maliyyə Sanksiyaları"
- 25 aprel - Palatanın üzvləri üçün "Müştəri uyğunluğu və yeni texnologiyaların tətbiqi zamanı verifikasiya tədbirlərinə, risk faktorlarının müəyyən edilməsinə və müştəri profilinin risk qruplarına aid edilməsinə dair Qaydalar"

- 13 may - Palatanın üzvləri üçün "Daxili nəzarət proqramı"
- 22 may - Palatanın üzvləri üçün "Öhdəlik daşıyan şəxslər, habelə auditor xidməti göstərən şəxslər tərəfindən məlumat və sənədlərin Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinə təqdim edilməsi Qaydası"
- 12 iyun - Palatanın üzvləri və əməkdaşları üçün "ƏL/TMM Qanunvericiliyinin pozulmasına görə məsuliyyət"
- 15 iyul - Palatanın üzvləri üçün "Hüquqi şəxslərin və hüquqi təsisatların benefisiar mülkiyyətçilərinin müəyyən edilməsinə dair Metodologiya"
- 14 oktyabr - Palatanın üzvləri və əməkdaşları üçün "Azərbaycan Respublikasında auditor xidməti göstərən şəxslər tərəfindən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizəyə dair qanunvericiliyə riayət edilməsinin monitorinqinin aparılması barədə Qaydalar"

## Təlimlər

- 2024-cü il üzrə auditorların ixtisasartırma kursunun Tədris Proqramı"na əsasən 2024-cü ilin 10-16 sentyabr tarixlərində birinci qrup üzrə və 15-21 oktyabr tarixlərində ikinci qrup üzrə keçirilmiş ixtisasartırma kurslarında "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair qanunvericiliyin pozulmasına görə məsuliyyət" və "ƏL/TMM-də daxili nəzarətin təşkili"
- 05-20 noyabr - Azərbaycan Respublikasında auditor xidməti göstərən şəxslər tərəfindən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına dair qanunvericiliyə riayət edilməsinin monitorinqinin aparılması ilə bağlı ƏL/TMM üzrə monitorinqlərin aparılmasına dair müfəttişlər qrupuna onlayn formatda

- 13 dekabr - Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidməti tərəfindən Azərbaycan Respublikası Auditorlar Palatasının Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin əməkdaşları və ƏL/TMM üzrə monitorinqlərin aparılmasına dair müfəttişlər qrupu üçün praktiki təlim
- 18 dekabr - Palatanın üzvləri və əməkdaşları üçün "ƏL/TMM üzrə Pakistan təcrübəsi"



## Onlayn iclas və konfrans

- 1 may - Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti ilə Azərbaycan Respublikasının Auditorlar Palatası arasında yaradılmış işçi qrupunun onlayn formatda iclası
- 24 dekabr - Azərbaycan Respublikasının Mərkəzi Bankı, Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti və Azərbaycan Respublikası Auditorlar Palatasının birgə təşkilatçılığı ilə Palatanın üzvləri və əməkdaşları üçün "ƏL/TMM-də maliyyə institutlarının və peşə sahiblərinin rolu. Aktual problemlər"




## 2025-cü ildə nəzarət orqanları tərəfindən müəyyən edilmiş risklərə (ölkə, sahəvi və institusional) uyğun olaraq illik təlim planına əsasən təlimlərin keçilməsi

"Milli Fəaliyyət Planı"nın 10.2.3, 10.2.6, 10.2.7, 10.2.10, 10.2.11, 10.2.15, -ci bəndlərinin icrasının təmin edilməsi məqsədilə Auditorlar Palatasının əməkdaşları və üzvləri üçün sahəvi risklərə dair 9 seminar keçirilmişdir.



## Seminarlar

- 08 yanvar - ƏL/TMM üzrə monitorinqlərin aparılmasına dair müfəttişlər qrupu üçün ixtisasartırma kursu;
- 13 yanvar - ƏL/TMM sahəsində hazırlanmış strateji təhlil məhsullarının və təcrübənin birgə müzkirə və mübadiləsi, həmçinin mütəmadi təlimlərin keçirilməsi;
- 24 yanvar - Sahəvi risklərə dair;
- 29 yanvar -"Auditor fəaliyyəti ilə məşğul olan şəxslərin cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində öhdəlikləri";
- 05 fevral - Qanunvericilik aktlarının yenilənməsi və onun Azərbaycan auditinə təsiri ilə;
- 11 fevral - Palatanın üzvlərinə "ƏL/TMM üzrə monitorinqlərin aparılmasının zəruriliyi barədə";
- 20 fevral - "Öhdəlik daşıyan şəxslər, habelə auditor xidməti göstərən şəxslər tərəfindən məlumat və sənədlərin Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinə təqdim edilməsi Qaydası" ilə bağlı ;
- 04 mart - "Azərbaycan Respublikasında auditor xidməti göstərən şəxslər tərəfindən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizəyə dair qanunvericiliyə riayət edilməsinin monitorinqinin aparılması barədə Qaydalar"a dair;
- 17 mart - "ƏL/TM-ə qarşı mübarizədə auditorların rolu, vəzifələri və məsuliyyəti sahəsində əhəmiyyətli dəyişikliklərin edilməsi barədə" dəyirmi masa.

## Risk əsaslı yanaşma və sahəvi nəzarət strategiyası

"Milli Fəaliyyət Planı"nın 8.2.4.3-cü bəndinin icrası çərçivəsində Azərbaycan Respublikasının Auditorlar Palatası risk əsaslı yanaşma əsasında cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi üzrə 3 illik sahəvi nəzarət Strategiyası hazırlamış, Auditorlar Palatası Şurasının 2023-cü il 14 dekabr tarixli 361/5 nömrəli Qərarı ilə təsdiq edilmiş və Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinə göndərilmişdir.

**Strateji Məqsəd**
ƏL/TMM sahəsində effektiv nəzarət sisteminin qurulması

**Risk Qiymətləndirməsi**
Sahəvi risklərin müəyyən edilməsi və təhlili

**Nəzarət Tədbirləri**
Risk əsaslı yoxlamaların həyata keçirilməsi

**Monitorinq və Qiymətləndirmə**
Nəticələrin təhlili və hesabatlılıq

**Əməkdaşlıq Memorandumu**
Maliyyə Monitorinqi Xidməti ilə Anlaşma Memorandumunun imzalanması

**İşçi Qrupunun Yaradılması**

- Birgə işçi qrupunun formalaşdırılması və fəaliyyətə başlaması
- "Əmlakın leqallaşdırılması üzrə milli təhdidlərin qiymətləndirilməsi qrupu"
- "Əmlakın leqallaşdırılması üzrə milli zəifliklərin qitmətləndirimləsi qrupu"

**Mütəmadi Məsləhətləşmələr**
Qarşılıqlı məlumat mübadiləsi və məsləhətləşmələrin aparılması

**Elmi-Praktik Konfrans**
Nəzarət orqanlarının rolu və vəzifələri mövzusunda konfransın keçirilməsi

## Nəzarət yoxlamaları və statistik məlumatlar

- "Milli Fəaliyyət Planı"nın 8.2.5.2-ci bəndinin icrası çərçivəsində Auditorlar Palatası 2023-cü il ərzində 40 auditor təşkilatının və 13 sərbəst auditorun apardıqları auditlərin keyfiyyətinin Beynəlxalq Audit Standartlarının və "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğunluğunu yoxlamışdır.
- 2024-cü ildə isə 32 auditor təşkilatının və 12 sərbəst auditorun fəaliyyəti yoxlanılmışdır. Eyni zamanda, ƏL/TMM üzrə monitorinqlərin aparılmasına dair müfəttişlər qrupu tərəfindən 11 auditor təşkilatının ƏL/TMM Qanunu tələblərinə uyğunluğu ayrıca yoxlanılmışdır.



## Auditlərin keyfiyyətinin Beynəlxalq Audit Standartlarının monitorinqi

40
Auditor təşkilatı
2023-cü ildə yoxlanılmışdır

13
Sərbəst auditor
2023-cü ildə yoxlanılmışdır

32
Auditor təşkilatı
2024-cü ildə yoxlanılmışdır

12
Sərbəst auditor
2024-cü ildə yoxlanılmışdır



## ƏL/TMM haqqında Azərbaycan Respublikası Qanununun tələblərinə uyğunluğun monitorinqi

11
Auditor təşkilatı
2024-cü ildə yoxlanılmışdır

15
Auditor təşkilatı
2025-ci ildə yoxlanılmışdır

## Risk Qiymətləndirilməsi

- "Milli Fəaliyyət Planı"nın 8.2.1.3-cü və 8.2.1.4-cü bəndlərinin icrası çərçivəsində Auditorlar Palatası risk əsaslı yanaşma tətbiq edərək sahəvi risk qiymətləndirilməsi aparmışdır. Bu məqsədlə "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidməti göstərilən zaman ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinin həyata keçirilməsi üzrə 2024-cü il üçün Plan-qrafik" hazırlanmış və Auditorlar Palatası Şurasının 2024-cü il 09 aprel tarixli 364/11 nömrəli qərarı ilə təsdiq edilmişdir.
- Aparılmış risk qiymətləndirilməsinin nəticəsində "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidməti göstərilən zaman ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinin həyata keçirilməsi üzrə 2025-ci il üçün Plan-qrafik" hazırlanmış və Auditorlar Palatası Şurasının 2024-cü il 29 dekabr tarixli 372/4 nömrəli qərarı ilə təsdiq edilmişdir.

**1.Risk Qiymətləndirilməsi**
Sahəvi risklərin müəyyən edilməsi və təhlili

**2.Plan-Qrafik Hazırlanması**
Monitorinqin həyata keçirilməsi üçün plan-qrafikin təsdiqi

**3.Nəticələrin Təhlili**
Monitorinq nəticələrinin qiymətləndirilməsi və hesabatların hazırlanması

***DİQQƏTİNİZƏ GÖRƏ MİNNƏTDARIQ.***

*Azərbaycan Respublikası Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri*

*Nəcəf TALIBOV*




MÜHASIBLƏR ÜÇÜN BEYNƏLXALQ
ETİKA STANDARTLARI ŞURASI®
INTERNATIONAL ETHICS STANDARDS
BOARD FOR ACCOUNTANTS®
PEŞƏKAR MÜHASİBLƏRİN
BEYNƏLXALQ ETİKA MƏCƏLLƏSİ
BEYNƏLXALQ MÜSTƏQİLLİK
STANDARTLARI İLƏ BİRLİKDƏ
HANDBOOK OF THE INTERNATIONAL
CODE OF ETHICS FOR PROFESSIONAL
ACCOUNTANTS
INCLUDING INTERNATIONAL
INDEPENDENCE STANDARDS
— 2025 —

Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurası (IESBA) öz səlahiyyətləri çərçivəsində *“Peşəkar mühasiblərin beynəlxalq etika məcəlləsini (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə)”* (“Məcəllə”) işləyib hazırlayır və dərc edir. Məcəllə bütün dünyada peşəkar mühasiblər tərəfindən istifadə üçün nəzərdə tutulur.

# Məcəllənin məqsədi

“Peşəkar mühasiblərin (IESBA terminalogiyasına əsasən " Peşəkar mühasiblər" ifadəsi mühasibləri və auditorları əhatə edir) beynəlxalq etika məcəlləsi (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə)” (“Məcəllə”) bu peşənin ictimai maraqlar üzrə məsuliyyətini əks etdirərək, peşəkar mühasiblər üçün etikanın təməl prinsiplərini müəyyən edir. Bu prinsiplər peşəkar mühasibdən gözlənilən davranış standartlarını özündə ehtiva edir. Təməl prinsiplərinə tamlıq, obyektivlik, peşəkar səriştə və yetərli diqqət, məxfilik və peşəkar davranış daxildir. Müstəqillik prinsipi auditorlara aid olmaqla Beynəlxalq Müstəqillik Standartları ilə müəyyən edilir.

# Peşəkar mühasiblər üçün beş təməl etika prinsipi mövcuddur:

(a) **Tamlıq** – bütün peşəkar və işgüzar münasibətlərdə düzgün və dürüst olmaq.
(b) **Obyektivlik** – aşağıdakıların təsir göstərməsi hallarına yol vermədən peşəkar və ya işgüzar mühakimə yürütmək:
(i) qərəzlilik;
(ii) maraqların toqquşması; yaxud
(iii) fiziki şəxslərin, təşkilatların, texnologiyaların və ya digər amillərin yersiz təsiri və ya onlara hədsiz etibar etmə.
(c) **Peşəkar səriştə və lazımi ehtiyatlılıq:**
(i) sifarişçinin və ya işəgötürən təşkilatın qüvvədə olan texniki və peşə standartları və müvafiq qanunvericilik əsasında peşəkar səriştəli xidmətlərin qəbul etməsini təmin etmək üçün tələb olunan səviyyədə peşəkar bilik və bacarıqları əldə etmək və qoruyub saxlamaq; habelə
(ii) çalışqanlıqla və qüvvədə olan texniki və peşə standartlarına uyğun olaraq iş görmək.
(d) **Məxfilik** – peşəkar və işgüzar münasibətlər nəticəsində əldə edilmiş məlumatların məxfiliyinə hörmətlə yanaşmaq.
(e) **Peşəkar davranış:**
**(i) müvafiq qanunlara və qaydalara riayət etmək;**
(ii) peşə fəaliyyətinin bütün növlərində və işgüzar münasibətlərdə peşənin ictimai maraqlar naminə fəaliyyət göstərmək məsuliyyətinə uyğun davranmaq; habelə
(iii) peşəkar mühasibə məlum olduğu və ya məlum olması zəruri olduğu peşəni hörmətdən sala bilən hər hansı davranışdan çəkinmək.

Auditorlar üçün əlavə olaraq **MÜSTƏQİLLİK** prinsipi müəyyən edilmişdir.

| | | | |
|---|---|---|---|
| S N | Xidmət | Təhlükə | Qeyd |
| 1 | Xidmət haqları və ya digər mükafat növləri | şəxsi maraq və ya hədələnmə təhlükəsi | |
| 2 | Təminat xidmətləri sifarişçisindən hədiyyələrin və ziyafətlərin qəbul edilməsi | şəxsi maraq, yaxınlıq və ya hədələnmə təhlükəsi | |
| 3 | Təminat xidmətinin sifarişçisi ilə məhkəmə prosesi baş verdikdə və ya baş vermə ehtimalı olduqda | şəxsi maraq və hədələnmə | |
| 4 | Təminat xidmətlərinin sifarişçisinə maddi marağının olması | şəxsi maraq təhlükəsi | |
| 5 | Təminat xidmətləri sifarişçisi ilə kredit və ya kredit zəmanəti | şəxsi maraq təhlükəsi | |
| 6 | Təminat xidmətləri sifarişçisi və ya onun rəhbərliyi ilə yaxın işgüzar münasibətlər | şəxsi maraq və ya hədələnmə | |
| 7 | Sifarişçinin heyəti ilə ailə münasibətləri və ya şəxsi münasibətlər | şəxsi maraq, yaxınlıq və ya hədələnmə təhlükəsi | |
| 8 | Təminat qrupunun üzvü son zamanlarda təminat xidmətləri sifarişçisinin direktoru, vəzifəli şəxsi və ya işçisi kimi fəaliyyət göstərmişdirsə | şəxsi maraq, özünüyoxlama və ya yaxınlıq təhlükəsi | |
| 9 | Təminat xidmətləri sifarişçisinin direktoru və ya vəzifəli şəxsi kimi fəaliyyət göstərməsi | özünüyoxlama və şəxsi maraq | |
| 10 | Təminat xidmətləri sifarişçisi ilə əmək münasibətləri | şəxsi maraq, yaxınlıq və ya hədələnmə təhlükəsi | |
| 11 | Hər hansı bir şəxs təkrarlanan xarakterli təminat tapşırığının yerinə yetirilməsində uzun müddət ərzində iştirak etdikdə | yaxınlıq və şəxsi maraq təhlükələri | |

# DİQQƏTİNİZƏ GÖRƏ MİNNƏTDARIQ !!!

AZ 1072, Bakı şəhəri, S.Y.Bakuvi küçəsi, 14.
Telefon: 465-65-35; 465-65-48; 498-28-55
E-mail: audit-azerbaijan@audit.gov.az
http:www.audit.gov.az

***Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, “SR Audit Solutions” MMC-nin direktoru,***

***Səftər VƏLİZADƏ***

Hörmətli həmkarlar,

Konfrans ərzində səsləndirilən dəyərli fikirlərə görə hər birinizə təşəkkür edir və bütün bu fikirlər bir daha onu təsdiq edir ki, ƏL/TM qarşı mübarizə həm dünya ölkələri, həm də ayrı-ayrı peşə sahiblərinin birgə işini tələb edir. Bu sahədə müstəqil auditin özünəməxsus potensial imkanları vardır. Bu imkanlar həm ənənəvi audit xidmətlər çərçivəsində, həm də auditin innovativ istiqamətləri baxımından yanaşma lazımdır. Ənənəvi audit xidmətlər çərçivəsində MHBS-nin tələblərinə uyğun olaraq iqtisadi mahiyyətin hüquqi formadan üstünlüyü, ədalətli təqdimat və digər prinsiplər əsasında təsdiqlənən tapşırıqları yerinə yetirən auditorların peşəkar mühakiməsi ilə müəyyən olunur. Başqa sözlə, auditor iqtisadi mahiyyətin hüquq formadan üstünlüyünü qiymətləndirərkən aparılmış əməliyyatlar iqtisadi və faktiki mahiyyət daha çox əhəmiyyət kəsb edir, nəinki hüquqi mahiyyət, yəni sənədləşdirilmiş və istənilən məzmun verilmiş formasından.

Eyni zamanda ədalətli təqdimat çərçivəsində öz işini yerinə yetirən auditorlar üçün maraqlı tərəflər arasında formalaşmış ədalətli dəyəri daha əhəmiyyət kəsb edir, nəinki onun sənədləşdirilmiş dəyəri. Maliyyə hesabatlarının təsdiqini həyata keçirən auditor əməliyyatları iqtisadi mahiyyəti araşdırarkən əsas məqsəd maliyyə hesabatlarını təsdiq etməkdir. Lakin bu addımlar ƏL/TM-ə qarşı mübarizədə də əhəmiyyətli ola bilir.

Bundan başqa auditin yeni xidmət nönü ƏL/TM auditi də mövcuddur ki, bu zaman auditorların əsas məqsədi audit subyektində ƏL/TM-lə bağlı siyasəti, qaydaları, daxili nəzarəti qiymətləndirmək və eyni zamanda nəzarət orqanının təqdim olunan hesabatlarının düzgünlüyünü təsdiq etməkdən ibarətdir. Belə bir audit nəticəsində subyekt daha effektiv daxili nəzarət sistemini təşkil edir və nəzarət orqanına təqdim olunan hesabatları dəqiqləşdirilmiş formada təqdim edir.

**Hörmətlə,**

**Səftər Vəlizadə**

*Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında ƏL/TMM üzrə komitəsinin sədri, "VXA Audit" MMC-nin direktoru*

*Elçin QURBANOV*

## ƏL TMM fəlsəfəsi və bu barədə ictimai şüurun formalaşdırılması

**Sərbəst mövzu ilə.**

**Hər kəsi salamlayıram, konfransın işinə və gələcək nəticələrinə uğurlar arzu edirəm !**

İqtisadiyyat planetlər, maliyyə isə günəşdir, hansı ki, planetlər günəşin ətrafında dövr etdiyi kimi iqtisadiyyat da maliyyənin ətrafında dövr edir. Monetarizmin iqtisadiyyat barədə cızdığı obrazlı rəsm.

Bəli, qloballaşan dünya ilə birlikdə iqtisadi sistemlər də qarşılıqlı inteqrasiya prossesi keçir, onun əsas aləti sayılan maliyyə sistemi də öz sərhədlərini və imkanlarını genişləndirir. Bir zaman natural təsərrüfat məhsullarının mübadiləsi ilə təməli qoyulmuş təsərrüfat münasibətlərinin eramızdan əvvəl 5-ci əsrə təsadüf edən əmtəə-pul mübadiləsinə keçidindən başlamış sənaye inqlabları dövrünün iqtisadi doktrinasında yer alan Merkantilizm cərəyanının tədricən azad bazar münasibətlərinə, liberal iqtisadiyyata və bütün dünya maliyyə sisteminin beynəlxalq əsaslarla idarəçiliyi mərhələsinə qədər uzun yol keçən və zaman-zaman tarixi siyasi hadisələrin təsirlərinə məruz qalan iqtisadiyyat yəni xalqların təsərrüfat fəaliyyəti sahəsi dövri olaraq mürəkkəb problemlər kompleksləri ilə üzləşir, mərhələli inkişaf yolu keçir, təkmilləşir, özünün daima yenilənən elmi-hüquqi bazasını yaradır. **Lakin sistemlər mürəkkəbləşsə də bəzi məqsədlər dəyişməz olaraq qalır və daha fərqli formada, daha geniş ölçüdə və coğrafiyalarda cərəyan edir.** Təmərküzləşən maliyyə institutlarının fəaliyyəti və idarəçilik sistemləri inkişaf etdikcə problemlər də inkişaf edir. Təəssüflər olsun ki, maliyyə vəsaitlərindən və digər əmlakdan məkirli siyasi məqsədlər üçün də istifadə halları dövrümüzün çox ciddi problemlərindən birinə çevrilib və ictimai həyatın nizamının pozulması, şiddət, dini radikalizm, ekstremizm, cəmiyyəti qorxu və həyəcan içərisində saxlayan terror, kütləvi qırğın silahlarının coğrafiyasının genişlənməsi, insanlığa qarşı törədilən bu qəbil bütün cinayətləri hərəkətə gətirən alət kimi istifadə olunur. Bu gün dünyada yaranan siyasi entropiya, fəlsəfəsi ümumbəşəri dəyərlərə söykənən beynəlxalq qurumların fəaliyyətinə də mənfi təsir göstərir. Məlum olduğu kimi ƏL TMM yalnız Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması deyil, terrorçuluq və onun maliyyələşdirilməsi, kütləvi qırğın silahlarının coğrafiyasının genişləndirilməsi və s kimi insanlığa qarşı cinayətlərlə mübarizəni özündə ehtiva edir. **Həqiqətən də dünyada baş verən əksəriyyət münaqişələrin əvvəlində terror dayanır. Müharibələr də münaqişlər də terrorla alovlandırılır**.

ƏLTMM beynəlxalq səviyyədə həyəcan təbilini səsləndirən və müvafiq qurumları dünyada əminamanlığın, sülhün, asayişin, ictimai-siyasi sabitliyin və sosial ədalətin qorunması üçün səfərbər edən platformadan çıxış edir. Ayrıca qeyd etmək istəyirəm ki, Azərbaycan ƏLTMM sahəsində qısa müddətdə yüksək uğurlar əldə edən ölkələr sırasındadır.

FATF-in **(Financial Action Task Force)** müəyyən etdiyi standartların tətbiqi, MONEYVAL komitəsi tərəfindən dövlətlərin ayrı-ayrılıqda ƏLTMM mühiti öyrənilməsi, aparılan qiymətləndirmələr, yeni indikatorların xüsusiyyətlərinin təhlili və tətbiqi, beynəlxalq standartların və tələblərin icra səviyyəsinə daimi nəzarət mexanizmi şübhəsiz ki, effektiv və işgüzar sferada mübarizənin təşkilidir. Lakin ƏL TMM üçün cəmiyyətin hər bir üzvünün qoşulmasını təmin etmək, kütləviləşdirilmək, ideoloji mübarizəyə çevirmək, səbəblərə yönəltmək, bu sahədə daha yüksək uğurların əldə edilməsinə şərait yarada bilər. Səbəblərlə mübarizə aparmağın mükəmməl yolu ideoloji maarifləndirmə və təbiliğat işidir.

Mən bütün məsələlərə kritik və rasional yanaşmağa üstünlük verirəm. Bu təcrübə problemə yaradıcı yanaşmağın ən mükəmməl formasıdır.

ÜML Heydər Əliyevin hər kəs üçün nümunə ola biləcək problemə yanaşma tərzinin çox qısaca imperativ formulasını xatırlamaq yerinə düşər. O,deyərdi ki, “**Problem varsa, deməli həll olunmalıdır**” Məsələ ondadır ki, ƏLTMM elə bir sahədir ki, cəmiyyətin hər bir üzvü onun təsir subyekti dairəsinə düşə bilər. Bilərəkdən və ya bilməyərəkdən cinayətin iştirakçısı ola bilər. Böyük əksəriyyət müəyyən maraqlar çərçivəsində belə cinayət əməllərinin iştirakçısına çevrilə bilir. Ona görə də ictimaiətin maarifləndirilməsi və təbliğat işi ƏL TMM sahəsində hökmən təşkil olunmalıdır.

Bu işi isə daimi olaraq mətbuat, incəsənət, ədəbiyyat və televiziya vasitəsilə həyata keçirmək olar. Problem maddi ehtiras doğuran maraqları özündə ehtiva etdiyi üçün etikadan daha yüksək prinsiplər mübarizə üçün təsir qüvvəsinə malik ola bilməz. Nəzərə almaq lazımdır ki, hər kəs yalnız öz əxlaqına uyğun qanunlara əməl edə bilir. Qanuna əməl etmək qanunu əxlaq predmetidir. **Əxlaq isə hər bir şəxsin daxili intizamıdır**.

Dövrümüzün ən böyük bəlası pul, gəlir və qazancın insanların əsas dünya görüşünə çevrilməsidir. Bu da öz növbəsində böyük əksəriyyətin ələ alınması üçün münbit şəraitin olması deməkdir. Bu mərəzlə mübarizədə ən təsirli metod ideoloji maarifləndirmə metodudur.

Şəxsi təcrübəmə əsaslanaraq deyə bilərəm ki, ayrı-ayrı şəxslərin hesablarına köçürülən pul vəsaitlərinin nağdlaşdırılması və ya dolayı əməliyyatlarla izinin itirilməsi, nağd formada pul vəsaitlərinin qanunsuz yerdəyişməsi halları bir çox ölkələrdə geniş yayılıb. Terrorçuluq və terrorçuluğun maliyyələşdirilməsi məqsədilə sadə vətəndaşların xidmətlərindən əlverişli vasitə kimi istifadə olunur. İnsanlar (sadə vətəndaşlar) uyğunluq, eyinləşdirmə və verifikasiya tədbirləri aparmaq, həqiqi benifisiarı müəyyən etmək iqtidarında deyillər. Onlar bu cinayətin mahiyyətini anlamaya bilərlər.

Cəmiyyətin hər bir üzvü bilməlidir ki, bu gün nə yolla olursa olsun qazanc əldə etməyə yönəlik qanunsuz fəaliyyətlər sabah doğmalarını, yaxınlarını, soydaşlarını, doğma vətənini terror təhlükəsi ilə qarşı-qarşıya qoyaraq, cəmiyyətin təhlükəsizliyinə zərbə vura bilər. Heç bir qazanc insanlıq əleyhinə fəaliyyətdən əldə olunmamlıdır. Xalqını, doğmalarını və səadətini pul və qazanca köklənmiş dünya görüşünə qurban vermək cəhalət və ən böyük xəyanətdir.

**Minlərlə insanlar naməlum ünvandan onlara gələn pul vəsaitlərinə ehtiraslı münasibətlərinə görə terror və xarici kəşfiyyat alətinə çevrilibər. Onlar müxtəlif kəşfiyyat məlumatlarının xaricə ötürülməsinə, terror təşkilatlarına yardım etməyə məcbur ediliblər.**

**Halbu ki, vətəndaşın ünvanına gələn pul vəsaitinin ona aid olmadığı barədə əvvəlcədən hüquq mühafizə orqanına məlumat verməməsi sonradan onun terrorçuların və ya xarici kəşfiyyatın xidmətçisinə çevirəcəyini təxmin etməliydi. Oxşar hadisələr bu gün də dünyanın müxtəlif guşələrində müxtəlif dizaynlarda həyata keçirilir.**

Hörmətli dinləyicilər, İdeoloji mübarizənin nə qədər böyük təsirə malik olduğuna dair çoxsaylı tarixi misallar var. Vaxtilə Cenevrə Papası Jan Kalvinin sonradan burjuaziyanın ideoloji təməllərinə çevrilən təlimi iki ziddiyyətli dünya görüşünü, din və dünya həyatı arasında ayrılmaz bağlar yaratdığı kimi cəmiyyətdə də iqtisadi davranış və əxlaq məsələləri ideoloji cəhətdən həll olunmalıdır. Necə ki, o zaman Protestantlığın Kalvinizm cərəyanı sonradan bütün avropa burjuaziyasının sıçrayışlı inkişafına səbəb oldu. Doğrudur avropa teokratiyasının çiçəklənməsi başa çatsa da protestanlığın Kalvinizm cərəyanın ideoloji və praktiki təlimindən formalaşan mədəniyyəti avropa adamının mənəviyyatında dərin izlər salmış və uzun müddət öz təsirini saxlaya biləcəkdi. Bu böyük Maks Veberin kapitalizm və demokratiyanın birgə inkişafı üçün əməyin Kapitalist etikası haqqında məntiqli qənaətidir. Təməl prinsipləri kimi quşların uçmaq üçün yarandığı kimi, insanın da zəhmət üçün yaradıldığı, müqəddəsliyə gedən yolun isə yalnız zəhmətdən və halallıqdan keçdiyi, pulun isə dövriyyədə iştirakının vacibliyi, milli məhsulun yaranmasında iştirakı öz təməlini səmavi hikmətlərdən götürən ideologiyaya çevirə bildi. Halbu ki, o dövrdə bütün dünyaya açılan informasiya texnologiyaları yox idi. Bu gün informasiya yayımları üçün intelektual resurslar və vasitələr çox yüksək səviyyədə inkişaf edib.

Bütün bunlara rəğmən deyə bilərəm ki, ƏLTMM məsuliyyətlərini yalnız maliyyə institutlarının və nəzarət qurumlarının üzərinə qoymaq olmaz. Bu işi heç kəsin əmlakı üzərində sahiblik, istifadə və sərəncam vermək hüquqlarını məhdudlaşdırmadan daha təsirli və insanların şüurlu şəkildə qəbul edə biləcəyi yeni humanitar fəlsəfə və etik ideoloji proqram yaratmaqla mübarizənin imkanlarını ən yüksək səviyyəyə çatdırmaq olar. Bu yolla hər bir maliyyəçi, əmlakçı, öhdəlik daşıyan şəxslər, vətəndaşlar və bütün insanlar ƏLTMM barədə elə bir xüsusi etikaya yiyələnə bilərlər ki, şübhəli hallara göz yummadan vəziyyəti ayıq-sayıq və sağlam düşüncə ilə qiymələndirərək, mübarizəni mənəvi borc kimi dərk etsinlər.

Bunun üçün də ƏLTMM-in yeni siyasi fəlsəfəsi ictimai şüurun yaradılmasına yönəlik yüksək etik prinsipləri , ümumbəşəri dəyərləri, insan faktorunu, Tanrı və inanc məsələlərini özündə ehtiva edən etik proqram əsasında təşkil olunmalıdır. Proqram geniş təbliğat üzərində qurularsa ictimai şüur və insanların dünya görüşü dəyişə bilər, mənəvi boşluqlar aradan qalxar və uğurlu nəticələr əldə etmək mümkün olar. Sözlərimi qədim Çinin 300 ildən artıq dövlət fəlsəfəsinin banisi Konfutsinin sözləri ilə yekunlaşdırmaq istəyirəm. "Qanun və gücün tətbiqi ifrata varmaqdır, insanlarda sevgi və vicdan hissi oyatmaqla onları idarə etmək doğrudur"

Təşəkkür edirəm diqqətinizə görə !










UNITED STATES OF AMERICA
FB74402009
Secretary of the Treasury.
FEDERAL RESERVE


HF 32460735 B
HF 32460777 B
ONE HUNDRED DOLLARS
FEDERAL RESERVE NOTE
THIS NOTE IS LEGAL TENDER FOR ALL DEBTS, PUBLIC AND PRIVATE

*Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, Sərbəst auditor*

*Şamxal KƏRİMOV*

# ƏL/TMM-DƏ SÜNİ İNTELLEKTİN TƏTBİQİ VƏ ONUN KADR TƏMİNATI

SƏRBƏST AUDİTOR – KƏRİMOV ŞAMXAL VƏLİ OĞLU

## *MÖVCUD PROBLEMLƏR VƏ ÇƏTİNLİKLƏR*

Beynəlxalq təhlükəsizlik və maliyyə sabitliyini qorumaq, həmçinin qanun pozuntularının qarşısını almaq məqsədilə **cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması** (pul yuyulması) və **terrorçuluğun maliyyələşdirilməsi** ilə mübarizə artıq qlobal bir məsələ halına gəlib. Bugünkü reallıqda bu risklər daha mürəkkəb, gizli və sürətli şəkildə həyata keçirilir. Müxtəlif ölkələr bu məsələlərə qarşı hüquqi, maliyyə və texnoloji tədbirlər alır, lakin müasir dövrün çağırışlarına cavab vermək üçün daha effektiv yanaşmalara ehtiyac duyulmaqdadır. XXI əsrdə cinayətkarlar yalnız fiziki deyil, həm də **rəqəmsal məkanlarda** fəaliyyət göstərir. Bu səbəbdən, **ənənəvi nəzarət metodları artıq kifayət etmir**.

| | | | | |
|---|---|---|---|---|
| - Pul yuyulması prosesi yalnız ölkə daxilində deyil, həm də beynəlxalq miqyasda həyata keçirilir. **Beynəlxalq bankçılıq**, **ofşor hesablar**, **kriptoaktivlər** və **ticarət fəaliyyətləri** pul yuyulmasının həyata keçirilməsi üçün istifadə olunan əsas vasitələrdir. | - 2019-cu ildə **Beynəlxalq Valyuta Fondu (IMF)** tərəfindən təqdim olunan hesabatda qeyd edilir ki, dünyada hər il **2 trilyon ABŞ dolları** qədər qanunsuz maliyyə əməliyyatları həyata keçirilir ki, bu da qlobal maliyyə sistemini böyük dərəcədə təhdid edir. | - Bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr pul yuyulmasının qarşısını almaq üçün çoxsaylı təşəbbüslər həyata keçirirlər. **FATF** (Financial Action Task Force) kimi təşkilatlar, ölkələrin qanunvericiliyini və maliyyə nəzarətini mütəmadi olaraq qiymətləndirir. Lakin, təəssüf ki, hər il yüzlərlə yeni texnologiya yaranır ki, bu da cinayətkarların yeni üsullar yaratmasına imkan verir. | - Terror təşkilatları maliyyə resurslarını müxtəlif ölkələrdən əldə edərək öz fəaliyyətlərini dəstəkləyirlər. Bu fəaliyyətlər çox vaxt qanuni və qeyri-qanuni mənbələrdən, o cümlədən **xeyriyyə təşkilatları**, **investisiya layihələri** və hətta **kripto valyutalar** vasitəsilə maliyyələşdirilir. **Beynəlxalq Cinayət Məhkəməsi** (ICC) terrorçuluğun maliyyələşdirilməsini, beynəlxalq təhlükəsizliyi təhdid edən əsas fəaliyyətlərdən biri kimi qəbul edir. | - Beynəlxalq təcrübə göstərir ki, terrorçuluğun maliyyələşdirilməsi məsələsi bəzən qanuni təşkilatlar arasında gizlənmiş şəbəkələrlə əlaqələndirilir, bu da qarşısını almaq üçün **inzibati nəzarət** və **konsolidasiya olunmuş informasiya mübadiləsi** tələb edir. |

## SÜNİ İNTELLEKT NƏDİR VƏ NİYƏ BU QƏDƏR VACİBDİR?

Süni intellektin ƏLTMM sahəsində tətbiqi xüsusilə **maqnetik öyrənmə (machine learning)** və **dərin öyrənmə (deep learning)** müxtəlif istiqamətlərdə geniş imkanlar açır.

Süni intellekt — böyük həcmli məlumatların analizində, şübhəli əməliyyatların aşkar edilməsində və risklərin proqnozlaşdırılmasında auditorlara və monitorinq orqanlarına güclü dəstək verə bilər. İnsan təfəkkürünü təqlid edən alqoritmlər sistemidir. O, məlumat toplamaq, onları təhlil etmək, qərar vermək və hətta öyrənmək qabiliyyətinə malikdir. Əməliyyatların analizi sürətinin 100 dəfə artması və saxtakarlığın aşkarlanmasının dəqiqliyində 60-85% yaxşılaşma vəd edir (McKinsey tədqiqatı).

İnformasiyanın və texnologiyaların sürətli inkişafı, xüsusən **süni intellekt (Sİ)**, bu sahədə həyata keçirilən mübarizəni köklü şəkildə dəyişdirə bilər. Sİ, çox böyük məlumatların təhlilində yüksək sürət və dəqiqlik təmin etməklə, hüquq-mühafizə orqanlarına və maliyyə qurumlarına **real vaxtda məlumat analizi** və **proqnozlaşdırma** kimi imkanlar təqdim edir. Lakin bu potensialdan tam yararlanmaq üçün adekvat kadr təminatı da mühüm şərtdir.

## SÜNİ İNTELLEKTİN ƏLTMM ÜZRƏ TƏQDİM ETDİYİ İMKANLAR

*1. Şübhəli Əməliyyatların Aşkar Edilməsi:*
- Sİ alqoritmləri milyonlarla əməliyyatı real vaxt rejimində təhlil edərək (Big Data) qeyri-adi tendensiyaları, məbləğləri və tərəfləri müəyyən edə bilir. Məsələn, qısa zaman ərzində çoxsaylı kiçik məbləğlərin müxtəlif hesablara köçürülməsi və ya əksinə, böyük məbləğlərin mənşəyi şübhəli olan hesablara daxil olması kimi halları Sİ avtomatik olaraq qeydə alır.
- Eyni malın dəfələrlə müxtəlif qiymətlərlə tranzit ölkələr vasitəsilə keçməsi və ya real iqtisadi məqsədi olmayan kompleks ticarət zəncirləri Sİ tərəfindən qeydə alına bilər.
- Sİ, sosial media platformalarında şübhəli maliyyə fəaliyyətləri ilə əlaqəli ola biləcək söhbətləri, qrupları və ya maliyyə çağırışlarını (məsələn, piramida sxemləri, qeyri-qanuni investisiya təklifləri) aşkar edə bilər.

*2. Müştəri Tanıma Prosesinin Gücləndirilməsi (KYC/AML):*
- Sİ-əsaslı vizual təhlil alqoritmləri, dərin saxtakarlıq (deepfake) texnologiyası ilə yaradılmış saxta şəxsiyyət sənədlərini və ya video-identifikasiya proseslərindəki manipulyasiyaları aşkar edə bilir.
- Sİ, müştəri məlumatlarını daim yenilənən məlumat bazaları (sanksiya siyahıları, PEP siyahıları və s.) ilə avtomatik olaraq müqayisə edərək risk səviyyəsindəki dəyişiklikləri real vaxt rejimində müəyyən edə bilir. Bu, hadisədən sonra deyil, hadisə baş verməmədən əvvəl müdaxilə etmək imkanı yaradır.
- Sİ, mürəkkəb korporativ strukturları təhlil edərək gizli benefisiar sahiblərini və nəzarət zəncirlərini aşkar etməyə kömək edir. Qraf nəzəriyyəsi və maqnetik öyrənməsi alqoritmləri bu məqsəd üçün effektivdir.

## SÜNİ İNTELLEKTİN ƏLTMM ÜZRƏ TƏQDİM ETDİYİ İMKANLAR (DAVAMI)

***3. Risklərin Qiymətləndirilməsi və Proqnozlaşdırılması***
- Sİ, müxtəlif iqtisadi sektorlardakı maliyyə axınlarını, tənzimləyici dəyişiklikləri və geosiyasi hadisələri təhlil edərək ƏLTMM risklərinin yüksək olduğu sahələri proqnozlaşdıra bilər.
- Müştərilərin əməliyyat tarixçəsini və davranış nümunələrini təhlil edən Sİ, qeyri-adi davranışları (məsələn, birdən-birə böyük məbləğlərin köçürülməsi, yeni riskli ölkələrlə əlaqələrin yaranması) aşkar edərək potensial riskləri erkən mərhələdə müəyyən edə bilir.
- Sİ, açıq mənbələri (internet forumları, sosial media, xəbər agentlikləri) və maliyyə məlumatlarını təhlil edərək terror təşkilatlarının yeni maliyyələşmə üsullarını, kanallarını və texnologiyalarını (məsələn, kriptovalyutaların istifadəsi, ianə platformaları) müəyyən edə bilər.

***4. Hesabatlılıq və Uyğunluq Təminatı***
- Sİ, müxtəlif tənzimləyici orqanların tələblərinə uyğun hesabatları avtomatik olaraq yarada və təqdim edə bilir. Bu, insan səhvlərini azaldır və hesabatlılıq prosesini sürətləndirir.
- Sİ, böyük həcmdə maliyyə məlumatlarını sürətli şəkildə təhlil edərək potensial uyğunsuzluqları və riskləri müəyyən edərək audit proseslərini daha effektiv edir.

## *Kadr Təminatının Genişləndirilməsi*

- **Sİ üzrə Ekspertlərin Qıtlığı (Səbəblər və Nəticələr):** Bu qıtlığın səbəbləri arasında Sİ sahəsinin sürətli inkişafı, tələbatın təklifi üstələməsi və ƏLTMM sahəsinin spesifik tələblərini anlayan Sİ mütəxəssislərinin azlığı daxildir. Nəticədə, ƏLTMM təşkilatları Sİ layihələrini həyata keçirməkdə çətinlik çəkir və mövcud resursları effektiv şəkildə istifadə edə bilmirlər.

- **Sahə Bilikləri ilə Sİ Biliklərinin İnteqrasiyası (Təhsil və Təlim Metodları):** Bu inteqrasiyanı təmin etmək üçün interdisiplinar təhsil proqramları, birgə təlimlər və işlək qrupları yaradılmalıdır. Auditorlar və ƏLTMM mütəxəssisləri üçün Sİ-nin əsas prinsipləri, alqoritmləri və tətbiq sahələri üzrə praktik təlimlər təşkil edilməli, Sİ mütəxəssisləri isə maliyyə cinayətləri, terrorizmin maliyyələşdirilməsi üsulları və tənzimləyici tələblər barədə məlumatlandırılmalıdır.

- **Davamlı Təlim və İnkişaf (Öyrənmə Platformaları və Resurslar):** Sürətli texnoloji dəyişikliklərə uyğunlaşmaq üçün onlayn öyrənmə platformaları, interaktiv kurslar, sənaye konfransları və təcrübə mübadiləsi proqramları kimi davamlı təlim resursları əksikliyi var. Mikro-öyrənmə (microlearning) formatları və fərdi öyrənmə yolları da effektiv ola bilər.

- **Etik Məsələlər və Məxfilik (Hüquqi Çərçivə və Təlim):** Sİ sistemlərinin istifadəsi zamanı yaranan etik dilemmaları (qərəzlilik, şəffaflıq, izahat verə bilmə) həll etmək üçün aydın hüquqi və etik çərçivələr hazırlanmalı və bu məsələlər üzrə xüsusi təlimlər keçirilməlidir. Məlumatların qorunması və məxfiliyi prinsiplərinə ciddi riayət olunmalıdır.

## Süni İntellektin Tətbiqi və Kadr Təminatının Genişləndirilməsi üzrə İmkanlar

**- Yeni İş Yerlərinin Yaradılması (Rol və Təsvirlər):** Yaranacaq yeni iş rollarına Sİ analitikləri (böyük həcmdə maliyyə məlumatlarını təhlil edən və şübhəli fəaliyyətləri müəyyən edən), məlumat alimləri (ƏLTMM üçün xüsusi Sİ modelləri hazırlayan və təkmilləşdirən), kibertəhlükəsizlik üzrə mütəxəssislər (Sİ sistemlərinin təhlükəsizliyini təmin edən) və Sİ etikası üzrə ekspertlər (Sİ tətbiqinin etik və hüquqi aspektlərinə nəzarət edən) daxildir. Bu rolların dəqiq vəzifə təsvirləri hazırlanmalıdır.

**- İşin Effektivliyinin Artırılması (Avtomatlaşdırma və Optimizasiya):** Sİ, məlumatların daxil edilməsi, yoxlanılması, hesabatların hazırlanması kimi rutin işləri avtomatlaşdıraraq insan resurslarını daha strateji və analitik vəzifələrə yönləndirməyə imkan verir. Proseslərin optimallaşdırılması nəticəsində cavab müddəti qısalır və resurslardan daha səmərəli istifadə olunur.

**- Daha Güclü Mübarizə İmkanları (Proaktiv Tədbirlər və Yeni Alətlər):** Sİ-nin proqnozlaşdırma qabiliyyəti sayəsində ƏLTMM tədbirləri reaktiv deyil, proaktiv xarakter daşıyır. Yeni Sİ-əsaslı alətlər (məsələn, qraf analizi, təbii dil emalı, maşın öyrənməsi platformaları) maliyyə cinayətlərinin və terrorizmin maliyyələşdirilməsinin aşkarlanmasında və qarşısının alınmasında daha effektiv nəticələr verir.

**- Beynəlxalq Əməkdaşlığın Gücləndirilməsi (Məlumat Mübadiləsi və Standartlar):** Sİ texnologiyaları beynəlxalq səviyyədə təhlükəsiz və standartlaşdırılmış məlumat mübadiləsi platformalarının yaradılmasına kömək edir. Bu, müxtəlif ölkələrin ƏLTMM qurumları arasında əməkdaşlığı gücləndirir və transsərhəd maliyyə cinayətlərinə qarşı mübarizəni asanlaşdırır.

## ƏLTMM sahəsində Sİ-in uğurlu tətbiqi və adekvat kadr təminatı üçün təkliflər

**1. Təhsil Proqramlarının İnkişafı (Konkret Tədbirlər):**

Universitetlərlə əməkdaşlıq edərək "Maliyyə Texnologiyaları və Süni İntellekt", "Rəqəmsal Audit və Təhlükəsizlik" kimi yeni bakalavr və magistr proqramları yaradılmalı.

Mövcud maliyyə, audit və hüquq fakültələrinin tədris planlarına "Süni İntellektin ƏLTMM-də Tətbiqi", "Big Data Təhlili" və "Kiber Təhlükəsizlik" kimi fənlər daxil edilməli.

Tələbələr üçün praktiki laboratoriyalar və real case study-lər təşkil edilməli.

**2. Peşəkar Sertifikasiya Proqramları (Məzmun və Qiymətləndirmə):**

"ƏLTMM üzrə Sİ Analitiki", "Maliyyə Cinayətləri üzrə Məlumat Alimi" kimi yeni peşəkar sertifikasiya proqramları hazırlanmalı.

Sertifikasiya imtahanlarında Sİ alqoritmlərinin tətbiqi, məlumatların təhlili, risklərin qiymətləndirilməsi və etik məsələlər üzrə biliklər yoxlanılmalı.

Sertifikasiyanın davamlılığını təmin etmək üçün müntəzəm təkmilləşdirmə tələbləri müəyyən edilməli.

**3. Davamlı Təlim Kursları və Seminarlar (Formatlar və Əməkdaşlıq):**

Əlaqəli qurumlar tərəfindən Sİ-nin əsasları, machine learning, qraf analizi kimi mövzularda interaktiv onlayn kurslar, vebinarlar və praktiki seminarlar təşkil edilməli.

Beynəlxalq təlim mərkəzləri və Sİ şirkətləri ilə əməkdaşlıq edilərək qabaqcıl təcrübələrin öyrənilməsi təmin edilməli.

Təlimlərdə real ƏLTMM case study-ləri və Sİ tətbiqi nümunələri istifadə olunmalı.

## ƏLTMM sahəsində Sİin uğurlu tətbiqi və adekvat kadr təminatı üçün təkliflər (davamı)

**4. Sİ Mütəxəssisləri ilə Əməkdaşlıq (Platformalar və Təşviqlər):**

Əlaqəli qurumlar nəzdində Sİ mütəxəssisləri və ƏLTMM üzrə mütəxəssislərin bir araya gələcəyi işlək qrupları və platformalar yaradılmalı.

Birgə tədqiqat layihələri və pilot tətbiqlər üçün maliyyə və digər təşviqlər təmin edilməli.

Sİ startapları və texnologiya şirkətləri ilə əməkdaşlıq imkanları araşdırılmalı.

**5. Məlumat Mübadiləsi Platformalarının Yaradılması (Təhlükəsizlik və Standartlar):**

Məlumatların təhlükəsizliyini və məxfiliyini təmin edən, standartlaşdırılmış formatlarda məlumat mübadiləsinə imkan verən milli ƏLTMM məlumat platforması yaradılmalı.

Bu platformada Sİ alqoritmlərinin tətbiqi üçün lazımi infrastruktur təmin edilməli.

Beynəlxalq məlumat mübadiləsi platformaları ilə inteqrasiya imkanları araşdırılmalı.

**6. Tənzimləyici Çərçivənin İnkişafı (Qanunvericilik və Təlimatlar):**

ƏLTMM sahəsində Sİ tətbiqinin hüquqi əsaslarını müəyyən edən qanunvericilik aktları və təlimatlar hazırlanmalı.

Bu çərçivədə məlumatların qorunması, alqoritmik qərəzliliklə mübarizə, şəffaflıq və cavabdehlik prinsipləri nəzərə alınmalı.

## NƏTİCƏ

Süni intellektin ƏLTMM sahəsində tətbiqi maliyyə cinayətləri və terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizədə yeni imkanlar yaradır. Lakin bu imkanlardan tam yararlanmaq üçün yüksək ixtisaslı kadrların hazırlanması və davamlı inkişafı mühüm şərtdir. İnanıram ki, məhkəmə və cinayət təqibi orqanları, digər səlahiyyətli dövlət qurumları, nəzarət orqanları və özəl sektor arasında əməkdaşlıq imkanlarının yaradılması və mövcud əməkdaşlığın artırılması, eyni zamanda "Milli Fəaliyyət Planı"na da uyğun olaraq nəzərdə tutulan tədbirlərin sistemli və əlaqəli şəkildə həyata keçirilməsinə əlverişli şəraitin yaradılması sayəsində bu sahədə mühüm irəliləyişlərə nail ola biləcəyik.

*Pakistanın İmtiyazlı Mühasiblər İnstitutunun (ICAP) ƏL/TMM üzrə Müşahidə Şurasının üzvü, "JS Investments" şirkətinin vitse-prezidenti və maliyyə direktoru*

*Raheel REHMAN*

# AMC / CFT FOR ACCOUNTANTS




**May 24, 2025**

From the desk of Raheel Rehman

## BRIEF INTRODUCTION

### RAHEEL REHMAN

- AML / CFT Certified Professional
- Executive Vice President – CFO @ JS Investments Limited
- Board Member – ICAP AML Supervisory Board
- Member, FATF Coordination Committee, Government of Pakistan
- Ex-Director, AML Supervision Department, ICAP

# ‘ACCOUNTANT’ AND ‘TRUST & COMPANY SERVICE PROVIDER’

### “ACCOUNTANT”

Following activities falls under this category;

1. Buying and selling of real estate;
2. Buying and selling of business entities;
3. Managing of client money, securities or other assets;
4. Opening or management of bank, savings or securities accounts;
5. Organization of contributions necessary for the creation, operation or management of companies;
6. Creation, operation or management of legal persons or arrangements.

### “TRUST & COMPANY SERVICE PROVIDER”

Following activities falls under this category;

1. Forming Companies or other legal persons
2. Acting, or arranging for another person to act;
   - As a director or secretary of the company
   - As a partner of a partnership firm
   - In a similar capacity in relation to other legal persons
3. Providing a registered office, business address, correspondence or administrative address or other related services for a company, a partnership or any other legal person or legal arrangement;
4. Acting, or arranging for another person to act, as a trustee of an express trust or similar legal arrangement.

**From the desk of Raheel Rehman**

# PAKISTAN’S AML/CFT LEGAL FRAMEWORK

**Primary Law:**
- Anti-Money Laundering Act, 2010 (as amended)

**Key Regulators:**
- Financial Monitoring Unit (FMU)
- State Bank of Pakistan (SBP) (for banks and exchange companies)
- SECP (for other DNFBPs and financial institutions)
- FBR (for DNFBPs like accountants / Real Estate and Developers / Dealers of Precious metals and stones)
- ICAP (For Accountants)
- ICMAP (For Accountants)
- Pakistan Bar Council (For Legal Professionals)

**Other Relevant Laws:**
- Anti-Terrorism Act, 1997
- Companies Act, 2017

# ICAP AS AML / CFT REGULATOR – STRUCTURE & PROCESSES




# AML / CFT RISKS AND OBLIGATIONS




## Accountants, Auditors & Legal Professionals

# OBJECTIVES OF THE SESSION

1. Understanding AML/CFT risks specific to Accountants / Auditors and Legal professionals.

2. Recognize regulatory obligations under FATF Recommendations

3. Identify how professional services can be misused for ML/TF.

## WHY ACCOUNTANTS ARE VULNERABLE TO ML/TF

**FATF VIEW:** *Gatekeepers such as lawyers and accountants are used to play a critical role in beneficial ownership determination, facilitating complex transactions, and integrating funds into the financial system." (FATF, Risk-Based Approach for Accountants, 2021)*

### Key factors increasing vulnerability

**Professional Privilege & Confidentiality**
- Criminals exploit the confidentiality obligations of lawyers and accountants to hide illicit activities.
- Professional secrecy can create barriers to disclosure, delaying detection.

**Creation of Complex Structures**
- Formation of trusts, shell companies, offshore vehicles — often used to obscure beneficial ownership.
- Layers of legal and financial engineering make tracing money trails difficult.

**Control Over Financial Transactions**
- Professionals may handle client funds or provide advisory services that directly impact financial movements.
- Trust accounts are particularly susceptible.

**Perceived Lower Regulatory Scrutiny**
- DNFBPs, especially smaller firms, may not face the same rigorous oversight as banks and financial institutions.
- Criminals perceive these gaps as opportunities.

**Cross-Border Services**
- Globalized legal and accounting services increase exposure to jurisdictions with weak AML/CFT controls.
- Exploitation of regulatory arbitrage (choosing the most lenient jurisdictions).

**Reliance on Client Due Diligence**
- Professionals often rely heavily on information provided by the client without independent verification.

# AML / CFT RISKS SPECIFIC TO ACCOUNTANTS

## Key Risk areas and examples

**Corporate Structuring**
- Setting up legal entities used for money laundering or tax evasion.
- Example: Establishing multiple offshore companies to obscure ownership.

**Auditing & Assurance**
- Manipulation or falsification of financial statements.
- Example: Inflating asset values or concealing liabilities to legitimize illicit proceeds.

**Tax Advisory**
- Facilitating aggressive tax planning that borders on evasion.
- Example: Recommending opaque financial instruments to hide income or assets.

**Client Fund Management**
- Handling client monies through trust accounts.
- Example: Layering illicit funds through legitimate business transactions.

**Common Red Flags Accountants Should Watch For:**
- Unusually complex business structures.
- Clients reluctant to disclose beneficial ownership.
- Transactions inconsistent with the client's profile or industry norms.
- Requests to avoid regulatory reporting or oversight.

**Emerging Risks (FATF 2023-24):**
- Use of cryptocurrencies and digital assets in business transactions.
- Professional services offered entirely online, making KYC challenging.




# AML / CFT RISKS SPECIFIC TO ACCOUNTANTS / LEGAL PROFESSIONALS

## Key Risk areas and examples

**Real Estate Transactions**
- Facilitating property purchases without verifying the source of funds.
- Example: Use of high-value properties to launder proceeds from corruption or drug trafficking.

**Trust & Company Services**
- Creating trusts or corporate entities designed to obscure beneficial ownership.
- Example: Setting up nominee shareholders/directors without commercial justification.

**Client Account Management**
- Use of accountant's client accounts to receive or disburse funds, masking the transaction origin.
- Example: Funds wired into a client account from a high-risk jurisdiction with no clear reason.

**Litigation Funding**
- Criminals using lawsuits to legitimize illicit funds or disguise proceeds of crime.
- Example: Inflated settlements where part of the money is laundered.

**Common Red Flags Lawyers Should Watch For:**
- Clients insisting on confidentiality beyond legal requirements.
- Third-party payments without clear commercial reasoning.
- Reluctance to provide standard CDD/KYC documents.
- Requests to structure transactions unusually or obscure true ownership.

**High-Risk Services Identified by FATF:**
- Acting as nominee directors/shareholders.
- Holding client funds without clear purpose.
- Handling cross-border transactions with shell entities.



# HOW PROFESSIONALS CAN PREVENT ABUSE

**Conduct Enhanced Due Diligence (EDD)**
- Especially for high-risk clients, politically exposed persons (PEPs), and jurisdictions with weak AML regimes.

**Avoid Obscuring Ownership**
- Decline to participate in nominee arrangements or corporate structures designed to hide beneficial ownership.

**Decline Suspicious Business**
- Refuse services that lack legitimate commercial rationale or where the client resists due diligence.



**Training & Awareness**
- Regular AML/CFT training for all staff.
- Keep up to date with changing regulations and FATF updates.

**Proactive STR Filing**
- Don't hesitate to file Suspicious Transaction Reports (STRs) where red flags are observed — even if unsure.

**Internal Checks and Policies**
- Maintain strong internal controls, compliance audits, and independent review processes.

**Stay Informed**
- Monitor updates from FATF, FIU, International AML bodies and Local Regulatory Authorities.

# OBLIGATIONS UNDER FATF RECOMMENATIONS

**KEY OBLIGATIONS UNDER FATF RECOMMENDATIONS**

1. **Customer Due Diligence (CDD)**
   - Identify and verify clients' identity.
   - Understand the nature/purpose of the business relationship.
   - Identify beneficial ownership.
   - For high-risk clients: Conduct Enhanced Due Diligence (EDD).
2. **Record Keeping**
   - Maintain records of CDD, transactions, and internal decisions for at least five years.
3. **Suspicious Transaction Reporting (STR)**
   - Promptly report any suspicious transaction/activity to the Financial Intelligence / Monitoring Unit (FMU).
4. **Risk Assessment**
   - Conduct and document Risk-Based Assessments of clients, services, and transactions.
5. **AML/CFT Compliance Programs**
   - Appoint an AML Compliance Officer.
   - Develop written AML/CFT policies and procedures.
   - Provide ongoing staff training.
   - Independent Audit Function

# Customer Due Diligence (CDD) / Know Your Customer (KYC)

***Strengthening AML Compliance Frameworks***




## OBJECTIVES OF THE SESSION

1. Overview of CDD and KYC processes
2. Importance of transparency in financial relationships.
3. Key regulatory requirements and best practices.

# WHAT IS CDD / KYC

**CUSTOMER DUE DILIGENCE:**




- A process of identifying, verifying, and assessing the risks associated with a customer.
- It Involves ongoing efforts to monitor activities and ensure compliance with AML/CFT requirements.

**KNOW YOUR CUSTOMER:**

- A subset of CDD focused on verifying the identity of the customer.
- Ensures that institutions know who their clients are and understand their financial dealings.

**ROLE OF CDD / KYC IN AML COMPLIANCE:**

- **Mitigating Financial Risks:**
  - CDD and KYC processes help identify high-risk customers, preventing potential misuse of financial systems.
  - By establishing customer profiles, institutions can detect deviations from normal transaction patterns.
- **Enhance Operational Integrity:**
  - Transparent dealings foster stakeholder confidence.
  - Strengthens internal controls and risk management frameworks, aligning business operations with compliance goals.
- **Comply with Global Standards and Regulations:**
  - Aligns with FATF Recommendations 10, 22 and 23 and local laws, reducing the risk of non-compliance penalties.
  - Demonstrates a commitment to ethical business practices and corporate governance.

# WHAT IS CDD / KYC

**REGULATORY BASIS:**

Azərbaycan Respublikası Auditorlar Palatası sədrinin2024-cü il 16 yanvar tarixli 1/5 nömrəli «ƏL/TMM üzrə monitorinqlərin aparılmasına dair müfəttişlər qrupunun siyahısının təsdiq edilməsi haqqında» Sərəncamına əsasən aşağıdakı ƏL/TMM üzrə monitorinqlərin aparılmasına cəlb edilən auditorların siyahısı aşağıdakı tərkibdədir:

1. Alxaszadə Nigar Taleh qızı - sərbəst auditor
2. Əkbərov Elçin Ehtibar oğlu - “Consulting Group” MMC-nin direktor - auditoru
3. Hüseynzadə Dəyanət Telman - oğlu sərbəst auditor
4. Hüseynov Aydın Həsən oğlu - sərbəst auditor
5. Kərimov Şamxal Vəli oğlu - sərbəst auditor
6. Qurbanov Elçin İbad oğlu - “VXA Audit” MMC-nin direktor – auditoru
7. Mehdizadə Ramal Ramiz oğlu - “Modern Audit Servis” MMC-nin direktor - auditoru
8. Talıbov Vidadi Musa oğlu - “AUDİT EXPERT TV” MMC-nin direktor - auditoru



- Müfəttişlər qrupuna İdarə tərəfindən 15-dən çox və 5-dən az olmamaq şərti ilə müfəttişlər təyin edilir.
- Müfəttiş aşağıdakı hallarda ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqində iştirak edə bilməz:
  - Monitorinq olunan auditor xidməti göstərən şəxslərin işçisi olduqda və ya son üç il ərzində orada işlədikdə;
  - Monitorinq olunan auditor xidməti göstərən şəxslərin audit və ya digər işində son üç il ərzində iştirak etmiş olduqda;
  - Monitorinq olunan auditor xidməti göstərən şəxslər ilə əlaqədə aidiyyatı şəxs olduqda;
  - Qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda.

Müfəttişlər qrupunun üzvlərinə aşağıdakılar qadağandır:

- müfəttişlərin monitorinq zamanı lüzumsuz olaraq sənədlərin surətini çıxarması və özündə saxlaması
- monitorinq olunan müştəri profilinə baxış imkanı əldə etmiş Auditorlar Palatasının vəzifə borclarını yerinə yetirmələri üçün informasiyalardan və sənədlərdən istifadə etmək məcburiyyətində olan rəhbərləri və əməkdaşları istisna olmaqla üçüncü şəxslərə açıqlamaları və onlarla müzakirə etmələri.

Müfəttişlər qrupu aşağıdakı məsələlərə riayət olunub-olunmamasını qiymətləndirir:

- Auditor xidməti göstərən şəxlər tərəfindən risklərin aşkar edilməsi, qiymətləndirilməsi, idarə edilməsi, müvafiq monitorinq prosedurlarının seçilməsi və planlaşdırılması;
- Qanunun və digər normativ sənədlərin icrasının zəruri olduğu prosedurların həyata keçirilməsinin yoxlanılması.

## MONİTORİNQ ZAMANI KONFİDENSİALLIĞIN TƏMİN EDİLMƏSİ

- Müfəttişlər qrupu tərəfindən aparılan ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqi konfidensiallıq prinsiplərinə əməl olunmaqla yerinə yetirilir. İdarə və müfəttişlər qrupu auditor xidməti göstərən şəxslərə aid olan məlumatların konfidensialığını təmin edirlər. Məxfilik prinsipinə əməl etmək auditor xidməti göstərən şəxslər ilə münasibətlərin davam edib - etməməsindən asılı olmayaraq qeyri-məhdud müddətə məcburidir.
- Palata sədrinin əmrinə əsasən Auditorlar Palatası hər bir müfəttiş və İdarənin əməkdaşları ilə məxfilik və müstəqillik prinsiplərinə əməl edilməsinə görə "Konfidensiallıq Bəyannaməsi" bağlayır.
- Konfidensiallıq prinsiplərinə əməl olunması məqsədilə monitorinq zamanı müfəttişlər qrupu tərəfindən tərtib olunan monitorinq sənədlərində auditor xidməti göstərən şəxslərin sənədləri məxfi saxlanılmalıdır. Müfəttişlərin monitorinq zamanı lüzumsuz olaraq sənədlərin surətini çıxarması və özündə saxlamasına yol verilmir.
- Bütün monitorinq məlumatlarına müfəttişlər qrupu və İdarə tərəfindən konfidensiallıq təminatı verilir.



- İdarə və müfəttişlər qrupu ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqi zamanı əldə olunmuş məlumatlardan yalnız xidməti vəzifələrin icrasi üçün istifadə edir və məlumatların üçüncü şəxslərə bildirilməsi (ötürülməsi) üçün məsuliyyət daşıyırlar.
- Əldə edilmə mənbəyindən asılı olmayaraq maliyyə monitorinqi orqanına təqdim edilən məlumat və sənədlər məxfi və konfidensial saxlanılır, yalnız Qanunla nəzərdə tutulmuş məqsədlərin həyata keçirilməsi üçün istifadə edilir və qanunla müəyyən edilmiş sirlərin qorunması rejimi çərçivəsində qorunur.
- Sadalanan bəndlər qanuna müvafiq olaraq mətbuatda dərc olunan ictimai əhəmiyyətli hesab olunan məlumatlara aid edilmir.

## MÜFƏTTİŞLƏR QRUPUNUN VƏ İDARƏNİN MONİTORİNQ SƏNƏDLƏRİ

- ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinə dair monitorinq sənədlərinin forması – sorğu anketləri, qiymətləndirmə cədvəli, hesabat forması və sairə İdarə tərəfindən təsdiq olunur.
- ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqi dövründə müfəttişlər qrupu tərəfindən sorğu anketləri doldurulur və müfəttişlər qrupu ilə birlikdə İdarə rəisi tərəfindən imzalanır.
- Hər bir sorğu anketində müfəttişlər tərəfindən konkret olaraq "Bəli", "Xeyr" və ya "Qismən" ifadələri işlədilməlidir. Sorğu anketlərinin "Qeyd" sütununda monitorinq olunan auditor xidməti göstərən şəxslər tərəfindən təqdim edilmiş izahat və ya şərhlərə istinadlar qeyd edilir.
- Müfəttişlər qrupunun monitorinq sənədləri, həmçinin monitorinqə dair auditor xidməti göstərən şəxslər tərəfindən təqdim edilmiş izahat və şərhlər, müfəttişlər qrupunun hesabatı və İdarənin yekun hesabatı ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqi dosyesinə daxil edilir və İdarənin arxivində saxlanılır.
- Müfəttişlər qrupu bütün tərtib və icra edilmiş monitorinq sənədlərini İdarəyə təhvil verir. Monitorinq sənədlərinin təhvil verilməsi zamanı müfəttişlər qrupu jurnalda imza etməlidir.

## ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinin nəticələrinin qiymətləndirilməsi

**Monitorinqin nəticələrinin qiymətləndirilməsi üzrə auditor xidməti göstərən şəxslərə aşağıdakı üç uyğunluq reytinqi verilir:**

**tam tətbiq olunur**

**qismən tətbiq olunur**

**mövcud deyil**

**Uyğunluq reytinqinə müvafiq olaraq aşağıdakı əmsallar tətbiq edilir:**

| Uyğunluq reytinqləri | Risk qiymətləndirilməsi |
|---|---|
| Tam tətbiq olunur | Bəli |
| Qismən tətbiq olunur | Qismən |
| Mövcud deyil | Xeyr |

## ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinin nəticələrinin sənədləşdirilməsi və elan olunması

- ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinin nəticələri monitorinq keçirilməsi haqqında akt ilə rəsmiləşdirilir. Akt asan oxunmalı və aydın olmalı, nəticələri isə obyektiv və dəqiq faktlara əsaslanmalıdır.
- Akt iki nüsxədə hazırlanır, bir nüsxəsi monitorinq başa çatdığı tarixdən növbəti 7 (yeddi) iş günü müddətində auditor xidməti göstərən şəxslərə göndərilir, digər nüsxəsi isə İdarədə saxlanılır.
- Akt nəzarət orqanının icazəsi olmadan açıqlana bilməz Akt ilə yalnız auditor xidməti göstərən şəxslər tanış ola bilər.
- Akt monitorinqin başa çatdığı gündən ən azı 3 iş günündən gec olmayaraq monitorinqdə iştirak edən müfəttişlər qrupu tərəfindən tərtib edilərək müfəttişlər qrupu və auditor xidməti göstərən şəxslər tərəfindən imzalanır. Aktı imzalamış müfəttişlər qrupu aktda qeyd olunan məlumatların düzgünlüyünə görə məsuliyyət daşıyırlar. Monitorinq zamanı aşkar olunmuş pozuntu faktlarını təsdiq edən sənədlər akta əlavə edilir.
- Akt monitorinqdə iştirak etmiş müfəttişlər qrupu tərəfindən imzalandıqdan sonra onun bir nüsxəsi rəsmi təqdimetmə qaydasında və ya sifarişli poçt vasitəsilə auditor xidməti göstərən şəxslərə imzalanmaq üçün təqdim edilir. Auditor xidməti göstərən şəxslər 3 (üç) iş günü ərzində akt ilə tanış olur və onu imzalayaraq, rəsmi qaydada İdarəyə qaytarır. Bundan sonra aktın ikinci nüsxəsi alınmasını təsdiq edən üsulla auditor xidməti göstərən şəxslərə göndərilir.

- Aktın auditor xidməti göstərən şəxslər tərəfindən imzalanması auditor xidməti göstərən şəxslərin aktın məzmunu ilə tanış olması faktını təsdiq edir.
- Auditor xidməti göstərən şəxslər aktı imzalamaqdan və (və ya) onu almaqdan və (və ya) qaytarmaqdan imtina etdikdə, bu barədə müfəttişlər qrupu tərəfindən aktda müvafiq qeydlər edilir. Bu halda aktın bir nüsxəsi alınmasını təsdiq edən üsulla monitorinq başa çatdığı tarixdən növbəti 3 (üç) iş günü müddətində auditor xidməti göstərən şəxslərə təqdim olunur və ya bildirişli poçt vasitəsilə göndərilir.
- Monitorinqin nəticəsi üzrə auditor xidməti göstərən şəxslərdə İnzibati Xətalar Məcəlləsinin 598.9-cu və 598.10-cu maddələri ilə müəyyən edilmiş inzibati xəta aşkar edildikdən sonra həmin inzibati xəta ilə bağlı kifayət qədər vaxt tələb edən ekspertizanın və ya digər prosessual hərəkətlərin aparılması zərurəti yarandıqda monitorinq aktı təqdim olunduqdan sonra inzibati araşdırma aparılır.
- İnzibati araşdırmanın başlanması üçün İdarə tərəfindən Qərar qəbul edilir. İnzibati araşdırma prosesində auditor xidməti göstərən şəxslərin izahatlarının, həmçinin onların şəxsiyyətlərini təsdiq edən sənədlərin surətlərinin alınması təmin edilir.
- İnzibati araşdırma başa çatdıqdan sonra inzibati xəta haqqında protokol tərtib edilir və ya inzibati xəta haqqında işin icraatına xitam verilməsi barədə qərar qəbul edilir.
- Əyani monitorinq zamanı auditor xidməti göstərən şəxslərin fəaliyyətində cinayət əlamətləri aşkar edildikdə, toplanmış materiallar aidiyyəti istintaq orqanına göndərilir.

- Monitorinq nəticəsində aşkar olunmuş əhəmiyyətli nöqsan və çatışmazlıqların səbəbi faktlarla əsaslandırılmaqla, həmçinin bu nöqsan və çatışmazlıqların aradan qaldırılmasına dair auditor xidməti göstərən şəxslərin iş planı akta əlavə edilir.
- Əgər monitorinq olunmuş auditor xidməti göstərən şəxslər müfəttişlər qrupu tərəfindən tərtib edilmiş akt ilə narazıdırsa və İdarə rəisi tərəfindən qəbul edilmiş qərar onu qane etmirsə, o halda Palata sədrinə müraciət edərək yenidən müştəri profilinin qiymətləndirilməsini tələb edə bilər.
- Hazırlanmış akt ilə bağlı heç bir şikayət olmadığı təqdirdə akt təqdim edildikdən sonra 10 gün müddətində İdarə monitorinqin yekunlarına dair aktı və qəbul olunmuş qərarı Palata sədrinə təqdim edir. Aktın surəti fəaliyyəti monitorinq olunmuş auditor xidməti göstərən şəxslərə şəxslərə təqdim edilir və qəbul edilmiş qərar son nəticə kimi hesab edilir.
- Auditor xidməti göstərən şəxslərin ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqindən keçməsi barədə məlumat ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinə dair məlumat bazasına daxil edilir.
- ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinin nəticələrinin qiymətləndirilməsinə dair məlumat (konfidensial məlumatlar istisna olmaqla) Palatanın internet saytında 1 həftə ərzində yerləşdirilir.

## Monitorinq statistikası

**11**
**Auditor təşkilatı**
**2024-cü ildə yoxlanılmışdır**

**15**
**Auditor təşkilatı**
**2025-ci ildə yoxlanılmışdır**



***DİQQƏTİNİZƏ GÖRƏ MİNNƏTDARIQ.***

*Latviyanın Sertifikatlı Auditorlar Assosiasiyasının (LZRA) üzvü,*
*ƏL/TMM üzrə mütəxəssis*

***Kiril KONDRATOVS***

# The Role of Sworn Auditors in Combating Money Laundering, Terrorist Financing and Sanctions

**Kirils Kondratovs**

Sworn Auditor
ACAMS Certified AML Specialist
Certified Tax Consultant
Member of LZRA AML/CTF committee

1

# I. ROLE OF SWORN AUDITORS IN AML/CTF AND SANCTION RESILIENCE




2

## II. INTERNATIONAL REGULATIONS, GUIDELINES & METHODOLOGY

- EU AML Directives & regulations:

  EU 2015/849 Directive: Directive - 2015/849 - EN - aml directive - EUR-Lex
  EU 2018/843 Directive: Directive - 2018/843 - EN - aml directive - EUR-Lex
  EU High risk countries: Delegated regulation - 2020/855 - EN - EUR-Lex

- FATF Recommendations & Guidelines:

  High-Risk Jurisdictions subject to a Call for Action - 21 February 2025
  Jurisdictions under Increased Monitoring - 21 February 2025
  FATF Guidance on AML/CFT measures and financial inclusion, with a supplement on customer due diligence
  FATF Guidance for a Risk-Based Approach for the Accounting Profession

3

## III. HARMONIZATION OF AUDITOR'S PRACTICE: ROADMAP

- Each Auditor's practice needs to perform:
  - Implementation of Internal Quality System in accordance with IAASB ISQM 1 Standard [1]
  - Amendment of Customer Acceptance procedure
  - Amendment of Task Acceptance procedure
  - Consider specific AML/CTF risks during audit engagement process
  - Regular staff learning and testing
  - Regular review of practice internal & regulatory documents

*[1] International Standard on Quality Management (ISQM) 1, Quality Management for Firms that Perform Audits or Reviews of Financial Statements, or Other Assurance or Related Services Engagements*

4

# IV. INTERNAL CONTROL SYSTEM (ICS) AND CUSTOMER DUE DILIGENCE (CDD)

📌 ICS must be based on a risk assessment tailored to business activities and risks.

- Risk-based approach **both for customer and audit engagement acceptance**
- Set of procedures to mitigate possible risks
- Updated on regular basis to cope with AML/CTF risks

✅ ICS must include procedures for:

- Customer risk assessment and monitoring
- CDD and identification of suspicious transactions
- Reporting to FIU, data retention, employee training
- Independent audits ("cold" checks) and whistleblowing (if 50+ employees)

5

# V. CUSTOMER ACCEPTANCE PROCEDURE AMENDMENT

📌 CDD is required:

- Prior to establishing business relationships
- When high-value transactions or suspicious activity are identified
- When management and/or UBO structure has become obsolete

📌 CDD scope:

- UBO – Ultimate Beneficial Owner
- Decision Making Unit
- Media information

📌 ECDD is required:

- When PeP is identified
- When AML/CTF risks cannot be mitigated below immaterial threshold
- When business activity is performed in the industry with significant risk (according to FIU guidelines)

📌 ECDD scope:

- Source of wealth (Origins of UBO funds)
- PeP – Politically Exposed Person
- Thorough business transaction analysis

6

# CUSTOMER ACCEPTANCE PROCEDURE AMENDMENT

📌 Client AML/CFT and sanctions risk assessments must be holistic, covering legal, geographic, service, and delivery dimensions.

✅ Most valuable insights come from **non-public, client-provided information.**
✅ Questionnaires should be **designed to extract detailed, specific risk factors:**
- UBO check
- Company check
- Business activity check

✅ High-risk indicators **require enhanced due diligence and documentation.**

✅ Understanding **geographic and sectoral exposure** is critical for sanctions compliance.

7

# CLIENT AML/CFT RISKS – KEY CATEGORIES

📌 **Four Risk Categories to Assess** During Client Due Diligence:

✅ **Client Risk**
Legal form, ownership structure, nature of business or personal activities of the client or beneficial owner.

✅ **Geographical Risk**
Connection to countries or regions with high ML/TF/PF risks due to economic, legal, or political conditions.

✅ **Product/Service Risk**
Risk of misuse of the institution's products or services for ML/TF/PF purposes.

✅ **Delivery Channel Risk**
How the client accesses or uses services (e.g., non-face-to-face, intermediaries).

🛡️ Due diligence questionnaires must gather sufficient information across all four categories to support accurate risk assessments.

8

# SANCTIONS RISK FACTORS

✅ **Sanctions Risk Indicators:**

- History of sanctions breaches or attempts.
- Business in dual-use or strategic goods.
- Trade or tourism with sanctioned countries or neighbors.
- Activities involving restricted sectors (e.g., concrete, electronics).

🛡 **If elevated sanctions risk is identified:**

- Perform ECDD
- Gather transaction details and documentation.
- Verify counterparties and beneficial owners.
- Check goods and routes against sanctions lists.

9

# VI. TASK ACCEPTANCE PROCEDURE AMENDMENT

✅ Main risks (red flags) that needs to be taken into consideration (FIU AML typology):

- KYP procedures for business partners of our Customer:
  - off-shores
  - Shell companies
  - Professional Service Providers
- Business activity
  - Deals without reasonable economic substance and other trade-based money laundering
  - Unusual real estate activity
  - Cross-border activity
  - Assignments
- Crypto Assets & NFTs
- Sanctions bypass and/or evasion

10

## CONTACTS

**Kirils Kondratovs**

Sworn Auditor
ACAMS Certified AML Specialist
Certified Tax Consultant
Member of LZRA AML/CTF committee

+371 29 231 204
kko@corvusfirm.com

11

**TÖVSİYƏLƏR**

***Hazırlayanlar.***
***Elnur İBRAHİMOV – Auditin hüquqi tənzimlənməsi və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə idarəsinin rəisi***
***Həbibə MƏMMƏDOVA – Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə söbəsinin müdiri***

2025-ci il 23-24 may tarixində "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə nəzarət orqanlarının rolu, vəzifələri və məsuliyyəti" mövzusunda keçirilmiş beynəlxalq elmi-praktik konfransın iştirakçıları tərəfindən qəbul edilmişdir.

**RECOMMENDATİONS**

***Prepared by.***
***Elnur İBRAHİMOV –***
Head of the Department for Legal Regulation of Audit and On the prevention of the legalization of criminally obtained property and the financing of terrorism

***Habiba MAMEDOVA – Head of the Devision on the prevention of the legalization of criminally obtained property and the financing of terrorism***

On May 23-24, 2025, " Roles, Duties and Responsibilities of Supervisory Authorities in Combating the Legalization of Criminally Obtained Property and Financing of Terrorism" was accepted by the participants of the international scientific-practical conference.

Maliyyəçilərə və auditorlara tövsiyə edilsin ki.

1. İqtisadi sabitliyə, ictimai təhlükəsizliyə və milli təhlükəsizliyə olan təhdidlərin qarşısının alınması üçün effektiv milli nəzarət mexanizmlərinin qurulması və beynəlxalq əməkdaşlığın gücləndirilməsi.
2. Risk əsaslı nəzarət, auditorların və vergi xidmətlərinin rolu və maliyyə təhlilinə əsaslanan istintaq yanaşmalarının dəqiq müəyyən edilməsi.
3. Ayrı-ayrı şəxslərin hesablarına köçürülən pul vəsaitlərinin nağdlaşdırılması və ya dolayı əməliyyatlarla izinin itirilməsinin qarşısının alınması üçün yeni mexanizmlərin işlənməsi.
4. Terrorçuluq və terrorçuluğun maliyyələşdirilməsi məqsədilə sadə vətəndaşların xidmətlərindən əlverişli vasitə kimi istifadə edilməsi.
5. Müştəri uyğunluğu (eyinləşdirmə və verifikasiya) tədbirləri aparmaq, həqiqi

benifisiarı müəyyən etmək üçün əlavə alətlərin yaradılması.

6. Vətəndaşın ünvanına gələn anonim pul vəsaiti barədə əvvəlcədən hüquq mühafizə orqanına məlumat verməməsinin və sonradan onun terrorçuların və ya xarici kəşfiyyatın xidmətçisinə çevirilməsinin qarşısının alınması.
7. Mürəkkəb və sürətlə dəyişən çağırışlar hüquq-mühafizə orqanları üçün qlobal miqyasda yeni və çoxşaxəli vəzifələr müəyyən edir. Azərbaycan bu təhlükələrin qarşısını almaq üçün beynəlxalq tərəfdaşlarla sıx əməkdaşlıq çərçivəsində öz imkanlarını gücləndirməlidir.
8. Mühasiblərin və auditorların həm çirkli pulların aşkarlanmasında, həm də hüquqi uyğunluğun təmin olunmasında rolunu müəyyənləşdirən Beynəlxalq Audit Standartlarına (məsələn, 240 və 250 BAS) və beynəlxalq təcrübələrə uyğun hərəkət etmələrinə nail olmaq.
9. Çirkli pulların yuyulması və kibercinayətkarlıq ilə effektiv mübarizədə müasir texnologiyaların və süni intellektin istifadəsi də nəzarət orqanlarının diqqət mərkəzində durmalıdır
10. Cəmiyyəti çirkli pulların yuyulması və bu fenomenin fəsadları barədə maarifləndirmək.
11. Ölkələrimizdə dayanıqlı və yaşıl iqtisadiyyatın hesabatlılıq və şəffaflıqla bağlı bir sıra problemlərin həllinə, bu istiqamətdə mühasiblərə və auditorlara vəzifələrinin daha ciddi yerinə yetirilməsi.
12. Maliyyə hesabatlarının MHBS-a uyğun tərtib edilməsi üçün təsərrüfat subyektlərinin xərclərini azaldacaq, belə ki, qeyri-maddi aktivlərin Azərbaycan Respublikasında uçotu metodologiyasının MHBS uyğunlaşdırılmasını təmin edilməsi.
13. *Audit prosedurları , qayda və qanunlara aşkar olunmuş və ya ehtimal edilən riayətetməmə barədə rəhbərliyə və idarəetməyə məsul şəxslərə məlumatın verilməsi.*
14. *Aşkar olunmuş və ya ehtimal edilən riayətetməmə barədə müəssisədən kənar müvafiq səlahiyyətli orqanların (qanunvericiliyin tələblərinə uyğun olaraq) məlumatlandırılması.*
15. Risk qiymətləndirilməsi zamanı nəzarət orqanları.
    - Hədəfli olmalıdır, «0» səhv düşüncəsindən qaçınılmalıdır
    - Etimadın təsis olunmasına yönəlməlidir
    - Maliyyə inkluzivliyi nəzərə alınmalıdır
    - Öncə dəstək ol sonra cəzalandır prinsipi tətbiq edilməlidir.
    - İnandırma və məcburetmə elementlərini birləşdirməlidir
16. Sahibkarların ənənəvi (birbaşa) statistik metodlarla müşahidəyə cəlb edilməsinin təmini.
17. İstehsal olunan mal və xidmətlərin real həcminin bilərəkdən tam və ya qismən gizlədilməsinin qarşısının alınması.
18. Terminoloji dolaşıqlığın aradan qaldırılması.
19. Azərbaycanın rəsmi statistikasında qeyri-qanuni fəaliyyət ÜDM-ə daxil edilməsinə

nail olunması.

20. Bu sahədə daha effektiv nəticələr əldə etmək üçün beynəlxalq əməkdaşlığın genişdirilməsi.
21. Yeni texnologiyalar və innovativ maliyyə monitorinq sistemlərinin tətbiqi, bu sahədə daha effektiv fəaliyyət göstərilməsi.
22. Bu sahədə risk əsaslı yanaşmanın tətbiqi, sanksiya tətbiq edilməli fiziki şəxslərin və qurumların birbaşa və ya dolayı yolla aktivlərdən faydalanmasının qarşısının alınması.
23. Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti ilə müvafiq sahədə məlumat mübadiləsinin birgə həyata keçirilməsi.
24. "Shell" şirkətlərin yaranması ilə bağlı səbəblərin təhlil olunaraq risklərin müəyyən edilməsi, bununla bağlı hüquqi şəxslərin qeydiyyat prosedurlarının təkmilləşdirilməsi.
25. Vergidən yayınma cinayətlərini törədən vergi ödəyicilərinin faktiki rəhbərlərinin (benefisiarların) aşkarlanması.
26. Vergi cinayətləri ilə mübarizə sahəsində risk və təhdidlərin müəyyənləşdirilməsi.
27. Beynəlxalq təcrübədə istifadə olunan "çəkindirmə" metodlarından istifadə edilməsi, bu çərçivədə vergi cinayəti törətmiş şəxslərin işləri barədə məlumatların açıqlanması.
28. Bütün aidiyyəti şəxsləri və qurumları bir-biri ilə əməkdaşlıq etməyə və birgə fəaliyyətlərə qoşulmalarına nail olunması.
29. Bütün aidiyyəti şəxsləri və qurumları DVX ilə sıx əməkdaşlıq etməyə və birgə fəaliyyətlərə qoşulmağa cəlb etmək.
30. Ölkələr pul yuyulmasının qarşısını almaq üçün çoxsaylı təşəbbüslər həyata keçirirlər. **FATF** (Financial Action Task Force) kimi təşkilatlar, ölkələrin qanunvericiliyini və maliyyə nəzarətini mütəmadi olaraq qiymətləndirir. Lakin, təəssüf ki, hər il yüzlərlə yeni texnologiya yaranır ki, bu da cinayətkarların yeni üsullar yaratmasına imkan verir. Bu sahədə mübarizənin gücləndirilməsi.
31. Universitetlərlə əməkdaşlıq edərək "Maliyyə Texnologiyaları və Süni İntellekt", "Rəqəmsal Audit və Təhlükəsizlik" kimi yeni bakalavr və magistr proqramları yaradılmalı.
32. Mövcud maliyyə, audit və hüquq fakültələrinin tədris planlarına "Süni İntellektin ƏLTMM-də Tətbiqi", "Big Data Təhlili" və "Kiber Təhlükəsizlik" kimi fənlər daxil edilməli.
33. Tələbələr üçün praktiki laboratoriyalar və real case study-lər təşkil edilməli.
34. Auditorlar Palatası tərəfindən süni intelektin əsasları, machine learning, qraf analizi kimi mövzularda interaktiv onlayn kurslar, vebinarlar və praktiki seminarlar təşkil edilməli.
35. Beynəlxalq təlim mərkəzləri və süni intelekt şirkətləri ilə əməkdaşlıq edilərək qabaqcıl təcrübələrin öyrənilməsi təmin edilməli.
36. Təlimlərdə real ƏL/TMM case study-ləri və süni intellekt tətbiqi nümunələri istifadə olunmalı.

37. Auditorlar Palatası nəzdində süni intellekt mütəxəssisləri və ƏL/TMM üzrə mütəxəssislərin bir araya gələcəyi işlək qruplar və platformalar yaradılmalı.
38. Birgə tədqiqat layihələri və pilot tətbiqlər üçün maliyyə və digər təşviqlər təmin edilməli.
39. Süni intelekt startapları və texnologiya şirkətləri ilə əməkdaşlıq imkanları araşdırılmalı.
40. Məlumatların təhlükəsizliyini və məxfiliyini təmin edən, standartlaşdırılmış formatlarda məlumat mübadiləsinə imkan verən milli ƏL/TMM məlumat platforması yaradılmalı.
41. Bu platformada süni intelekt alqoritmlərinin tətbiqi üçün lazımi infrastruktur təmin edilməli.
42. Beynəlxalq məlumat mübadiləsi platformaları ilə inteqrasiya imkanları araşdırılmalı.
43. ƏL/TMM sahəsində süni intellekt tətbiqinin hüquqi əsaslarını müəyyən edən qanunvericilik aktları və təlimatlar hazırlanmalı.
44. Bu çərçivədə məlumatların qorunması, alqoritmik qərəzliliklə mübarizə, şəffaflıq və cavabdehlik prinsipləri nəzərə alınmalı.
45. Bəzi hallarda nəzarət orqanları tərəfindən əmlakın cinayət yolu ilə əldə edilməsi riskinə malik sahələrə daha çox diqqət yönəldilmir, bu istiqamətdə risklərin vaxtaşırı və dəqiq qiymətləndirilməsi, monitorinq subyektlərinin risk profilini formallaşdıran bütün müvafiq məlumatlara səyyar və kameral vasitəsi ilə çıxışın təmin edilməsi prosesinin təmini.
46. Texniki, həm də operativ hərəkətetmə qabiliyyətinə malik sistemin yaradılmalı.
47. Məlumatların toplandığı vahid sistemin yaradılması üçün mənbələr istintaq materiallarından, sahələr üzrə tipoloji hesabatlardan, nəzarət orqanlarının hesabatlarından, milli səviyyədə təhdid qiymətləndirmələrindən, qarşılıqlı qiymətləndirmə hesabatlarından, hüquq mühafizə orqanlarında olan ümumi informasiyalardan ibarət olmalıdır.
48. Risklərin müəyyən edilməsi məqsədilə hər sahə üzrə əsaslı monitorinq sisteminin yaradılması, mübarizə tədbirlərinin təsirinin qiymətləndirilməsi, dövlət qurumlarının fəaliyyətinin monitorinq və qiymətləndirmə mexanizminin yaradılması.
49. Pozuntuların baş verməsinə şərait yaradan halların, habelə həssas sahələrin, təhdid və zəifliklərin vaxtında aşkar edilməsi üçün risk əsaslı dövrü təhlil metodologiyaları yaradılmalıdır.
50. Risk amillərinin ilkin siyahısının tərtib edilməsi qaydalarının yaradılması və müvafiq dövlət orqanlarına bu amillər üzrə məlumatların vahid bazada toplanması üçün məcburi göstərişlərin verilməsi, qeyri-dövlət orqanları, xüsusilə kənar maliyyə nəzarəti orqanlarının da bu sistemə daxil edilməsi.
51. Eyniləşdirmə vasitələri və verifikasiya (müştəri uyğunluğu tədbirləri) həyata keçirilməsi üçün üsul və vasitələrin azlığı, məlumat mənbələrinə giriş imkanının zəif olması, şəxsi maraqların şübhəli halların və əməliyyatların müəyyən edilməsi üçün

eyniləşdirmə aparılmasını üstələməsi səbəbindən risklərin idarə edilməsi.

52. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması cinayətlərinin istintaqı prosesində maliyyə məlumatlarının əldə edilməsi, toplanması, düzgün təhlil olunaraq istifadə edilməsi, operativ hərəkətetmə qabiliyyətinin formalaşdırılması, məlumatlara əlçatanlığın təmini üçün asan formaların yaradılması.
53. Müəssisə, idarə və təşkilatlarda qəbul edilmiş idarəetmə qərarlarının əsaslılığını və səmərəliliyini qiymətləndirilməsi, kənarlaşmaları və əlverişli olmayan vəziyyətləri aşkara çıxarmaqla yanaşı, fəaliyyətdə risklərin idarə olunması, aradan qaldırılması və ya azaldılması üzrə qərarların qəbul edilməsi, aşkar edilmiş kənarlaşmaların səbəb-nəticə əlaqələrini müəyyənləşdirərək, yoxlanılan obyektdə fəaliyyətin mövcud vəziyyətini yaxşılaşdırmaq üçün tövsiyə və təkliflər verməklə maliyyə nəzarəti qurumlarının və yoxlayıcıların fəaliyyətinin istiqamətləndirilməsi və genişləndirilməsi.
54. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizənin mütəşəkkil formada aparılmasında yoxlayıcıların da iştirak etməsi, bu sahədə onların peşəkar vərdişlərindən istifadə edilməsi üçün pul vəsaitlərinin və əmlakların hərəkəti ilə bağlı məlumatların qeydiyyatını aparan orqanlarla, habelə maliyyə monitorinqi orqanı ilə əməkdaşlıq edilməsi üçün müvafiq koordinasiya mexanizminin yaradılması.
55. Maliyyə qurumlarından, nəzarətedici orqanlardan müştəri tanıma məlumatlarının alınaraq bir mərkəzdə toplanması, qeydiyyata alınaraq daimi yenilənməsi, həmin məlumatların əldə edilməsinin asanlaşdırılması.
56. Şübhəli əməliyyatlar üzrə hüquqi şəxsə sahibliyi və nəzarəti həyata keçirən fiziki şəxslər, onların maliyyə hesabatları, ödədiyi vergilər, eləcə də səlahiyyətlərin ötürülməsinə dair məlumatların vahid reyestrdə əks etdirilməsi və bu reyestrlərdə olan məlumatların mütəmadi yenilənməsi.
57. Şəxsiyyətin eyniləşdirilməsi üçün məlumatları almaq və ya məlumatların doğruluğunu təyin etmək üçün müştərinin və ya müştərinin adından çıxış edən şəxsin və ya şəxslərin kimliyinin təsbit edilməsi və əməliyyat nəticəsində əsl fayda (gəlir) götürənin (maraqlı şəxs) ortaya çıxarılması üçün tədbirlərin görülməsi.
58. Əməliyyatların müştərilərin peşəsi, ticarət fəaliyyəti, iş keçmişi, maliyyə vəziyyəti, risk profili, fond mənbələrinə dair məlumatlar ilə uyğun olub-olmamasınının davamedən münasibətlər ərzində müntəzəm olaraq izlənilməsi, müştəri haqqında məlumat, sənəd və qeydiyyatların daimi təzələnməsi.
59. Dövlət və qeyri-dövlət müəssisələrində, özəl subyektlərdə üz-üzə olmayan əməliyyatların aparılmasını mümkün edən üsul və vasitələrdən istifadə edilərək həyata keçirilən sürətli iş münasibətləri, hesaba pul köçürmək, hesabdan pul çəkmək, elektron pul dövriyyəsi kimi əməliyyatlara xüsusi diqqət göstərilməsi, müştərinin maliyyə profilinə və fəaliyyətinə uyğun olmayan və ya fəaliyyəti ilə bağlılığı olmayan əməliyyatların izlənilməsi, əməliyyatın həcmi və sayını müəyyən etmək və nəzarəti təmin etmək üçün uyğun sistemlərin yaradılması.
60. Sifariş və ya müqavilə əsasında müəssisələrin fəaliyyətini sağlamlaşdırmaq,

pozuntuları aşkara çıxarmaq məqsədilə yoxlamalar həyata keçirilərkən dövlətin maraqlarına qəsd edən digər hallar (vergi və ya digər məcburi ödənişləri ödəməkdən yayınma, gəlirləri gizlətmə, qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma, nağdlaşdırma əməliyyatlarında iştirak, dövlət satınalmalarında iştirakla əlaqədar qanun pozuntuları və sair hallar) aşkar edildikdə müəssisənin maraqlarına zidd olsa belə, müvafiq hüquq mühafizə orqanlarına məlumat verməklə, toplanmış materialların təqdim edilməsi.

61. Müəssisə, idarə və təşkilatlarda qəbul edilmiş idarəetmə qərarlarının əsaslılığını və səmərəliliyini qiymətləndirmək, kənarlaşmaları və əlverişli olmayan vəziyyətləri aşkara çıxarmaqla yanaşı, fəaliyyətdə risklərin idarə olunması, aradan qaldırılması və ya azaldılması üzrə qərarların qəbul edilməsi, aşkar edilmiş kənarlaşmaların səbəb nəticə əlaqələrini müəyyənləşdirərək, yoxlanılan obyektdə fəaliyyətin mövcud vəziyyətini yaxşılaşdırmaq üçün tövsiyə və təkliflər verməklə audit fəaliyyətinin genişləndirilməsi.
62. Korporativ idarəetmə sisteminin beynəlxalq standartlara uyğun inkişaf etdirilməsi üçün müəssisələrə köməklik göstərilməsi.
63. Cinayətlərin baş verməsinə səbəb olan təhdidlərin müəyyən edilməsi üçün yoxlayıcılar və ya auditorlar tərəfindən sahələr üzrə tipoloji hesabatların hazırlanması, milli və beynəlxalq səviyyədə təhdid qiymətləndirmələrinin aparılıması.
64. Müəssislərin normal fəaliyyəti, dövlətin iqtisadi təhlükəsizliyi üçün əhəmiyyət kəsb etdiyinə görə təsərrüfatsızlığa, korrupsiyaya, qanun pozuntularına, çirkli pulların yuyulmasına şərait yaradan halların təhlil edilərək boşluqların, vəzifəli şəxslərin qanunsuz hərəkətlərinin, eyni pozuntuların təkrarlanmasının, adət halını almasının qarşısının alınaraq aradan qaldırılması üçün məlumatların toplanması mexanizminin yaradılması.
65. Mərkəzləşdirilmiş milli bank reyestrlərinin və ödəniş hesabları reyestrlərinin və yaxud məlumatların axtarılmasının mərkəzləşdirilmiş sistemlərinin yaradılaraq maliyyə məlumatlarının reyestr və sistemlərinə öhdəlik daşıyan şəxslərə çıxış imkanının verilməsi.
66. “Follow the money (pulun arxasınca get)” prinsipi üzrə maliyyə araşdırmaları institutundan fəal şəkildə istifadə olunması.
67. Məlumatların verilməsi üçün təşviq siyasətinin həyata keçirilməsi, məlumatların bir bazada toplanması, çeşidlənməsi və istifadə olunması.
68. Maliyyə nəzarəti orqanları tərəfindən leqallaşdırma ilə bağlı yüksək riskə malik sahələrə diqqətin yönəldilməsi, korrupsiya riskinin konkret sahələr üzrə dəqiq qiymətləndirməsinin aparılması, monitorinq subyektlərinin risk profilinin formalaşdırılması.
69. Risklərin müəyyən edilməsi məqsədilə sahələr üzrə əsaslı monitorinq sisteminin yaradılması, mübarizə tədbirlərinin təsirliliyinin qiymətləndirilməsi, təsərrüfatsızlıq hallarına şərait yaradan halların, həssas sahələrin, aşkar edilməsi üçün risk əsaslı dövrü təhlil metodologiyalarının hazırlanması, münasibətlərin iştirakçılarının

yüksək riskli olduğunu müəyyən etməyə kömək edən sahələr üzrə qayda və prosedurların hazırlanması, iştirakçının mövcud statusu, fəaliyyəti, cəmiyyətdə mövqeyi (siyasət ilə əlaqəsi), mənşəyi, gəlirin və mövcud aktivlərinin mənbəyinin müəyyən edilməsi, dövlət təşkilatlarında sektoral yanaşmanın tətbiq edilməsi.

70. İnformatorlar tərəfindən verilən məlumatların toplandığı vahid bazanın yaradılması, yüksək təhlükəsizliyə, anonimliyə və şəxsi məlumatların qorunmasına zəmanət verilməsi sahəsində ciddi və dəqiq addımların atılması.

71. Cinayətkarlığın, inkişaf edən münasibətlərə uyğun olaraq ölkə sərhədindən çıxaraq transmilli xarakter alması və bunun ictimai-siyasi, iqtisadi əsaslara ziyan vurması təhlükəsini nəzərə alınaraq, beynəlxalq və transmilli cinayətkarlığa qarşı mübarizədə, həmçinin dövlət əhəmiyyətli, iri həcmli, kompleks maliyyə araşdırmalarında effektivliyə nail olmaq üçün çoxprofilli qruplar və ya işçi qruplarının təşkil edilməsi.

72. Beynəlxalq maliyyə yoxlamalarının aparılması üçün müəyyən edilən tələblərə və standartlara cavab verən, gələcəkdə hər hansı hüquqpozma baş verdikdə şirkətlərarası, dövlətlərarası, təşkilatlararası iqtisadi, ticari münasibətlərdə ortaya çıxacaq mübahisələrin dövlətimizin iqtisadi subyektlərinin maraqları çərçivəsində həll edilməsi üçün əvvəlcədən potensial qüvvə kimi belə işlərin araşdırılmasında peşəkar manevr etmək qabiliyyəti olan ixtisaslı, günün tələblərinə cavab verən mütəxəssislərin yetişdirilməsi.

73. “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununun həyata keçirilməsi üçün müxtəlif dövlət və qeyri-dövlət müəssisələri qarşısında öhdəliklər yaratmaq və həmin öhdəliklərin həyata keçirilməsinə nəzarəti təmin etmək məqsədi ilə “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair tədbirlər haqqında Qaydalar”ın yaradılması.

74. Qaydalarda Respublika ərazisində fəaliyyət göstərən bütün dövlət və qeyri-dövlət orqanları nəzərə alınmaqla konkret hər bir sahə üzrə öhdəliklər, şəxslərin və münasibətlərin tanınması, eyniləşdirilməsi əsasları və bu istiqamətdə görülən işlər, hüquqi və fiziki şəxslərin maddi vəziyyətinin və fəaliyyətinin, köçürmə və nağd əməliyyatların izlənməsi, riskli ölkələr və şirkətlərlə münasibətlər, görülən tədbirlər, şübhəli əməliyyatlara dair məlumatlar, həmin məlumatların gizliliyi, məlumatı verənlərin qorunması, məlumat və sənədləri vermə, nəzarətin əhatə dairəsi, nəzarətin kimlər tərəfindən həyata keçirilməsi və həyata keçirilmə qaydaları, monitorinqin nəticələri və müəyyən edilən pozuntular əsasında həyata keçirilən hərəkətlər, məlumat və sənədlərin toplanma bazası və mühafizəsi, geriyə məlumatlandırma bölmələrinin təsbit edilməsi. Qaydalarda cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizə tədbirləri çərçivəsində şübhəli halların müəyyən edilməsinin və həmin şübhəli halların nədən ibarət olmasının konkret sadalanması və müəyyən edildiyi halda araşdırmanın aparılmasına səbəb olmasının təsbit edilməsi.

75. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan ehtimal olunan qiymətlərin düzgün müəyyən etmək üçün dövlət müəssisələrinin potensial olaraq ala biləcəyi bütün əmtəə, xidmət və işlərin elektron bazası, onları təqdim edən potensial təchizatçıların katoloqu və müvafiq qiymət cədvəlinin yaradılması, dövri olaraq (ən azı 6 ayda bir dəfə) qiymətlərin yenilənməsi, yeni əmtəə (yaxud iş və xidmət) meydana çıxarsa, malların elektron bazasının yenilənməsi.
76. Maliyyə Monitorinqi Xidmətindən daxil olmuş materiallar əsasında aparılan araşdırmalar zamanı cinayət yolu ilə əldə edilmiş əmlakların əksər hallarda qeri-rəsmi iqtisadiyyatın (kölgə iqtisadiyyatı) nəticəsi olaraq ortaya çıxdığı müəyyən edilmişdir ki, sonradan həmin əmlaklar leqallaşdırılmışdır. Ona görə də qeyri-rəsmi iqtisadiyyatla bağlı təkmil statistik informasiya bazası formalaşdırılmalıdır. Azərbaycanda qeyri-rəsmi iqtisadiyyatla mübarizədə dövlət siyasətinin inkişaf etdirilməsi üçün zəruri olan istiqamətlərindən biri də bu sektorla bağlı mükəmməl rəsmi statistik informasiya bazasının formalaşdırılmasıdır. Bu istiqamətdə ilk növbədə Azərbaycan Dövlət Statistika Komitəsində fəaliyyət göstərən "Gizli iqtisadiyyat" bölməsinin imkanları genişləndirilməlidir. Belə ki, bu struktur qeyri-rəsmi iqtisadiyyatın kəmiyyət qiymətləndirməsi ilə bağlı çalışmalarında beynəlxalq metodologiyadan daha geniş şəkildə istifadə etməli, İqtisadiyyat Nazirliyi, Vergi Xidməti, Dövlət Gömrük Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Maliyyə Nazirliyi, Maliyyə Monitorinqi Xidməti, Auditorlar Palatası, Hesablama Palatası və hüquq mühafizə orqanları kimi dövlət qurumları ilə sıx əməkdaşlıq etməli və bu sahədəki monitorinqlərini, sorğu və anket tədqiqatlarını intensivləşdirməlidir. Eyni zamanda qeyri-rəsmi iqtisadiyyatın kəmiyyət qiymətləndirmələri təkcə makro səviyyədə deyil, sektorlar, regionlar və fəaliyyət sahələri üzrə aparılması.
77. Müstəqil audit xidmətlərinin inkişaf etdirilməsi və onlardan istifadə praktikasının genişləndirilməsi. Bu istiqamətdə ilk növbədə beynəlxalq auditor şirkətlərinin və yerli auditor şirkətlərinin Azərbaycandakı fəaliyyətlərinin genişləndirilməsini stimullaşdırması.
78. Ölkədə bazar subyektlərinin müstəqil audit xidmətlərindən istifadə edilməsi təşviq edilməli, həmçinin də əksər hallarda bunun qanunlarla məcburiliyini təsbit edilməlidir. Xüsusilə, dövlət tərəfindən həyata keçirilən satınalmalarda iştirak etmək istəyən bazar subyektləri üçün müstəqil audit prosesindən keçmə şərti qanunla təsbit edilməlidir.
79. Dövlət və özəl sektorun idarəetmə sistemində yeni dövrün çağırışları nəzərə alınmaqla səmərəli hesabatlılıq mexanizmlərinin qurulması vasitəsilə şəffalığın artırılması.
80. Dövlət və özəl sektor, maliyyə institutları və akademik dairələr arasında daha sıx əməkdaşlıq istiqamətlərini müəyyənləşdirməklə innovativ yanaşmaların maliyyə sistemində səmərəli tətbiqinin genişləndirilməsi.
81. Dövlət maliyyəsinin idarə edilməsinin (DMİE) xüsusiyyətləri nəzərə alınmaqla

qabaqlayıcı monitorinq sisteminin qurulması.

82. Diaqnostik alətlərin (Dövlət Xərcləri və Maliyyə Hesabatlılığı (PEFA), Dövlət İnvestisiyalarının İdarə edilməsinin Qiymətləndirilməsi (PİMA), Vergi İnzibatçılığının Diaqnostik Qiymətləndirmə Aləti (TADAT), Borcun idarəedilməsi Fəaliyyətinin Qiymətləndirilməsi (DeMPA), AAQ-ların fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi sistemi (SAI PMF), Satınalma Sisteminin Qiymətləndirilməsi Metodologiyası (MAPS) və s.) metodoloji tərəflərinin öyrənilməsi və ayrı-ayrı DMİE institutları üzrə qiymətləndirilməsi.
83. Kiçik sahibkarlıq subyektlərində və qeyri-hökumət təşkilatlarında auditin aparılması ilə bağlı qanunvericilikdə dəyişiklik edilməsi.
84. Məcburi ƏL/TMM auditindən keçmə üçün zəruri qanunvericilik bazasının formalaşdırılması.
85. Könüllü ƏL/TMM auditi üçün metodoloji bazanın təklmilləşdirilməsi və təbliğatın aparılması.
86. Performansa əsaslanan büdcənin tərtib edilməsi və icrası.
87. Rəqəmsal və İnteqrasiya edilmiş maliyyə idarəetmə sistemlərinin tətbiqi.
   a. Real vaxt rejimində büdcə izləmə təcrübəsinin tətbiqinə nail olunması.
   b. Mərhələlərə əsaslanan vəsaitlərin ayrılması mexanizmi.
   c. Tam elektron satınalma sistemlərinin tətbiqi.
88. Qabaqcıl dövlət maliyyə idarəçiliyi, büdcə tərtibatı, daxili nəzarət və digər çərçivələrin tətbiqi.
89. Maliyyə nəzarətində süni intellekt texnologiyalarının tətbiqini genişləndirmək üçün bu sahədə çalışan təşkilatların Azərbaycan Elm və Təhsil Nazirliyinin institutlarına dövlət sifarişlərinin verilməsi.
90. Maliyyə resurslarından istifadə edilməsinə nəzarətin keyfiyyətinin yüksəldilməsi.
91. Şəffaflığın artırılması, kölgə iqtisadiyyatının azaldılmasına xidmət edən tədbirlərin əhatə dairəsinin genişləndirilməsi məqsədilə yeni Dövlət proqramının hazırlanması.
92. Maliyyə auditinin əhatə dairəsinin genişləndirilməsi.
93. Optimallaşdırılma məqsədilə regionlarda formalaşan yerli gəlirlərin artırılmasıması və onun bir hissəsinin yerli istehsalın inkişafına yönəldilməsi.
94. İnsan amili, ondan istifadə, peşəkar mütəxəssislərin, əmək adamlarının ixtisarları faktlarının auditor yoxlamalarında, müvafiq hesabatlarda əks olunması.
95. Maliyyə sisteminin təkmilləşməsi məqsədilə nəzarət edənlərin, nəzarət edilənlərin və qərar qəbul edən icra orqanlarının məsuliyyətinin çərçivələrinin müəyyən edilməsi.
96. Xidmətin keyfiyyətinin və vergi ödəyicilərinin rahatlığının yüksəldilməsi üçün elektron xidmətlərin genişləndirilməsi, rəqəmsal həllərə söykənən dəyişikliklər və imkanların yaradılması ilə vergi ödəyicilərinin vaxt itkisinin aradan qaldırılması.
97. Benefisiarların müəyyən edilməsi üçün Vahid Portalın yaradılması.
98. ƏL/TMM mütəxəssislərin hazırlanması üçün ali təhsil ocaqlarında müvafiq ixtisasların tədrisi.